# AZMIŞ ULDUZUN KƏDƏRLİ İŞIĞI: BAŞLANĞIC, İNQİLAB VƏ ZİDDİYYƏT

## (Mirzə Fətəli Axundzadə haqqında söz)

*Kamil Vəli NERİMANOĞLU*

***"Və məndən ancaq əndazə və nümunə göstərmək idi və baniyi-kar olmaq"***
**(M. F. Axundzadə)**

*Ədəbiyyat tariximizin və M.F.Axundzadə yaradıcılığının yeni baxışla araşdırılmasında böyük xidmətləri olan rəhmətliklər* ***M.Ə.Rəsulzadənin, M.Rəfilinin, Ə.Sultanlının, M.Cəfərin, C.Cəfərovun, Y.Qarayevin,*** *tələbəm* ***S.Tağızadənin*** *əziz xatirələrinə...*

*...M.F.Axundzadə irsinin Türkiyədə ən böyük araşdırıcısı Yavuz Akpınara və "Fətəli fəthi" romanının yazarı Çingiz Hüseynova sayqı və salamlarla...*

***Özet:***

*19. yüzyıl Doğu edebiyatında modernleşme çağıdır. Bu dönemde Azerbaycan modern edebiyatının temellerini Mirza Fathali Ahundzade atmıştır. Onun, 19. yüzyılın ortasında yazdığı dram türünde edebî, eleştirel değerlendirme ve felsefi yazılarının oluşturduğu altı eseri, bu modernleşmenin ilk örnekleridir.*

*Çelişkilere rağmen, yeni edebiyat, edebiyat eleştirisi ve modern düşüncenin temellerini ve dahası Türk alfabesi reform projelerinin yanı sıra M.F. Ahundzade adıyla yeni bir fikir ve edebiyat yolunun temellerini oluşturmuştur.*

***Anahtar kelimeler:*** *Modernleşme, felsefe, tiyatro, din, hayat, gerçekçilik, demokrasi görünümü*

---

* Prof. Dr.

***Abstract:***

*The 19th century of the Oriental literature is the age of modernization. It was Mirza Fathali Ahundzade who laid the foundations of Azerbaijanmodern literature in this period. His six works of drama type, literary critical reviews, and philosophical articles which he wrote in the middle of the 19th century are the first examples of modernization.*

*Mirza Fathali's view of religion is contradictory. Following the denying and uncompromising attitude toward the religion of Islam, he laid the foundations of atheist viewpoints and the national Azerbaijan ideology found this viewpoint odd.*

*Despite contradictions, he created Fundamentals of a new idea and literaty way by laying the foundations of the new literature, literary criticism and modern thinking and moreover, Turkish alphabet reform projects are related to the name of M. F. Ahundzade as well.*

***Key words:*** *Modernization, philosophy, drama, religion, view of life, realism, democracy*

Bu yazını ziddiyyətli dahi haqqında ziddiyyətli bir adamın yazısı kimi də oxuya bilərsiniz, sevgi və nifrət elegiyası kimi də. Fərq etməz. Söhbət yalnız dəyərləndirməkdən və təhlil, tənqid etməkdən deyil, 200 il əvvəl baş verənlərdən və 200 il sonra baş verəcəklərdən, düşüncə burulğanının sonsuzluğundan, tarixin seçim yollarından, insanın, millətin və dünyanın taleyindən gedir. Görsək də, görməsək də, inansaq da, inanmasaq da.

80-ci illərin əvvəllində M.F.Axundzadə haqqında iki məqalə yazmışam. O illərdə ən yeni ədəbiyyat uğrunda mücadilədə Mirzə Fətəli məktəbini (Mirzə Cəlil, M.Ə.Sabir, H.Üzeyir bəy, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, M.Ə.Rəsulzadə...) maarifçiliyin, demokratizmin, yeni ədəbiyyatın təməli olaraq aldığımız üçün ayrı-ayrı yazılarda, Mirzə Fətəliyə isnad etmiş, onun elmi və bədii düşüncələrindən çox bəhrələnmişəm.

Bu yazı bir növ o qeydlərin davamı və bəlkə də sonudur. Əlbəttə, Mirzə Fətəli yaradıcılığı bir yazıya sığacaq və ya tükənəcək qədər hüdudlu deyil. Həmin mənada Mirzə Fətəlihaqqında düşüncələr nisbi mənada bitə bilər. Çünki Mirzə Fətəli həmişəyaşardır. O, hər zamankı kimi bugün də öyrədir, öyrənir, düşünür və düşündürür.

Həyatım boyu çox dinsiz tanıdım, inanan qatil də gördüm, imansız molla ilə, əliəyri, vicdansız namaz qılan da. Allahsızları oxudum, söhbətlər etdim. Keçirdiyim ilk hiss onlara qəzəblənmək, nifrət oldu. Bir az keçdi Allahsızlığı və yalançı "Allahlılığı" dərk etməyə çalışdım. Səmimi Allahsızla, səmimi olmayan dindarı ayırd etməyə cəhd etdim. İmanı, məzhəbi, şəriəti, təriqəti, mərifəti, həqiqəti öyrənməyə, özüm üçün aydınlaşdırmağa çalışdım. Qəzalini, Əl-Ərəbini, Mövlananı, Füzulini oxudum. Renessansı və Avropa

maarifçilərini anlamağa cəhd etdim və çox şey də anladım. Tövratı, İncili, Quranı həm inanan və həm də inanmayanların önyarqısı ilə oxudum, haqqın yolunu tapmağa çalışdım. İdrak yolunda o Allahsızlara və yalançı Allahlılara yazığım gəldi.

Deyə bilərsiniz ki, Allahsızların da Allahlılara yazığı gəlir. Haqlısınız. Sən avama nə qədər nifrət edirsənsə, avam onun on qatı sənə nifrət edir. Kimi isə mühakimə etmək istəmirəm. Özünütəsdiq, axına qarşı üzmək, fərqlilik duyğularını da anlayıram. Səmimi dinsizləri də dərk etməyə çalışıram. Allah və insan araşdırmasını elmi və bədii müstəvidə gerçəkləşdirən dahilərin elmi və bədii araşdırmalarından çox şey öyrəndiyimi söyləməyə borcluyam. Bu mənada özəlliklə, Qəzalidən, Füzulidən, Dostoyevskidən çox şey öyrəndim.

Bütün bu təcrübə mənim Mirzə Fətəliyə yenidən üz tutmağıma rəvac verdi. Dinlinin dininə, dinsizin dinsizliyinə sayqı ilə düşüncələrimi qələmə almaq yeni nəslin inanc araşdırmalarına işıq tutmaq, dinsizliklə dini, fanatizm və cəhalətlə din fəlsəfəsinin nə qədər uzaq olduğunun üzərində dayanmaq istədim. Yeni nəslin arayışlarına, axtarışlarına, Mirzə Fətəli mövqeyindən aydınlıq gətirilməsini faydalı bildim. Vicdan və din azadlığı kontekstində tarixlə, tarixi şəxsiyyətlərlə söhbəti üz tutduğum gənclər üçün vacib bildim.

Bu yazını həm də gedənlərlə gələnlərin, əbədi dəyərlərlə zamanı bağlı keçici dəyərlərin dialoqu kimi də oxuya bilərsiniz. Hər kəs istədiyi hər şeyi qəbul və əlbəttə ki, qəbul etməməkdə azaddır, oxucum.

...Göydə ulduz olmayanda ürəyim nəhayətsiz dərəcədə sıxılır. Göydə ulduz olmayanda özümü hədsiz bir tənhalıq, yalqızlıq içində hiss edirəm. Göydə ulduz olmayanda elə bilirəm ki, Allah məni görmür, eşitmir, dinləmir.

...Bir millət, bir Vətən ikiyə ayrıldıqdan sonra dünyanın xəritəsi də, insanı da büsbütün dəyişdi. Modern adlanan yeni çağ dünyaya başqa bir baxış, fərqli bir düşüncə gətirmişdi. Dünya başqa bir dünya olmağa başladığı bu vaxtda yer üzünə gələnlərdən biri də Mirzə Fətəli idi - Mirzə Fətəli Axundzadə.

Bəzən həyata elə təsadüflər olur ki, (təsadüfmü?!), o təsadüf insanın taleyini dəyişir, ona tamam başqa yön, istiqamət vermiş olur.

Balaca Fətəlinin Güney Azərbaycanın Xamnə bölgəsindən, atasından ayrılıb, anası ilə Quzeyə - Şəkiyə gəlməsi qəzavü-qədərin cilvəsi idi. Mən İran üçün Şərq istibdadı, dini-fanatizm ölkəsi kəlmələrini işlətmək istəmirəm. Traferetləşmiş bu basmaqəlib kəlmələr bir az siyasət, bir az da önyarqı qoxuduğu üçün bukəlmələri işlətməyəcəyəm və ya çox az işlətməyə çalışacağam.

Kəlmələr də uşaq kimidir. Hansı mühitə, zamana düşürsə, onun valideyni də o mühit, zaman olur.

O zamanın Xamnəsi ilə Şəkisi arasında tarix, mənəviyyat, mədəniyyət fərqi o qədər də böyük deyildi, sərhəd-filan da indiki sərhədlərdən deyildi. Fəqət tarixən bir yurdun iki yöndə gələcəyi var idi ki, o zaman doğulan uşaqlar bu yolların fərqsizliyindən dəhşətli dərəcədə böyük fərqin olacağını bilmədən, dərk etmədən onu yaratmalı, qurmalı idilər.

Bir şeyi yaratmaq, qurmaq Allahın verdiyi missiyadır. Sonralar Mirzə Fətəli bu missiyanı Allahın deyil, zamanın, şəraitin, şərtlərin verdiyi qənaətinə gələcək.

Amma hələ o zamana xeyli var və balaca Fətəli böyük olmaq üçün dayısı Hacı Ələsgərin dizinin dibində oturub Sədini oxuyur, Quranı öyrənməyə, əzbərləməyə çalışır, ərəb-fars dünyasının bağlı qapılarını açmaq üçün açar arayır, idrak dənizindəki sularda çırpınırdı. Atasız böyümək hər bir uşaqda böyük bir kompleksin içində çırpınmaq deməkdi. Dayısı Hacı Ələsgərin atalıq qayğısı atanı əvəz etmirdi. O, Fətəlinin doğma süd qohumu, daha çox müəllim idi. Hacı, bacısı oğlunun simasında böyük bir din alimi yetişdirmək istəyirdi.

Sən saydığını say, gör fələk nə sayır, ay Hacı Ələsgər kişi... Sən haradan biləydin ki, bu sarışın uşaq öyrətdiyin əlifbanın, ehkamların, nəsihətlərin barışmaz düşməni olacaq. Sənin açdığın qapıdan dünyaya girməyəcək bu dünyaya heyrətlə baxan uşaq. Bu uşağı anası Gündoğanda, Şərqdə doğub, ancaq onun fikir qisməti Günbatandaymış. Şərqdə doğulub, Qərb təfəkkürü yolu tutmaq da bir qisməti-ilahidir. Orta əsrlərdə Batı ilə Doğu yer dəyişdirdi. İbn Sina, Fərabi, İbn Rüşd Batıya köçüb Batılı oldu, onların yerini cəhalət tutdu. Xaçlı yürüşləri ilə Koperniklərin, Qalileyləri edama, həbsə məhkum edənlər Rafael oldu, da Vinçi oldu, Şekspir oldu. Bu sürəc 4-5 əsr içində tamamlanmağa doğru getdi. Müsəlman renessansını, Quran elminin, fəlsəfəsinin yerini Batı renessansı, insan mərkəzli düşüncə tutdu. Hegel Şərqin böyüklüyü qarşısında diz çöküb səcdə edəndə, cəhalətin tüstüsü Şərqi bürüyəndə kəşf edilən kəsif qoxulu buxar maşını dünyaya başqa bir yön – istiqamət verdi.

Modern çağ, renessansın çiyinləri üstə yarandı. Batı fəlsəfəsi, siyasi, iqtisadi texnologiyası, ədəbiyyatı, mədəniyyəti yüksəldikcə Osmanlı imperiyası çöküşə doğru gedir, Şərq sömürü meydanına çevrilirdi. “Tüfəng çıxmış, mərdlik bitmiş”, yeni dünya yaranmağa başlamışdı. Çağdaş Avropanı qurub yaradan Adam Smitlər, Dürkhaymlar, Kantlar, Hegellər, Nyutonlar, Erazmlar, Napoleonlar, Volterlər, Didrolar, Molyerlər, Balzaklar, Dikkenslər, Tolstoylar, Dostoyevskilər... yeni Avropanın, “yengi dünya” adlanan Amerikanın memarı olaraq ortaya çıxanda feodal hərc-mərcliyi içində çarpışan, bir-birini yeyən Şərq yaddaşını qeyb edir, mövhumat ehkam, cəhalət, fanatizm içində boğulmaya başlayırdı.

Şərqin örnək kimi Qərbə üz tutması, Qərbin model kimi Şərqə gəlməyə başlaması daha acı fəsadları yetişdirirdi. Şərqin gələnəyi içində hazırlanmamış

formatlar ictimai-siyasi həyatda da, elmdə və sənətdə də, düşüncə həyatında da böyük ziddiyyətlər doğurmaya başlayırdı...

Azərbaycan türkü Mirzə Fətəli bu ziddiyyətləri insan şəklindəki ən böyük və canlı ifadəsidir. Mirzə Fətəlinin Gülüstandan, Bustandan, Qurandan başlayan yolunun Voltere, Didroya, Monteksyeyə, Molyerə... gəlməsi həm çox təbii, həm də çox qeyri-təbii sürəcin ifadəsiydi. İnsanın ata-anası ilə bərabər həm də öz zamanının övladı olmasının da canlı ifadələrindən biri də yeni Mirzə Fətəlidir. Demokratiya, inqilab, rasionalizm... kimi dəyərlər Vətən, zaman və zəmin tanımayan qavramlardır.

...Mirzə Fətəlinin Şərq ədəbiyyatında ən çox bəyəndiyi şəxsiyyət Mövlanədir. Hegelin də vurğunu olduğu Mevlanə fəlsəfəsi ilk növbədə Qurana söykənir. Mövlanənin söykəndiyi xalq təfəkkürü, xalq ədəbiyyatı da çox böyük bir qaynaqdır. "Ya olduğun kimi görün, ya da göründüyün kimi ol"- deyən Mövlanənin fəlsəfi düşüncəni şeirin, hekayətin, ibrətli kəlamın içində ifadə etməsi Şərq fəlsəfə yoludur. Bunu Qərb fəlsəfəsinin etiraz və qəbul etməsi zərurətdir. Çünki ağlın yolu birdir. Quran.

Mövlananın din və özəlliklə Quran hermenevtikası ilahi varlığın və gerçək dünyanın ən gözəl dini-fəlsəfi yorumlarından biridir.

Qurana qarşı olan Mirzə Fətəlinin Mövlana sevgisi və təqdiri də bir paradoksdur. İnqilabçı Mirzə Fətəli ilə mütəfəkkir Mirzə Fətəlinin fərqi də elə bundadır.

Xalqın mənəviyyatı tarixi göy üzünü andırır, böyük və ucsuz-bucaqsız boşluğun hüdudu, mənzərəsi xalqın içindən çıxan övladlarıdır. Dünyaya gəlib-gedən, əməlləri ilə yandırdıqları işıqla göy üzündə xalqın ruhu kimi yaşayan bu ulduzlar həmişə xalqladır, bizimlədir, mənimlədir. Hər nə dağılarsa-dağılsın, işığının bir ucu mənim və hamının ürəyində olan ulduzlar göydədirsə, demək, dünya yerindədir, dünyanın nizamı pozulmayıb, demək, dünya ulduzların üzünə hələ yaşayır.

Göy üzünün ulduzlarından biri də sübh ulduzumuz, xalqının tale ulduzu Mirzə Fətəli Axundzadədir. Hələ Mirzə Fətəli doğulmamış tarix onun üçün kifayət qədər ağır ziddiyyətlər, barışmaz qüvvələr, mürəkkəb vəziyyətlər doğurmuşdu. O, dünyaya göz açmamış, onun dağlar qədər dərdi, ələmi olan dünyaya göz açmışdı.

Mirzə Fətəli haqqında danışmaq xalqın tarixinin elə bir dövrünə qayıtmaqdır ki, o dövr haqqında bütün nəsillər öz sözünü demiş və deyəcəkdir. Hər nəslin özünü idarə, özünü tanıma, tarixə qayıtmaq və özünü diriltmək, yaşatmaq ehtirası var. Bə hər nəsil Mirzə Fətəlidəki dərinliklərə gedib çıxan qatları öyrəndikcə, dərk etdikcə öz duyumunu, öz tapıntısını, öz Mirzə Fətəlisini təqdim edəcək.

Bu mənada Mirzə Fətəlinin həyatı və yaradıcılığı öz tərcümeyi-halından çox-çox genişdir, xalqın tarixi inkişafının bütöv bir mərhələsidir.

Ancaq Mirzə Cəlil demişkən, "*Mirzə Fətəli Axundovun barəsində ya çox yazmaq lazımdır, ya heç yazmamaq lazımdır.*

*Mirzə Fətəli Axundovun barəsində ya yaxşı yazmaq lazımdır, ya heç yazmamaq lazımdır*".

Mirzə Fətəliyə böyük bir sayqının, muqəddəs bir ehtiramın ifadəsi olan bu sözləri oxuyanda inandım ki, Mirzə Fətəli haqqında onun özunə layiq sözü biz hələ deməmişik. Ümid var, gələcək nəsil bu sözü desin, necə lazımsa, necə layiqsə elə desin.

***

...Yeni dövr dünyaya qəflətən gəlmədi. Antik dövrdən başlamış butün zamanların içində hüceyrə-hüceyrə yetişən, toxuma-toxuma cücərən yeni dövr öz kökünə, mənbəyinə tamam yeni biçim vermiş, dünyanın indiyə qədər bəlli olmayan yeni mənzərəsini çəkmiş, yeni arzu və ideallara, həvəs və istəklərə, zövq və amallara yol açmışdı.

...Hər xalq da yeni dövrü eyni cür qarşılamadı. Zamanın və inkişafın ayrı-ayrı mərhələlərini yaşayan, psixoloji iqlimin müxtəlif ərazilərində yaşayan xalqlar üçun yeni mənəvi dünya ayrı cür də ola bilməzdi.

Amma bir cəhət büsbütün aydın idi: yaşamaq istəyən hər xalq bu dövrə gəlib çıxmalı idi, bu dövrdən süzülüb keçməli idi və yaşamaq haqqı almalı idi.

Çağdaş mədəniyyətin astanasına gəlib çatmış bütün xalqların tarixində yeni dövrə keçid ideoloji zəminin yetişməsi, sosioloji, fəlsəfi, ədəbi-estetik bəraət almaq dövrü şərəfli, ibrətli və mürəkkəb bir tarixi dövr kimi xatırlanır. Hər nəsil bu dövrü həyat məktəbi kimi öyrənməyə çalışır.

Azərbaycan xalqının yeni dövrü Mirzə Fətəli Axundovun adı ilə bağlıdır.

O Mirzə Fətəli ki...

Azərbaycan xalqının mənəvi müqəddəratını həll etməkdə ilk addım atdı, həyatını bu müqəddəs amala qurban verənlərin ilkiydi. Dəhşət və sarsıntı dolu gərgin həyat bir xalqın gələcəyi üçün, bütün Şərqin sabahı üçün yandı.

Dahi, qeyri-adi istedad bir şeyi mütləq tapmalı idi: dirçəlişin, yeni oyanışın milli formulasını.

Avropa xalqları üçün doğru olan çıxış və nicat yolları Şərqdə yoxlanmalı, spesifik, ictimai-siyasi, milli-ənənəvi, tarixi-psixoloji şəraitin hər şeyi – ictimai inkişafın və milli mədəniyyətin bütün komponentləri bu formula üzrə hesablanmalı idi.

İki mədəniyyət arasında dayanmış dahi şəxsiyyətin beynində hər şey süzulməli, zamanın ağır sınağı üçün dönə-dönə hesablanmalı, ölçülub-

biçilməli idi, çünki xalqın "*...qanı sorulmuş və hərəkətdən düşmüşdür. Onların damarlarına təzə və isti qan tökmək və hərəkətə gətirmək lazımdır*". (M.F.Axundzadə)

Xalqa təbiətin və tarixin vergisi olan Mirzə Fətəli yeni dövrü duyub dərk eləyəndə öz milliyyətinin varlığını gələcəyini, yaşamaq haqqını gözündən bir an da olsun uzaq tutmadı, sabah üçun, sabah naminə çarpışdı.

...Hər şey yenidən qurulmalı idi. Bu kəsif hava, bu iyrənc mühit, bu mənəviyyat, bu əxlaq tamam dəyişməli idi, mütləq dəyişməli idi! Xalq bu böyük cərrahiyyə əməliyyatına dözəcəkdimi? Cərrah bu ağır, çətin əməliyyatı başa çatdıra biləcəkdimi?

Zaman Mirzə Fətəlini böyük imtahan qarşısında qoymuşdu. İslam dünyasının mövhumat və cəhalət zehniyyəti hopmuş mühitdə, ənənəvi sənətlə mayalanmış beyin yeni dövrün havasında yaşamaq üçün çox dəyişməli, əsaslı şəkildə yenidən qurulmalı idi. Xalqın tarixində böyük və müqəddəs olan hər şeyi saxlamaq və hər şeyi müasir dünyanın havasına uyğun, müasir inkişafın tələbincə yenidən qurmaq ağır, çox ağır əməliyyat idi...

***Çünki "bəhər hal Mirzə Fətəlinin günahı öz əsrinin əhli-imanları nəzərində vaqeən nəhayət imiş; səbəb budur ki, o, əl vurduğu işlərin hamısından "qan qoxusu" gəlirdi"(Mirzə Cəlil).***

Bu sözlərdən "qan qoxusu" ifadəsini yadda saxlayıb, Mirzə Fətəlinin bu uzun, ağır, məşəqqət dolu çarpışma yoluna üz tutaq...

***

...Rus imperiyası.

Bir adamın xoşbəxtliyi minlərlə adamın bədbəxtliyi uzərində qurulur, bir adamın bədbəxtliyi kiminsə xoşbəxtliyinin dibində, lap onun görünməz bir yerində gizlənir. Bir qrup adamı xoşbəxt etmək üçün yüzlərlə xalqın qanı, canı, maddi və mənəvi sərvəti axıb gedirdi. Və bu bir qrup adamın "xoşbəxtliyi" yüzlərlə xalqın bədbəxtliyi üzərində qururlurdu. Ancaq bu qrup adamın məxsus olduğu xalqın da yüzlərlə, minlərlə öz bədbəxti var idi. Və ağır işgəncədən, ziddiyyət və sarsıntıdan xəstələnən xalq Avropadan aldığı mənəvi sərvəti özündən süzəndə aydın oldu ki, yalnız öz dərdi, kədəri böyüklüyündə mənəvi qüdrətə malikdir.

Rus kəndlisinin, rus ziyalısının taleyi dünyaya dalbadal verdiyi dahilərdən başqa, bir də həmin dahilərin ifadə etdikləri həyatın qəribəliyi, zənginliyi, doluluğunda idi. Ziddiyyətlər içərisində yaşayan Rusiya sehrli, hələ qeyri-müəyyən bir işığa hamilə qalmışdı.

"Xalqlar həbsxanası"nda tarixin yeganə ümidi həmin o bətndə yetişəcək körpə idi. Tarix möcüzə gözləyirdi. Və bu möcüzənin vətəni o körpə idi.

Avropanın və Rusiyanın, Rusiya tərkibində məngənə içində yaşayan onlarca xalqın böyük oğulları artıq o körpəni aydınca görür, o körpə üçün, o körpənin yaşaması üçün yaşayırdılar.

...Rusiya qaynayırdı. Peterburqun saraylarından Dağıstan dağlarnacan, Moskvanın tünlüyündən adamsızlığınacan... Ölkə öz sənayesi, iqtisadiyyatı, mənəviyyatı, mədəniyyəti ilə yeni zaman qarşısında dayanmışdı. Yaşamaq üçün yol arayıb axtarırdı.

Bu yolu tapmaq həmin o gələcək körpə üçün zəruri idi. Tarixin çıxış yolu idi bu yol.

Tarixin çıxış yolunu tapmaq Mirzə Fətəlinin də alnına yazılıbmış.

...Deyirlər, insan yalnız öz dərdini yaşayır. Və zaman keçdikcə hər şeyi unudur və nəhayət, yalnız özü ilə bağlı yaddaşını saxlayır. Axırda onu da unudub ölür. Bəs bu necə olur ki, insan ulu babasının çəkdiyi ağrını da yaşayır, quldarlıq çağındakı qulların ağrılan onun bədənində dolaşır, cəhad zamanları məhv olan minlərlə fanatikin ölümünü bədənində gəzdirir, canında, qanında insanın indiyə qədər çəkdiklərini yaşayırdı. Və bu ağrı elə dünyanın ağrısıydı. Ağır dünyanın, fani deyilən dünyanın...

Ayrı-ayrı adamların çəkdiyi bu ağrını ovutmaqdan, qətrə-qətrə azaltmaqdan söhbət getmir. Söhbət ondan gedir ki, belinə, ürəyinə bu qədər ağır yük yüklənən adam hara gedəcəkdi, neyləyəçəkdi, bu dünya ondan başqa qisaslarını necə alacaqdı.

Hamı qabağındakı cığırı görürdü, amma o, cığırın hansı yolla, bu yolun özünün haraya aparıb çıxardığmı görürdü.

Hamı çörəyi görürdü, amma o, çörəyi yetişdirən torpağı görurdü.

Hər yaradıcı öz xalqını az-çox tanıyır. Amma o, bütün xalqları, millətləribiryerdə, birdərddə, birsevincdə, bir ümiddə görürdü.

...Ağrı var ki, onun kökü insanın özündədir. Ağrının kökünü tapanda o ağrı azalır. İnsanın elə ağrısı da var ki, onun mənbəyi insandan kənardadır. Bu ağrının müalicəsi, təşxisi çətindir. Çünki bu ağrının kökü insanın bir parçası olduğu toplumun, insan cəmiyyətinin ağrısıdır və nə qədər ki, çəmiyyət xəstədir, o can ağrımalıdır...

"*Kaş, anadan doğulmayaydıq! Doğulsaq da, kaş başqaları kimi olaydıq, yeməkdən, içməkdən, geyinməkdən ləzzət alıb, nəticəsiz və aqibəti olmayan arzu və məqsədlər ardınca gedəydik! Vallah, müasirlərimin vecsiz olmaları nəticəsində yaşayış mənə haram olmuşdur. Zəhərdən acı bir həyat keçirirəm...*"

"*Böyük bədbəxtlikdir ki, insan elə bir millətin içərisində yoxluq aləmindən varlıq aləminə qədəm qoysun və haqqı anlasın, ancaq öz nadan həmvətənlərinə onu anlada bilməsin və bu dünyadan qüssə və həsrətlə getsin*".

Mirzə Fətəlinin apardığı bu qanlı mübarizənin bir kökü də özündə idi, ən böyük çarpışma, ən böyük təlatüm Mirzə Fətəlinin içində gedirdi.

Dünyanı - təbiəti və cəmiyyəti idrakın çətin və dolaşıq yolları uzun idi, hardan başlayıb harada bitdiyindən xəbər verən yox idi.

Və Mirzə Fətəli özü ilə mübarizədə ədalətli idi, olduqca təmiz idi. Mirzə Fətəli heç vaxt ürəyini satmamışdı, içindəki cəbhələri satmamışdı və o gizli müharibə həmişəlik mübhəm qalmışdı.

Mirzə Fətəli kamalın yetə bildiyi uca bir yerdə dayanıb ətrafı seyr edirdi. Gözəl anlayırdı ki, insan dünyanı özü boyda görə bilər, öz qədrini də dəf edə bilər; içi insan qarışıq bu keşməkeşli dünya sonsuzdur, nə əvvəli var, nə sonu...

Ancaq bu sonsuzluğun sonu elə sən özünsən, həm də özün deyilsən. Bu sonsuz yolda qərar tutmalı, zamanın gəlişini-gedişini anlamalı, vətən üçün ağrımalı, ağlamalı, bir ovuc toxum əkməli, bir ağac dikməli, bir yarpaq insan dərdi yazmalı, dünyaya, insana dalmalı, ağır olan çox şeyi çiyinlərində çəkməli, çəkməli, çəkməlisən...

Tale Mirzə Fətəliyə böyük faciələr hazırlayıbmış...Bu sakit, xeyirxah, gülərüz, ucaboy kişini nə ağır imtahanlar gözləyirmiş...

...Üç uşaq bir neçə gün ərzində qızılçadan ölmüşdü. Sonra altı uşaq...

"*Son dərəcə sevdiyim kiçik bir qızım var idi ki, o da bu son günlərdə gözlənilmədən öldü. İndi mən onun fərağında ağlayır və yanıb-yaxılıram*".

"*...Qəm-qüssənin çoxluğundan ölüm arzulayıramsa da, mənə qismət olmur. Odur ki, bir neçə saatlığa qəm və qüssəni unutmaq xatirinə özümə bir məşğələ axtarıram. Çünki bu məhərrəm ayının 17-də Xanbaba xanın arvadı olan qızım sizə məlum olan xəstəlik nəticəsində ölmüşdür. Ondan iki uşaq qalmışdır ki, biri 4 yaşında qızdır, ikincisi 3 yaşında oğlan. Belə isə nə vəziyyətdə olduğumu artıq soruşmayın*".

- Ey yer, ey göy, ey ay, ey günəş, ey ulduzlar, mənim günahım nə imiş, mən kimə nə pislik eləmişəm ki, bu qədər dərd-bəlanı mənə çəkdirirsiz... Nə imiş bu körpələrin suçu? Onların yarası ölüncə mənnən gedəcək. O körpələrin hər birinin təbəssümü, qığıltısı, dediyi ilk söz yadımdadı, həmişəlik yadımdadı, indi elə bilirəm, bu torpağın altında da onlar mənə baxır, gülümsəyirlər.

…Mirzə Fətəli Tiflisin ucqar küçələrinin kimsəsiz yerində idi, onun göz yaşları süzülüb axırdı. Qəddi azacıq əyilmişdi. Mirzə Fətəli yeri-göyü çağırıb öz-özü ilə danışırdı, təbiətdən cavab gözləyirdi fəqət, cavab tapa bilmirdi. Allahın qəzəbi. Mirzə Fətəli Allahın qəzəbinə gəlmişdi bəlkə? Dinlərin, dindarların tənqidi, Allahın yerdəki kölgəsi olan padşahların tənqidi tanrıya xoş getməyib bəlkə? Tanrı balalarını bir-bir əlindən ala-ala Mirzə Fətəlinin sinəsinə dağ çəkir bəlkə?

Bəlkə bu ucda-bucaqda gəzən sözlər, pıçıltılar, nifrətlə baxan gözlərin dediyi doğrudur...

(Bu sözləri yazanda Mirzə Cəlilin acı dolu sözlərini xatırladım "*Ömrümün hansı guşəsinə baxdımsa tüstü gördüm. Tüstü, tüstü, tüstü…*")

Mirzə göz yaşlarını sildi. Gördü ki, balalarının sıra-sıra yatdığı qəbiristanlığa gəlib çıxıb. Diz çöküb balalarını bir-bir öpdü. Hava qaralmışdı. Ulduzlar çıxmışdı. Mirzə Fətəli səssizlikdə için-için ağlayırdı. Bir xeyli də keçdi. Mirzə Fətəli ulduzlara baxdı, kainatı dərindən dinlədi, bu gecənin içindən keçib uzaqdan, lap uzaqdan, kainatın qərib bir guşəsindən dünyaya baxdı, ulu ahənglə baxdı, nə əvvəli, nə sonu olan müqəddəs hərəkətə baxdı. Bu gecənin zamanından keçib min il qabağa getdi. Mirzə özündən ayrılıb, min adamın bəlasının kədərindən keçdi, min adamın öz kədərindən keçdi. Vətənin minillik kədərindən keçdi. Dünyanı dolaşdı və bir də gördü ki evindədir, oturub, əlində qələm nəsə yazır.

Mirzə Fətəlinin vəzifəsi, çini, gündəlik rəsmi həyatı necə ağır keçirdi, təsəvvür etmək çətin deyil.

Çar hökumətinin Şərq siyasəti, amansız və dolanbac müstəqillik yolları və sərt imperiya məntiqi Mirzə Fətəlinin gözü qarşısında idi. Və Mirzə Fətəli böyuk Puşkinin ölümünə matəm mərsiyəsi yazanda çar hökumətinə qarşı münasibətini dolaylı yolla ifadə etmiş və İran, Hindistan adı ilə çar dövlətçilik siyasətinin daşını daş üstə qoymamışdı.

Qan içində boğulan xalqlar Mirzə Fətəliyə çox şey öyrətmişdi.

Məktublardakı uca ağaclara müraciətləri, xahişləri yada salaq. Və bunu da yada salaq ki, "*Mirzə Fətəlinin ömrü ictimai sahəyə qədəm qoyandan axır nəfəsinə qədər böyük bir faciə içərisində keçmişdir. Epoletlər, imtiyazlar, xaç və medallarla bəzənmiş paltarın altında od tutub alışmaqda olan bir ürək döyünməkdə idi. Ətraf zülmət və cəhalət, bir nəfər də olsa dil bilən yox, camaatı qoyun kimi istədikləri yerə sürən ruhanilər başlarında şeyxül-islam Molla Əhməd olmaq üzrə -Zaqafqaziyada təkcə yanmaqda olan bu çırağın işığının qabağına qalın bir pərdə çəkirdilər*" (Ə.Haqverdiyev).

Din və xurafat adamlarının qəzəbi Mirzə Fətəlini bütün ömrü boyu addımbaaddım izləyirdi. Əlifba ilə bağlı, insanın fikir və düşüncə azadlığı ilə bağlı, nə deyirdisə, onun ilk maneəsi dövlət və din idi. Mirzə Fətəli bu mübarizənin də ehtiyat yolunu gördü: "*Zahirdə öz həmməzhəblərimizlə qardaşcasına yola getməliyik; batində isə haqq yolunun yolçusu olmalıyıq*".

Mirzə Fətəli yazandaki,"*...bəni-növibəşərinəyyamı həyatında üç qism ehtiyacı var: əvvəlincisi - ehtiyaci-cismanidir, ikincisi - ehtiyaci-əqli, üçüncüsü - ehtiyaci-ruhani*", bütün gücü ilə buna çalışırdı ki, bu ehtiyacları ödəsin. Və bunun üçün də qələmə sarılmışdı.

Bu qələm rus şeirinin günəşinə yana-yana ağladı, ilk dəfə dərdli ürəyinin sirrini açdı...

Bu qələm rus və Avropa mədəniyyətinə qapı açdı. Elə bir qapı ki, oradan təqlid, pərəstiş havası yox, öyrənmə, dərketmə havası və özünə həmdəmlər, həmdərdlər, həmmübarizlər daxil oldu.

"*Avropa filosoflarının təcrübələri və bir çox inkar edilməz həyati dəlillər sübut etmişdir ki, tənqid istehza və məsxərədən başqa, pis və yaramaz əməlləri insan təbiətindən heç bir vasitə ilə məhv etmək olmaz...*"

"*Mən rus dilini yaxşı bilirəm, indiki əsrdə rus dili inşa eimində və s. cəhətlərdə gün-gündən tərəqqi edir və incə mətləbləri ifadə etməkdən ötrü misilsiz bir dildir*".

Şekspir və Molyer, Volter və Monteskye, Holbax və Darvin, Belinski və Çernışevski... onun sevdiyi, mütaliə etdiyi ağıl və zəka sahibləri idi.

Şərqdən baxanda Qərbi, Qərbdən baxanda Şərqi çox aydın görurdü Mirzə Fətəli.

"*Əvvəldə mədəniyyət toxumu İslam xalqlarının yaşadığı torpaqda göyərmişdir*", - deyən Mirzə Fətəli fəryad edirdi: "*Ey mömünlər, qəflət yuxusundan ayılın, bəlkə, nicat tapasınız; çünki sizin dörd tərəfinizdəki qonşularınız oyanmışlar və yüksək mərtəbəyə çatmışlar. Halbuki siz cəhalət qaranlığında qalaraq köləlik barı ilə bağlı və azadlıq nemətlərindən məhrumsunuz*".

Mirzə Fətəlinin gördüyü üfüqlər olduqca aydın, işıqlı idi. "*Keçmişlərdə Avropada da belə zənn edirdilər ki, zalimə zülmü tərk etdirmək üçün ona nəsihət etmək lazımdır; sonra gördülər ki, nəsihət zalimin təbiətinə qətiyyən təsir etmir. Buna görə də millət özü, dinin manesizliyi sayəsində elmlərdə tərəqqi edərək birliyin faydalarını anladı və bir-biri ilə yekdil-yekcəhət olub, zalimə müraciətlə dedi ki:* "*Səltənət və hökumət busatından əl çək!..*"

Mirzə Fətəli özü üçün gün kimi aydın olan bu müraciəti ustalıqla xatırlayır: "*Zülm*" *məsdərdir. Onun ismi-faili* "*zalim və ismi-məfulu* "*məzlum*"*dur. Məsdər olan zülmü aradan qaldırmaq üçün iki şey lazımdır: ya zalım zülmdən əl çəkməlidir, ya da məzlum zülmə dözməlidir. İdrakın təsdiqi zülmü dəf etməkdə bu iki yoldan başqa heç bir yol təsəvvür edə bilməz*".

Bu sakit qrammatik izahatdan sonra müraciət yenidən partlayır: "*Ey nadan, sən ki qüdrət, səy və bacarıq cəhətdən zalimdən qat-qat artıqsan, bəs nə üçün zülmə qatlaşırsan? Qəflət yuxusundan oyan və zalimin atasının goruna od vur!*"

Qan qoxuyan bu inqilabi müraciət çox illər, çox yollar keçəcək, çox dolaylar adlayacaq və nəhayət, böyük, qarşısıalınmaz bir qüvvənin yeni dünya qurmaq, yeni həyat yaratmaq idealının həqiqətinə çevriləcək...

Ancaq o uzaq gunlərə çox var idi. Və o uzaq günlərə çatmaq üçün addımlamaq, irəli getmək lazım idi.

Mirzə Fətəli fıkrə dalmışdı və onun fikri qəribə bir dünyada dolaşırdı: "*Canlılar aləmində insan daima tərəqqi tələb edən bir növdür və fikir azadlığı olmadan tərəqqi mümkün ola bilməz. Tərəqqinin nəticəsini zəmanəmizdə sivilizasyon adlandırırlar. Sivilizasyon elə bir ümumi sözdur ki, onun məzmununda bütün sənətlər, fənlər, qüdrəti-dövlət, millətin asayişi və mədəniyyətin bu kimi şərtləri cəm olmuşdur... əgər cəmiyyət öz fərdlərinə fikir azadlığı verməzsə və onları ata-babanın və övliyanın qərar verdikləri şeylərlə kifayət etməyə və bunlardan kənar çıxmamağa və ağıllarını mədəniyyət işlərində işlətməməyə məcbur edərsə, bu surətdə fərdlər yerəkən məhsul toplayan və hər bir işi düşünmədən və fikir etmədən görən avtomat olarlar; və ya onlar dəyirman atlarına bənzərlər ki, hər gün müəyyən dairədə dolanarlar və öz vaxtında da arpa-saman yeyib su içər və yatarlar, sonra yenə oyanıb haman dünənki dolanışı dünyanın axırına qədər təkrar edirlər. Və bu biçarə atların hərgiz xətri olmaz ki, dünyada çəmənlər, otlaqlar, çayırqlıqlar, çiçəkliklər, meşələr, dağlar və dərələr vardır; əgər bağlı olmasaydılar, dünyada gəzərdilər və o könul açan yerləri görərdilər və dünya nemətlərindən tamamilə faydalanmış olardılar*".

Mirzə Fətəli "bəşər dostları" ifadəsini işlədir və dünyanın böyük fılosof və mütəfəkkirlərini bəşər dostu sayır.

Özü də böyük bəşər dostu olan Mirzə Fətəlinin iti baxışları yalnız gələcəyə dikilmişdi: "*Məgər siz bilirsiniz ki, insanın kəlləsində olan bir ovuc beyni nə qədər müxtəlif və mürəkkəb fikirlərin xəzinəsidir. İnsanın fikri və xəyalının vüsəti qarşısında yeni yollar tapmaq heç də çətin deyildir*".

Bu yollardan biri də "qan qoxusu gələn" məsələləri səhnəyə çıxarmaq, xalqı özü ilə üzbəüz qoymaq idi. "Mülayimlik və məsələni ört-basdır etmək tənqid şərtlərinə ziddir" - deyən Mirzə Fətəli qısa bir zamanda yeni Azərbaycan ədəbiyyatının bünövrəsi olan altı klassik komediyasını təzə üfuqlərə çıxardı.

"Mərhum Mirzə Fətəlinin komediyaları məişətimizin təəccüblü bir ayinəsidir ki, zahirimizi də və batinimizi də eyni ilə göstərir. Müruri-əyyam isə bu ayinənin üzünə qonubdur. Bu tozu silib, ayinəni üzünə seyqal verəndən sonra diqqət ilə ona baxsaq, öz surətimizi onda görərik və bir-birimizi tanıyarıq. Batini-aləmimizdə, əmali-naməşruqə və əhvali-şəniəmizə dürüst diqqət yetirsək, xəcalət çəkib yəqin edərik ki, bu yarım əsrin müddətində uzaq getməmişik; cüzi dəyişikliyimiz olubsa, o da ancaq zahiridir. İçərimiz və mənəvi tərəfimiz haman irəliki qərar üzrə qalıbdır...

Odur ki, Mirzə Fətəlinin komediyalarını oxuyan bəsirət əhli bir tərəfdən gülürsə, bir tərəfdən də həzin-həzin ağlayıb göz yaşı tökür. Gülmək görünür,

amma göz yaşı dərunidir, görünmür. Onun ağır damcıları ürəyin üstünə düşüb onu dəlir, yaralayır...” (Firudinbəy Köçərli).

...Zaman keçəcək, bu komediyaiarın bətnindən “Yağışdan çıxdıq, yağmura düşdük”, “Nadanlıq”, “Marallarım”, “Ölülər”, “Anamın kitabı”, “Dəli yığıncağı”, “Hophopnamə”, “Məşədi İbad” və minlərlə örnəyi olan müasir Azərbaycan ədəbiyyatı dünyaya gələçək. Azərbaycan dilinin əsl bayramı olan bu altı komediya yalnız reallıq, dərinlik, sadəlik, aydınlıq, müdriklik salnaməsi kimi tarixə yazılmadı, həm də tarixin özünü yaratdı.

Xalqın mənəvi problemlərini, daha çox ictimai fikirlərini aydın etmək üçün Mirzə Fətəli yeni yollar arayırdı. Və bu yolların biri realist Azərbaycan nəsrinin ilk nümunəsi olan “Aldanmış kəvakib”ə gətirib çıxardı. Zaman Mirzəni ürək sözlərini demək üçün tarix yollarına çıxarmışdı. Amma o, tarix deyil, müasirlərinə ibrət dərsi olan gözəl bir hekayə yazmışdı: “Mən məgər tarix yazmışam ki, təkçə baş verən hadisələri yazmaqla kifayətlənim? Mən kiçik bir məsələni əlimdə vasitə edib, öz təfəkkürümlə onu genişləndirərək” o dövrün nazirləri və dövlət başçılarının puçbeyinliyini açıb göstərmişəm ki, gələcək nəsillər üçün ibrət dərsi olsun və onlar səfih münəccimlərin sözlərinə və xəbərlərinə inanmasınlar; özlərini bu kimi hərəkətlərlə əcnəbilərin nəzərində məsxərə hədəfi etməsinlər”.

Mirzə Fətəlini həyat və tarix özü filosof elədi. Dünyanın zamanın və insanın axtarış yolları olan, “Kəmalüddövlə məktubları”nı yaratdı.

Monteskye “Fars məktubları”nı yazanda onun məqsədi aydın idi. Ancaq uzaqdan dərdin nə olduğu çətin bilinsin. Dərdin içində onun bir parçası kimi dilə gəlmək, od tutub alışmaq, gizli-gizli yanmaq və “qan qoxuyan” mətləbləri birər-birər açmaq çətin, olduqca məşəqqətli idi. Uzun yolun yolçusu, ağsaçlı yorğun Mirzə Fətəli dinin kökünə gedir, qadın azadlığından, əlifba inqilabından söz açır, təbiətin və cəmiyyətin Şərqdə misli görünməmiş səlis və aydın mənzərəsini çəkir. Çoxmənalı və simvolik izahlar, siyasi eyhamlar, ictimai problemlərlə zəngin olan bu məktubların böyük məntiqinə irad və cavab qeyri-mümkündür. Bunu tarixin və zananın özü sübut edib.

Həsən bəy Zərdabinin ilk Azərbaycan qəzetini çap etməsi qoca Mirzə Fətəliyə yeni ilham, inam gətirdi və enerjisi tükənməyən insan yenidən çağladı: “*Qoy bizim millətimiz də bir az gözü açılıb fanatiklikdən çıxsın, bəlkə, patriot olsun, onda hər nə etsən, baş tutar*”. İstər “Əkinci” qəzeti üçün, istərsə də müasir Azərbaycan mətbuatı və ziyalısı üçün həmişə canlı və isti olan bu sözləri bir daha xatırlatmaq istərdik:

“*Sizin qəzetinizin əsas məziyyətlərindən biri ifadənin gözəlliyi, ibarələrin zərifliyi və aydınlığı, orfoqrafiyanın düzgünlüyü olmalıdır. Çünki, sizin qəzetiniz başqa məsələlərlə yanaşı, Azərbaycan yazısını düzgün olmayan*

*ifadələrdən təmizləməyə çalışmalı, bu dildə yazan bütün adamlar üçün nümunə olmalıdır*".

Mübarizə daha çox hərbi məntiqə söykənir. Müqəddəs olan, çox şey mübarizə praktikasından zamana və məkana uyğun qiymət alır. Mirzə Fətəli bu mübarizədə Füzuli sənətini belə inkar edirdi. Mirzə Fətəli Axundzadə dahi idi. Və gözəl bilirdi ki, Füzulidən baxanda yer məntiqi, reallıq fəlsəfəsi, gündəlik dərdlərin, işlərin mübarizəsi çox sönük, hardasa hətta maraqsız görünür. Bu baxışı 300 il sonra qabaqlayan Mirzə Fətəli öz ideologiyası və mübarizəsi xatirinə Füzuliyə elə baxmalı, onu inkar etməli idi.

Mirzə Fətəli Axundovun Füzulini inkarı səhv idi, amma dahinin səhvi idi. Bu səhv milli oyanış, qurtuluş üçün buraxılmış səhv idi.

Nə qədər ağrılı, nə qədər faciəli olsa da, Mirzə Fətəli Füzulini inkar etməli idi. Füzuli Azərbaycan dilində, azərbaycan mənəviyyatında əsaslı şəkildə kök salmış qüdrətli sənətkar idi. Bədii sözün hər cür qüdrətini, nazikliyini və böyüklüyünü yaratmaqda təbiət Füzulidən heç nəyi əsirgəməmişdi. İndi bu bədii sözün tufanı qarşısında dayanmaq lazım idi.

"*Füzulinin bir qəzəli yüzlərlə şairlər üçün ilham mənbəyi olur, şairlər öz şeirlərini ona bənzətməyə çalışırdılar.* "*Füzuliyanə*" *qəzəllər yazmaq şairlərin idealı olmuşdur. Bənzətmələr, təxmislər yol alıb gedirdi. Ədəbiyyat öz normal yolunu itirmiş, həlqəvi bir gedişlə Füzulinin başına hərlənir, haraya getdiyini özü də bilmirdi. Füzuli elə bir tilsim idi ki, ədəbiyyatımız ondan bir addım belə olsun bayıra çıxmır və uzun illər yeni bir şəklə keçmirdi*" (Cəfər Cabbarlı). Və əslində özü yeni bir dinə çevrilmiş Füzulinin işğal etdiyi ürəyi real həyatın ziddiyyətli real mübarizə və çarpışmalarına çağırmaq üçün o ilahi kəlmələri unutmaq lazım idi. Azərbaycan xalqının mənəviyyatında elə bir inqilab lazım idi ki, orada ilahi eşq, sözün sehri, real həyatın üstündə təsəvvür edilən xəyali dünya unudulsun.

Və Axundzadə ürəyinin ən təmiz yerində Füzulinin kim olduğunu gözəl bilirdi və inanırdı ki, arzuladığı sonra yaşayacaq xoşbəxt azərbaycanlılar Füzuli ilə Axundovu heç bir vaxt bir-birindən ayırmayacaq və onların hər ikisinin adını müqəddəs tutacaqlar.

Düşmənlərindən görünən Mirzə Fətəli.

Tələbə və davamçılarından görünən Mirzə Fətəli.

Oğlu Rəşiddən görünən Mirzə Fətəli.

Bizdən görünən Mirzə Fətəli.

Və sabahdan görünən Mirzə Fətəli.

Sən həmişə eyni adamsan, müdrik qoca, dodaqları bir-birinə sıxılı, baxışları dərdli, üzü qətiyyət, iradə, əzm dolu, alnına öz taleyindən daha çox xalqının taleyi yazılmış nurlu kişi, böyük insan...

Mirzəyə dostu Manukçi Sahib məktublarının birində yazır: "*Dünəniniz, bu gününüz və sabahınız mübarək olsun!*" Dünən, bu gün və sabah dünyanın bütün zamanları sonsuzluğun insan ağlına sığan ölçüsü deməkdir!

Dünyanın Azərbaycan adlı bucağında bir insan yaşadı. O uzaq və qədim diyarın bir adamı başını özünə söykəyib özünü dərk etmək, dunyaya, kainata baxıb onu dərk etmək, insanın özünü dərk etmək üçün uzun illər fıkrə daldı. Min illərin fıkrini bir ömürdə çəkdi. Böyük ziddiyyətlər yaşadı. Və nəhayət, nə istəyirdisə, onu da tapdı. Bir qismini öz gözü ilə gördü, bir qismini gün kimi aydın gördüyü gələçəkdə tapdı. "*Gələcək nəsillər heç olmasa bunu anlayacaqlar ki, biz insanlıq vəzifəmizi yerinə yetirmişik, qoy indi bizə lənət oxusunlar. Bir zaman qəbrimizin ziyarətinə gələcəklər*" (Melkum xan). Və o bütün həyatını bu dünya üçün, bu dünyanın insan adlı övladı üçün verdi. Yer üzünü bürüyən zülmətin bir parçasına da o, işıq saldı və insanı bir parça qaranlıqdan o xilas etdi. Dünən, bu gün və sabah sənindir, Mirzə. Dünəniniz, bugününüz və sabahınız mübarək olsun!

...Mirzə Fətəlinin təxəllüsü Səbuhidir. Səbuhi – səhərin məstlik, xumarlıq şərabının adamı anlamındadır.

Səhər, sabah – yeni gün, yeni başlanğıc, şərab məstlik, xumarlıqla bərabər zindəlik, ayıqlıq rəmzidir. Klassik mənada şərabla çağdaş dünyadakı şərab (həqiqi və məcazi) Mirzə Fətəliyə xas metaforadır.

Mirzə Fətəli ədəbi əsərlərində modernist (məncə, həm də postmodernist) dünya ədəbiyyatının sərhədlərinə yetişmiş, hətta zaman-zaman onu keçmişdir. Şərq mistisizmi ilə, mif dünyasının əsrarəngizliyi ilə Qərb praqmatizmi, sərt realizmi birləşdirən yazarın "Aldanmış kəvakib"dəki poetik məntiq və real həyat mozaikası, "Müsyö Jordan..."dakı Parisin dağıdılması qurğusu, və Dərviş Məstəlişah mistikası, "Hacı Qara"dakı gülüş əl-kimyası bugün üçün də doğma olan özünəgülüş rəngliliyi "Mürafiə vəkilləri..."ndəki Hamurabi qanunlarından XIX əsrə uzanan hüquq yolunun ədəbi-bədii transformasiyasını o qədər ustalıqla verir ki, yazıçı-dramaturqun qələminə heyran olmaya bilmirsən. Bu mənada XX-XXI əsr Azərbaycan ədəbiyyatı Mirzə Fətəlinin "şinelindən çıxıb".

İndi dünya ədəbiyyatında boy göstərən fantasmaqoriya, psixologizm, mifoloji realizm, şüur axını (T.Vulf, V,Vulf, U.Folkner, X.Borhes, Q.Markes, K.Kastaneda, U.Eko, Y.Kavabata, O.Pamuk...) kimi üslub-poetika qurğuları, təsvir üsulları birdən-birə ortaya çıxmayıb. Ədəbiyyatın havasının haradan, necə, nə zaman gəldiyini müəyyənləşdirmək çox çətindir. Təsirlərin, intibahların xəritəsini də cızmaq imkansızdır. Metafora sənəti kimya olduğu qədər də əl-kimyadır. Həm birbaşadır, həm də dolaylı. Bu mənada da sənət bəşəridir, universaldır.

Hər halda biz Mirzə Fətəlinin ədəbi yaradıcılığını, xüsusilə komediyalarının sirlərini açmaqmışıq, dünya səviyyəsində dəyərini verməmişik,- desəm, Axundovşünasların qəlbinə toxunmasın. Buna böyük ehtiyac və tələb olmasa deməzdim.

Eşq aləmində qul olmaqla zülm və zalimə qul olmaq eyni deyil. Eşqdə qul olmaq iradəsini, varlığını haqqa təslim edib Tanrı ilə qovuşma yoluna girmək deməkdir. Zülm və zalim qarşısında diz çökmək zülmü görə-görə, bilə-bilə susmaq təslimçilikdən başqa bir şey deyil. Qul anlayışının bu iki qütbü bir-birindən o qədər uzaq və yaddır ki... Gül-bülbül poeziyasının, eşq əzablarının ifadəsi olan şeirin əksinə olan, ictimai ədəbiyyat tərəfdarı, mübarizi Mirzə Fətəlinin praqmatik estetik baxışları eşqdə də qul olma əxlaqını qəbul etmir.

Sosial həyatın elə məqamları var ki, o ədəbiyyat tarixinin özünə lazım olan şəxsiyyətlərini, örnəklərini tapır, ona istinad edir. Qalanlarını haqlı-haqsız inkar edir.

Bu gerçəyi gözəl bilənlərdən biri də Mirzə Fətəlidir. Günümüzdə "ərəb baharı" başlayanda nədənsə Mirzə Fətəlini tez-tez xatırladım və onun bir sözündəki sarkazma heyrətləndim: "Dünyada əfsanə uydurmaqda ərəblərin, əfsanəyə uymaqda farsların misli-bərabəri yoxdu". Ürəyimdə ustada dedim ki, bəs türklər?

Hər halda Şərq dünyası dəyişdikcə Mirzə Fətəlinin xatırlanacağı şübhəsizdir (fərqi yoxdur, ya elə, ya belə...).

Mirzə Fətəlinin missiyası dini inkar, islamı yorum, Füzulini rəddetmə deyldi. Onun missiyası xalqı xalqa göstərmək, gündəlik danışma dilini, Avropadan geri qalmayan ədəbi dilə çevirmək, teatr, mətbuat üçün zəmin yaratmaq idi. Və o, bu missiyanı şərəflə yerinə yetirirdi. Bu qədər böyük tarixi xidməti olan insanı arayış və axtarışlarına, ifratlarına görə damğalamaq haqsızlıqdan başqa bir şey sayılmaz.

Yalan da həqiqətə gəlməyin və ya həqiqəti almağın yollarından biridir. Avropa mənşəli maarifçiliyin yaranması, yayılması, uğurlar qazanması həm də yalandan keçir. Şərq özünü unudub irtica girdabına düşdükcə bu yalanlar da təsirli olmuşdur. Mirzə Fətəlinin həyatı və fəaliyyəti bu sürəcin bir növ aynasıdır. Avropa Birliyinə getdiyimiz bu mürəkkəb zamanda M.F.Axundzadəni anlamaq, dərk etmək tənqidi şəkildə idrak etmək bizim üçün hava, su qədər zəruridir.

Bu mənada Axundovun 170-180 il öncə başlatdığı təcrübə, ictimai həyat, ədəbi yaşam, fəlsəfi arayışlar baxımından olduqca önəmlidir. Ancaq ehkam deyildir.

Ehkamların Şərqdə vurduğu yaralar hələ sağalmayıb. Bunu unutmayaq. Həmin kontekstdə Mirzə Fətəlinin böyük ədəbi, elmi kəşflərini də, yanlış

ədəbi-fəlsəfi eksperimentlərini də unutmayaq. Yaddaş xalqın gələcəyə aparan yolunun potensialıdırsa tarixin, mədəniyyətin dərsləri həmişə canlı və diridir.

Mirzə Fətəlinin əsərləri 140 ilə yaxındır ki, səhnədədir. Bu illər ərzində Mirzə Fətəlini səhnələşdirən rejissorların, onun qəhrəmanlarını oynayan aktyorların neçə-neçə nəsli dəyişmişdir. O rejissorlar və aktyorlar öz zamanlarını, ağrı və acılarını, arzu və ümidlərini, estetik ideallarını Mirzə Fətəlinin yazdıqlarını yükləyərək öz zəmanələrini ifadə etmişlər.

Bu mənada Mirzə Fətəli həmişə bizim müasirimizdir.

Mirzə Fətəlinin inqilablarından biri də əlifba ilə bağlıdır. Əlifbadan danışarkən bir vacib məsələyə diqqətinizi çəkmək istərdik. Rus rəsmi idarələrinin yüksək məmuru olan Mirzə Fətəli Azərbaycanın taleyinin Rusiya iləbağlı olduğunu düşünmürdü. Əgər elə olmasaydı əlifba layihələrini qoltuğuna vurub İstanbula gəlməzdi, ən yüksək səviyyəli dövlət məmurları ilə görüşməsi, yüksək məcidiyyə nişanını da alamazdı. Doğrudur, Osmanlı Türkiyəsi əlifba reformasına getmədi və gedə də bilməzdi. Ancaq 1926-cı il I Bakı Türkoloji Qurultayından sonra Türkiyədə və Azərbaycanda (eləcə də bir sıra türk respublikalarında) latın əlifbasına keçildi. Doğrudur Sovetlərin, başda Stalin olmaqla qurduğu siyasi oyunların nəticəsi olaraq türk respublikalarında, o cümlədən Azərbaycanda latın əlifbası qaldırıldı və kiril əlifbasına keçildi. Nəhayət, Sovetlər Birliyi dağıldıqdan sonra Azərbaycan bir dəfəlik latın əlifbasına keçdi.

Bu ilk növbədə Mirzə Fətəlinin zəfəri idi. Onun idealı gerçəkləşmişdi. Əlifba oyunları hələ də bitməmişdi. Və bu oyunlar Mirzə Fətəlinin sümüklərini sızladır. Artıq hər kəsanlamağa borcludur ki, ortaq latın əlifbası qəbul edilməlidir. Türk dillərinin hər birinin öz əlavələri ortaqlığı pozur və onun praktik funksiyasına zərbə vurur. “x”, “ə”, “q” “milliyyətçiliyi” kiçiklik kompleksindən başqa bir şey deyil. Qloballaşan dünyanın, onun tərkibi olan Türk Dünyasının əlavələrsiz ortaq əlifbası təhsildə, uluslararası ünsiyyətdə həlledici rol oynayacaqdır. Çağdaş internet sistemi, texnoloji inkişaf, əlaqələrin yeni mərhələsi ortaq əlifba ilə qırılmaz şəkildə bağlıdır. 1926-cı ildən sonra əlifba siyasətinin mahiyyətcə dəyişdiyinin altını cızaraq söylədiklərim həm də ərəb əlifbasını müdafiə edərək söylədiklərim 1922-ci ilə qədər – yeni əlifba hazırlıqlarına başlayana qədər doğrudur. 1926-cı ildən sonra yeni dövr başlayır. Bu yeni dövrün adı latın əsaslı ortaq əlifbadır. Mirzə Fətəlinin ruhu köməyimiz olsun.

Mirzə Fətəlinin poetik arayış və təcrübələri bir ədəbi təsirsən daha çox fitri tapıntıdır. “Aldanmış kəvakib”dəki ulduzların aldadılması mifik-astroloji məntiqlə sosio-psixoloji müşahidənin vəhdətidir. Keçən əsrin 90-cı illərin əvvəllərində Azərbaycanda hakimiyyət dəyişikliyini yeni hakimiyyət zamanı parlamentdə şərh edən yazıçı İ. Şıxlı mövcud vəziyyətin “Aldanmış

kəvakib"dəki durumla müqayisə etdi. Gətirilən paralel çox uğurlu olsa da, yazıçı məsələnin məğzini yeni hakimiyyət üçün arzuolunmaz olduğunu hiss edib sözünü davam etdirməyib kəsdi. Amma artıq ulduzların aldadanın oyunlarının kim olduğu, Yusif Sərracın kim olduğunu hər kəs bildi. Sovetlər Birliyi dağıldıqdan sonra əski sovet məkanında bu və ya digər fərqlə Gürcüstanda da, Ermənistanda da, hətta Rusiyada da baş verməsi təsadüf sayıla bilməz. Yeni hakimiyyətlərin təcrübəsizliyi, təmizliyi köhnə sistemin təcrübəsi, min bir oynama qabiliyyətinə idealsızlığı məkrə, totalitar güc tətbiqinə təslim oldu. Yeni idealist hakimiyyət (və yeni nəsil) köhnə hakimiyyətin bəlalarını özünə çəkərək onun yolunu açmış oldu. Tarixin mürəkkəbliyi içində təhlili çox da asan olmayan bu prosesin bədii modeli, həqiqət də "Aldanmış kəvakib" idi. Biz bu hakimiyyətdəki xronotop (zaman-məkan) şərtiliyi üzərində dayanmırıq.

"Müsyö Jordan..." komediyasında Parisin dağıdılması qurğusu dünya ədəbiyyatının dahiyanə səhnələrdən biridir. Bu tragikomik durumun bədii-poetik mahiyyəti Mirzə Fətəli qələminin qüdrətini göstərir.

Təəssüf ki, Mirzə Fətəlinin fliqran poetik ustalığı, dünya ədəbiyyatı kontekstində, çağdaş, yeni metodların işığında yetərincə öyrənilməyib. Yeri gəlmişkən, mən keçmiş tələbəm Arif Məmmədovun yazılarını qeyd etməyi özümə borc bilirəm.

Ədəbiyyatşünaslar Mirzə Fətəlinin "Hacı Qara"sını çox təhlil etmiş, maraqlı fikirlər söyləmişlər. Molyerin, Balzakın və başqa yazarların xəsisləri ilə müqayisələr də çox aparılmışdır. Məncə, nə qədər maraqlı olsa da, Hacı Qaranın yeni sosial tip – yaranmaqda olan ticarət burjuaziyasının təmsilçisi kimi araşdırılması daha çox önəm daşıyır. Hacı Qaranın bütün ictimai çırpınışları, sərmayə toplama ehtirası Adam Smitin "bazar iqtisadiyyatı" daha çox əks etdirir. Mirzə Fətəli K. Marksə da tanımamış olmazdı. Ancaq Mirzə Fətəlidə Marks-filan izi yoxdur. Amma kapitalizmin təbiətini açmaqda "Hacı Qara" örnək əsər sayıla bilər. Bunun səbəbi canlı həyatın özüdür. Azərbaycanda XIX əsrin ortalarına doğru baş verən ictimai proseslərdir. Cəngavərlik, qəhrəmanlıq dövrü bitmişdir. Heydər bəy bu sosial bitmişliyin canlı tipajıdır. Servantesin "Don Kixot"unu xatırlamaya bilmirsən. Ayrı-ayrı zamanların da bu iki tipini birləşdirən ümumi bir psixoloji təməl olduğunu inkar etmək çətindir.

Odlu silahın çıxması Koroğluya və koroqluluğa son qoyduğu kimi ilkin sərmayətoxumu, burjuaziya cücərmələri də cəngavərliyin axırına çıxmaq üçün ictimai meydana çıxmışdır.

Balzak XIX əsr fransız həyatının ensiklopediyası, hər cür ictimai təhlilə zəmin yaradan qaynaq olduğu kimi, Mirzə Fətəli də Azərbaycan, ümumən Şərq həyatının mükəmməl mənzərəsinin yaradıcısıdır, - desək haqsız olmarıq.

Və ya "Aldanmış kəvakib" hekayə deyil, Azərbaycan ədəbiyyatında ilk realist romandır söyləsək, həqiqəti ifadə etmiş olarıq. "Aldanmış kəvakib"dəki qurğu sənətkarlığı, süjet və kompozisiya strukturası, sosial-psixoloji dərinlik roman janrının tələbləri səviyyəsindədir. Doğrudur, "Aldanmış kəvakib"ə hekayə və ya povest (onu da deyim ki, rusların bu uydurma janrı da uydurma ədəbi növlərdəndir – K.V.) demək onun ədəbi-estetik dəyərini azaltmır. Ancaq müasir roman janrının dünyadakı örnəkləri (özəlliklə ispan dilli Güney Amerika nəsri və ya "Qətl günü"nün yazarı Yusif Səmədoğlu, postmodernist yazı təcrübələrini xatırlayıram, ancaq mətləbdən yayınmamaq üçün geniş təhlil apara bilmirəm və bunu gənclərə həvalə edirəm) Mirzə Fətəlini – irsinin bizə nə qədər yaxın və doğma olduğunu göstərir. Bu mənada Mirzə Fətəli ədəbi məktəbini xüsusilə, Mirzə Cəlilin və Üzeyir bəyin yaradıcılığı olduqca əhəmiyyətlidir. Bu qeydləri "yeri gəlmişkən" silsiləsindən söyləyirəm.

Razılaşsanız da sağ olun, razılaşmasanız da. Mənim məqsədim sizi razı salmaq deyil, oxucum. İstəyim düşündüklərimlə Mirzə Fətəli arasında bağlılıq tapmaq, hiss etdiklərimi adam dilində qələmə almaqdır...

Yeri gəlmişkən mən, Mirzə Fətəlinin dili və üslubu milli ədəbi dilimizin formalaşması üzərindəki qeydlərimə bir neçə şey əlavə etməkdir. Onu da deməyə bilmərəm ki, müəllimimiz Ə.Dəmirçizadənin Mirzə Fətəlinin dili və dilçilik görüşləri haqqında yazısını, M.Cahangirovun milli ədəbi dilimizin yaranmasında Mirzə Fətəlinin xidmətləri haqda dəyərli araşdırmalarını S.Murtuzayevin M.F.Axundzadənin deyim xəzinəsi haqqında monoqrafiyası... nə qədər əhəmiyyətli olsalar da kəmiyyətcə və keyfiyyətcə yetərli deyildirlər. Əvvəla zaman dəyişmiş və dəyişən zaman içində Mirzə Fətəlinin dili – üslubu ilə bağlı yeni problemlər ortaya çıxmışdır. Söhbət dilin interpretasiyasından getmir. İndi Mirzə Fətəlinin ədəbi dilimizin milliləşməsi sürəcində yaşadığı bölünmüşlüyü (1813-1828-dən sonra) diqqətə alaraq çoxüslubluluğu, normalılığı (Azərbaycanın quzeyi) normasızlığı (Azərbaycanın güneyi), yazı ənənəsinin oturuşma prosesinin incələnməsi, özü də mətn dilçiliyi metodları ilə araşdırılması, psixolinqvistik, etnolinqvistik prinsiplər diqqətə alınaraq öyrənilməsi yalnız Mirzə Fətəlini, onun dil-üslub məktəbini deyil, ümumən bütöv Azərbaycan ədəbi dilinin öyrənilməsi üçün məhək daşı sayıla bilər.

Bir sözlə, Mirzə Fətəlinin tənqidi yaradıcılığı, estetik baxışları özünün ictimai-siyasi, ədəbi-estetik-fəlsəfı görüşlərinin ayrılmaz parçası, üzvi tərkibidir, desək həqiqəti ifadə etmiş olarıq.

***

M.F.Axundova qədər sistemli elmi tənqid, müəyyən metoda əsaslanan konseptual ardıcıllıq yox idi və Mirzə Fətəli nəzəri məsələləri, qeydləri, məktubları ilə bu gün anladığımız mənadakı tənqidin ("kritika"nın) bünövrəsini qoydu.

Elmi nəzəriyyə ilə bədii təcrübənin vəhdəti olan Mirzə Fətəli yaradıcılığı bu böyük sistemin təkamülünü izləmək, onun nadir gücünü öyrənib dərk etmək baxımından xüsusilə maraqhdır.

Mirzə Fətəli "tənqid" və "kritika" terminlərinin hər ikisini işlədir. O, "tənqid" sözünü daha geniş mənada alır, dövrün, zəmanənin, bədxahlığın, ictimai yaramazlığın, nadanlığın ifşasının satirik üsulla açılıb göstərilməsini nəzərdə tutur. Bu mənada tənqid daha çox tənqidi realizm anlayışını ifadə edir ki, müəllif həmişə onu moizəçiliyə, nəsihətçiliyə qarşı qoyur: İnsanların təbiəti moizə və nəsihətləri oxuyub dinləməyə nifrət edir. Halbuki insanlar tənqidi əsər oxumağa həmişə həvəskar olurlar. Avropa filosoflarının təcrübələri və bir çox inkaredilməz həyati dəlillər sübut etmişdir ki, tənqid, istehza və məsxərədən başqa, pis və yaramaz əməlləri insan təbiətindən heç bir vasitə ilə məhv etmək olmaz".

Mirzə Fətəli yalnız insan təbiəti uçün deyil, cəmiyyət üçün də nəsihətin boş və mənasız olduğunu göstərir: "*Keçmişlərdə Avropada da belə zənn edirdilər ki, zalimə zülmü tərk etdirmək üçün ona nəsihət etmək lazımdır; sonra gördülər ki, nəsihət zalimin təbiətinə qətiyyən təsir eləmir. Buna görə də millət özü, onun maneəsizliyi sayəsində elmlərdə tərəqqi edərək birliyin faydalarını anladı və bir-biri ilə yekdil-yekcəhət olub, zalimə müraciətlə dedi ki, səltənət və hökumət büsatından əl çək!*"

"Kritika" terminini isə M.F.Axundzadə məhz ədəbi tənqid mənasında işlədir. "Tənqid risaləsi" adlı məqalədə yazır"Bu mühavirləri Tehran qəzeti idarəsinə göndərib, məlum edirərəm ki, bu qayda Avropada məlumdur və onun böyük faydaları vardır: məsələn bir şəxs bir kitab yazdığı zaman, başqa bir şəxs onun əsərinin mətləbləri xüsusunda kritika yazır, bu şərtlə ki, onun yazısında müəllif haqqında ədəbsiz və könül incidən bir söz belə olmasın. Hər nə deyilsə, incəliklə deyilsin. Bu işi "kritika" fransız istilahı ilə "kritik" adlandırırlar".

Mirzə Fətəli "politika", "revolyusiya", "sivilizasyon" və s. terminlər kimi "kritika"nı da qəsdən olduğu kimi verir, öz ədəbi-estetik baxışlarının qaynağının, tendensiyasını açıq şəkildə ifadə edir.

Mirzə Fətəli sözünə davam edərək Avropa ədəbi prosesini və tənqidin funksiyasını belə şərh edir: "Müəllif ona cavab verir. Ondan sonra üçüncü bir şəxs meydana çıxır, ya müəllifin cavabını təsdiq edir, ya da kritika yazanın fikrini ustün tutur. Bu işin nəticəsi budur ki, get-gedə nəzm və nəsr, inşa və təsnif bütün Avropa xalqlarının dilində səlasət qazanır və mümkün qədər cəmi nöqsanlardan təmizlənir. Muəlliflər və şairlər öz vəzifələri və təklifləri haqqında tamam xəbərdarlıq alırlar".

M.F.Axundzadənin fikir azadlığından danışarkən kritikanı yad etməsi heç də təsadüfi deyil: "...Bu üsula "kritika" deyirlər. Fikir azadlığı olduqda,

kritikanın faydası o olacaqdır ki, nəhayət, get-gedə müxtəlif fikir və rəylərin toqquşmasından haqq yerini tutacaq və mədəniyyət aləmində tərəqqiyyat zühur edəcəkdir".

Haqqın yerini bütün ömrü boyu axtaran böyük maarifçi-filosof söz sənətinin ictimai funksiyasını yüksək qiymətləndirir, mübarizə üçün həlledici vasitələrdən biri hesab edir. Realist sənət Mirzə Fətəlinin uğrunda çarpışdığı böyük və sarsılmaz bir həqiqət idi.

Bütün xalqların ədəbiyyat və sənət tarixində realizm uğrunda mübarizəsi çox ağır keçmişdir. Tarixin bu haqq körpüsündən keçmək nə qədər qurbanlar, çarpışmalar bahasına başa gəlmişdir.

Təfəkkür tərzini dəyişdirmək, zövqləri tərbiyə edib istiqamətləndirmək, sənəti həyata qovuşdurmaq, real həyatın problemlərini sənətin ecazkar dili ilə ifadə etmək kimi çox ciddi məsələlər Mirzə Fətəlini daim düşündururdü.

Realist-demokratik xarakterli sənətin qarşısında dayanan maneələr isə çox idi: din, ictimai-siyasi təzyiq və s.

"*Nəğəmat çalma, haramdır, nəğəmata qulaq asma, haramdır, teatr, yəni tamaşaxana qayırma, haramdır; teatra getmə, məkruhdur; rəqsə tamaşa etmə, məkruhdur; saz çalma, haramdır; saza qulaq asma, haramdır; şətrənc oynama, haramdır; nərd oynama haramdır; rəsm çəkmə, haramdır; evdə heykəl saxlama, haramdır. Bavücudi ki, bu şeylər zahirən əməli-səbük görünür isə də, amma xəbərdar deyilsiniz ki, etidal üzrə olduqda, zehnə cila verir və əqli çövhərləndirir; çünki insanın təbiəti fərəh və hüsn ilə məxluqdur və hər bir cənbənin qüvası var; əgər o qüvalar işlənməsələr, künd olurlar; necə ki, qolu bir il tərpətməyəsən, quruyur*".

İnqilabi-demokratik xarakterli rus və Avropa tənqidinin təcrübəsi Mirzə Fətəlini "Gözəl - həyatdır", "Sənət həyat üçündür" qənaətinə gətirib çıxarmışdı. Sənətə bu aydın baxış materialist dünyagörüşünün nəticəsi idi. Materiyaya müxtəlif şeylərin məcmusu kimi baxan filosof onu yeganə və həqiqi substansiya hesab edir, onun mütləqliyini, zaman və məkan daxilində obyektiv mövcudluğunu göstərir, təbiəti öz-özünün səbəbi kimi təqdim edirdi. Və bu baxışların davamı kimi sənətdə hər cür uydurmanı, qafiyəpərdazlığı, mücərrədliyi rədd edir, insanın real hisslərinin qəbul etdiyi həyat həqiqətini, real varlığı əks edən sənəti uca tutur və onun uğrunda mübarizə edirdi.

Ədəbiyyat və sənət məsələlərinə biganə, soyuq yanaşmağı bacarmayan Mirzə Fətəli ədaləti; obyektivliyi, ədəbiyyatın sabahı üçün gərəkli olan realizm prinsiplərini təbliğ edən sənət nümunəsini, elmi fikri müdafiə edir, konkret əsərlər üzərində dayanaraq öz işıqlı fikirlərini yayırdı. Onun "Fehristi-kitab", "Nəzm və nəsr haqqında", "Mollayi-Ruminin və onun təsnifinin babında", "Kritika", "Mirzə Ağanın pyesləri haqqında kritika", "Tənqid risaləsi",

"Hekayət", "Con Stüart milli azadlıq haqqında" və s. məqalələri ədəbi tənqidin klassik nümunələri kimi sənətin çox mühüm estetik problemlərinə, ədəbiyyat və incəsənətin ictimai qayəsinə, sənətkarlıq və bədiilik məsələlərinə həsr olunmuşdur.

Mollayi-Ruminin "Məsnəvi"sindən bəhs edərkən Mirzə Fətəli panteist dünyagörüşünü ətraflı təhlil etməklə bərabər onun materialist platformadan aydın görünən ziddiyyətləririi də göstərir.

İdealist dünyagöruşün sənəti çıxmaza aparan və xüsusən Şərq, o cumlədən Azərbaycan ədəbiyyatında yeni realist istiqamətin yaranmasına mane olan nəzəri-estetik əsasları Mirzə Fətəli çox aydın və dəqiq bilirdi. O, Mollayi-Ruminin əfsanəçiliyə, irreallığa aparan sənət prinsipini tənqid edərək yazır: "Əksər mətalibi bəqeyr-əz-hikmət və əfsanəhayi-baməzə köhnə və mündəris və biləzzət mətalibdir: bəlkə əqvali-bimənadır ki, təkrarati-kəsalətəngiz ilə qələmə götürübdür".

M.F.Axundzadə Ruminin dünyaya, təbiətə bağlılığını xüsusən alleqorik hekayətlərindəki sənətkarlığı qiymətləndirir.

Şərq ədəbiyyatının aparıcı janrı olan şeir haqqında, klassik Şərq poeziyası, eləcə də rus və Avropa poeziyası barədə söhbət açan müəllif şeirin bədii gözəlliyi ilə yanaşı, ideyalılıq, mənalılıq prinsipini də irəli sürür və bu baxımdan təhlil aparır. O, "*Nəzm və nəsr haqqında*" *adlı məqaləsində yazır:* "*Şeir gərək laməhalə ziyadə ləzzətə və hüzndə və fərəhdə ziyadə təsirə bais ola. Əgər olmasa sadə nəzmdir*".

"Əksər qəzəliyyatın" insanda "şövq və zövq" əmələ gətirmədiyini göstərən tənqidçi nəzmlə şeiri ayırır, Şərqdə şeir ustadlarını göstərir və yeri gəldikcə onlara da tənqid prizmasından yanaşır: "*Belə maddə sahibləri çox nadir vücudə gələrlər. Əhli-fürsətdən ancaq Firdovsi və Nizami və Cami və Sədi və Mollayi-Rumi və Hafiz şairdirlər. Bunların da qüsuru budur ki, bir para məqamda izhari-fəzl üçün xilafi-təbiəti adət göftgü ediblər. Belə məqamlarda onların xəyallarına da şer demək caiz deyil, ancaq mənzumati-məqbul və pəsəndifdemək olar*".

Bəzən Mirzə Fətəli tənqidin rəngini daha da tündləşdirir və ciddi səhvə də yol verirdi. Yuxarıda vurğuladığımız kimi, xüsusən onun Məhəmməd Füzuliyə münasibətı düzgün deyil. Azərbaycan dilini möcüzə yaratmaq səviyyəsinə qaldıran qüdrətli könül şairinə "Füzuli şair deyil və xəyalatında əsla təsir yoxdur: ancaq nazimi-ustaddır" - deməsi böyük şairə subyektiv münasibətdir. Bu sözləri oxuduqca yada L.Tolstoyun V.Şekspirə, N.Çernışevskinin A.Puşkinə ziddiyyətli, subyektiv baxışları yada düşür. Heç bir rus bu fikri ciddi qəbul etmir və onları bir dahinin subyektiv şıltaqlığı sayır.

Mirzə Fətəli bu mübahisəsiz şairimübahisə meydanına gətirəndə, güman ki, düşüncə tərzini dəyişmək, ehkamı qırmaq müasir fikri ağla yeritmək üçün hədəf

məhz Füzulini seçmişdir. Füzuli şeirində doğulub boy atan azərbaycanlıya yeni həyatın məntiqini aşılamaq üçün belə bir subyektiv addım atmaq lazım gəlirdi. İkinci bir tərəfdən Füzuliyanə poeziyanı təqlid yolundan çıxmaq, "Füzulitilsimini" qırmaq üçün, realist ədəbiyyatın yolunu tanıtmaq üçün bu fikir meydana atılmışdır.

Realist Azərbaycan şeirinin ilk nümayəndəsi - Molla Pənah Vaqif və müasiri Qasım bəy Zakir üzərində ayrıca dayanır, onların yaradıcılığını yüksək qiymətləndirir: "*Amma mən əyyami-səyahətimdə səfheyi Qarabağda Molla Pənah Vaqifin bir para xəyalatını gördüm ki, zikr etdiyim şərt bir növ ilə onda göründü və dəxi Qasım bəy Saruncaluyi-Cavanşirə düçar oldum ki, əlhəq türk dilində onun mənzumatı mənim heyrətimə bais oldu*".

Mirzə Fətəli bu iki həyat şairini müqayisə edir, onların realist poeziyasını da qarşılaşdırır: "*Bu iki şəxsin də fərqi bir-birindən budur ki, əgərçi Molla Pənah müqəddəm ərsəyə gəlib bu fənndə Qasım bəyə nisbətən rəhnümadır və lakin ləzzət və təsir və mühəs-sənəti-nəzmiyyə Qasım bəyin xəyalatında çoxdur*".

Dahi tənqidçi bu iki şairin şeirini araşdıraraq "yavan nəzmə" qarşı qoyur və realist şeirin məziyyətlərini açır.

Mirzə Fətəlinin yeni poeziya qarşısında qoyduğu tələblər "Yüksək İranın "Millət" qəzeti münşisinə kritika" adlı məqalədə də aydın şəkildə nəzərə çarpır. Burada müəllif Süruş təxəllüslü "Şəmsüş-şüəra" ləqəbli şairin tarixi təhriflərini açır, "Kritika"nın başlanğıcındakı vədə əməl edib Süruşun ideyasız, məsləksiz, məzmunsuz söz oyunu olan şeirlərini kəskin tənqid edir. Sənətdə hökmdarların tərifini deyil, xəlqiliyi hər şeydən uca tutan vətəndaş tənqidçinin sözlərinə diqqət edin: "*Evə çatan kimi bu kritikanı yazmağa başladım. Elə həyəcanlı idim ki, qəyləmimdən nə çıxdığını bilmirəm.*

*Ey mənim əziz qardaşım, Münşi! Başqalarına ibrət və tənbeh olmaq üçün sənə lazımdır ki, bu kritikanı qəzetin bir neçə nömrəsində çap edəsən və ölkənin daxilində yayasan; lakin o nömrələrdən xaricə göndərmə. Soruşana da de ki, bundan sonra bir də bu cür işlər görməsin*".

Ədəbiyyatda, sənətdə əqidəsizliyə dözməyən Mirzə Fətəli elə o məqalədə "Millət" qəzetinin redaktorunu müasir qəzet prinsipləri ilə tanış edir, gərəkli məsləhətləri ilə qəzetin gələcək fəaliyyətinin bir neçə proqramını verir, "millətə fayda vermək" yoluna istiqamətləndirir. Məhz bu sayaq təhlili biz Mirzə Fətəlinin bütün məqalələrində görürük. Bu sahədə universal bilik və təcrübə, böyük və ciddi bədii axtarışlar da Mirzə Fətəliyə çox kömək göstərirdi.

"Tənqid risaləsi" adlı məqaləsini M.F.Axundzadə Rzaqulu xanın "Rövzətül-səfaqi-Nasiriyyə" əsərini orijinal bir formada - müəlliflə tənqidçinin dialoqu şəklində qurmuşdur. Burada tənqidçi tarixi mövzuda yazılmış lüzumsuz şeirlərin səcli nəsrin müasirlik tələbini ödəmədiyini, qafıyəpərdazlığı tənqid

edir müəllif qarşısına "*Məzmun doğru deyildir: düzgün fıkirləş!*" tələbini qoyur. Forma ardınca gedən və sözçülüyə aparıb çıxaran şeirin əsaslarının puçluğunu, köhnəliyini, müasirlik tələbini ödəmədiyini göstərir.

M.F.Axundzadə nəsrdən də, şeirdən olduğu kimi, ciddi məzmun tələb edirdi. "Aldanmış kəvakib" realist Azərbaycan nəsrinin nümunəsi idi və Mirzə Fətəli bu örnəklə kifayətlənməyib dəfələrlə nəzəri mülahizələri ilə nəsrin; üfüqlərini aydınlaşdırmış, gələcək Azərbaycan, butövlükdə Şərq nəsrinin estetik prinsiplərini göstərmişdir.

1875-ci ildə M.F.Axundovun dostu Mirzə Yusif xana yazdığı məktubda etdiyi qeydə diqqət yetirək: "Roman yazmaq da avropalıların istilahınca, dram adlanan bu kimi əsərlər növündəndir. Təəssüf ki, bizim xalqımız bu fəndən hələ tamamilə xəbərsizdir".

Və bu baxımdan böyük maarifçinin ümid dolu gözlərinin "*savad və zövq sahibi olan gəncliyə*" dikilməsi dahiyanə uzaqgörənlik idi.

Məlum olduğu kimi, Mirzə Fətəli "Aldanmiş kəvakib"in süjetini tarixdən - İsgəndər bəy Münşinin "Tarix aləm-arayi-Abbas" əsərində təsvir olunan əhvalatdan götürmüşdür. Və bu nümunə tarixə sənətkar baxışını, tarix mövzunun müasir həyatla bağlılığını aktuallığını öyrənmə baxımından xüsusilə ibrətlidir.

Sənətdə tarixiliyin estetik mündəriçəsini lakonik, tutalı şəkildə ifadə edən müəllif tarixi janrın geniş imkanlarını göstərmiş və xalqın mənəvi problemlərini həll etməkdə tarixə qayıtma yolunu seçmişdir.

Mirzə Fətəli sənətin böyük məqsədləri sırasında insan tərbiyəsi, əxlaq gözəlliyinə ayrıca yer verir. Məqalələrinin birində böyük maarifçi yazır: "*Beləliklə bəşər övladına səadət və qurtuluş o zaman nəsib olacaqdır ki, istər Asiyada və istərsə də Avropada, insanın şüuru tamamilə əbədi həbsdən xilas olacaq və bütün işlərdə və təfəkkürdə hadisələr deyil, insanın ağlı yeganə dəlil, sənəd və hakimi-mütləq olacaqdır*".

Böyük humanist "kamil adam" olmaq üçün yeddi vəzifə göstərir: pis əməldən çəkinmək, yaxşılıq etməyə çalışmaq, zülmü dəf etməyə çalışmaq, öz həmnövləri ilə cəmiyyətdə müttəfiq yaşamaq, elm ardınca getmək, elmi yaymağa çalışmaq, öz qüvvəsi və öz imkanları daxilində özünə müttəfiq olan cəmiyyətə öz həmvətənləri və öz həmfikirləri içərisində qayda və qanunları mühafızə etmək uğrunda mübarizə aparmaq.

"Kəmalüddövlə məktubları"nda sənətin insan tərbiyəsindəki böyük rolundan geniş bəhs edən Mirzə Fətəli demokratik ədəbiyyatın mübariz rolunu göstərmişdir.

Həsən bəy Zərdabiyə yazdığı məktubda böyük sənətkar deyir: "*Qoy, bizim millətimiz də bir az gözü açılıb fanatiklikdən çıxsın, bəlkə patryot olsun, onda hər nə etsən, baş tutar*".

Öz xalqının təbii istedadına ürəkdən inanan Mirzə Fətəli gələcəyə nikbin baxır, öz əməllərinə, öz yazdıqlarına, öz həqiqətinə, iman gətirdiyi yola ürəkdən inanırdı: "*Sağlıq olsun, yaxın gələcəkdə vətənimiz yadların ardınca gedənlərin mənhus vücudundan təmizlənəcəkdir! Yurdumuz gülüstana çevriləcək və keçmiş zamanlarda olan ədalət yenidən ehya olunacaqdır. Təəssüf ki, bizim ömrümüz o gözəl və səadətli günləri görməyə vəfa etməyəcəkdir. Lakin yəqin ediniz ki, o günlər gələcək və bizim övladımız o günlərin bəhrəsini görəcəkdir*".

Mirzə Fətəli Axundzadənin bəhs etdiyi tənqidi-estetik problemlərin içərisində sənətdə forma və məzmun məsələsi də diqqəti cəlb edir. Vaxtilə N.Q.Çernışevski yazırdı: "Orijinal olmaq barəsində qəsdən fikirləşmək forma qayğısına qalmaqdır. Kimdə məzmun var isə o orijinal olmağa cəhd göstərmir. Əslində o, orijinal olmaya bilməz, çünki bu barədə fikirləşmir".

Bu estetik meyarı Şərq bədii materialı əsasında M.F.Axundzadə həmin mövqedən geniş və əhatəli şəkildə şərh etmişdir.

Məzmun və formanı dialektik vəhdətdə götürən M.F.Axundzadə öz fikrini belə əsaslandırır: "*İki şey şeirin əsas şərtlərindəndir: məzmun gözəlliyi və ifadə gözəlliyi. Məzmun gözəlliyi olub, ifadə gözəlliyinə malik olmayan bir nəzm Mollayi-Ruminin məsnəvisi kimi, məqbul nəzmdir, amma şeiriyyəsində nöqsan vardır.*

*İfadə gözəlliyinə malik olub, məzmun gözəlliyindən məhrum olan mənzumə, tehranlı Qaaninin şeirləri kimi zəif və kəsalət artırıcı nəzmdir, amma yenə şeir növündəndir, yenə də hünərdir.*

*Həm məzmun gözəlliyinə, həm də ifadə gözəlliyinə malik olan nəzm, Firdovsinin "Şahnamə"si, Nizaminin "Xəmsə"si və Hafizin divanı kimi, nəşə artırıcı və həyəcanlandırıcı olub hər kəs tərəfindən bəyənilir. Belə nəzm sahiblərini peyğəmbərlərlə bərabər tutmaq olar; çünki onlar bəşər növünün fovqündə olub filosofanə xəyal və ilham sahibləridir*".

Mirzə Fətəli məzmunu rəhbər tutur, yeni məzmunun yeni forma tələb etməsi məsələsini qoyur. O, Süruşu tənqid edərkən onun qəsidələrində nə məzmun, nə də ifadə gözəlliyinin olduğunu göstərir. Yeni məzmun, yeni həyat, yeni dünyagörüş demək idi. Və Mirzə Fətəli yeni məzmunlu ədəbiyyatdan danışarkən müasir ədəbiyyatın nəzəriyyəsinin təməl daşlarından birini qoymuşdur.

Mirzə Fətəlinin dediyi həqiqət bu gün üçün də doğrudur, müasirdir: "*...nəsrdə də qafiyədən və uşaqcasına mübaliğələrdən və əbləhcəsinə təşbehlərdən bütünlüklə çəkinəcəklər, ancaq **rəğbətli məzmun** (kursiv bizimdir - K.V.) arxasınca gələcəkdir. Elə bir məzmun ki, oxucu ondan həzz alsın və qulaq asan ləzzət aparsın və müəllif bunun sayəsində ad qazansın. Belə ki, məzmun gözəl olduqda, kritika əvəzinə hər tərəfdən onun haqqında*

*tərifnamələr göndərəcəklər; çünki gözəl məzmun tapmaq, Allah vergisi olan təbii xüsusiyyətlərindəndir, amma qafiyə düzmək, başqa sənətlər kimi öyrənilə bilən bir şeydir*".

***

Teatr və dramaturgiya Mirzə Fətəli yaradıcılığının ayrılmaz bir hissəsidir. Azərbaycan dramarurgiyasının banisi, altı klassik komediyası ilə yeni sənətin parlaq nümunələrini yaratmış, dahi sənətkar dram və teatr nəzəriyyəçisi, tənqidçisi kimi də olduqca böyük işlər görmüşdür.

"Millətin işinə yaramaq" prinsipini hər şeydən üstün tutan M.F.Axundzadəqəti inanırdı ki: "*Bu gün millət üçün faydalı və oxucuların zovqü üçün rəğbətli olan əsər - drama və romandır*".

İctimai quruluşun eyblərini göstərməkdə, din və xurafatın xalqın sinəsinə çəkdiyi dağları əks etdirməkdə, maarif işığını yaymaqda, demokratik idealları təbliğ etməkdə dram sənəti, teatr, (doğrudan da), həlledici rol oynayırdı. Savadsızlığın daha geniş yayıldığı Şərqdə teatrın oynayacağı mühüm rolu Axundzadə çox aydın görürdü.

Mirzə Fətəlinin dram sənətinə baxışı nəzəri mühakimələrinin dərinliyi, incəliyi ilə seçilən "Mirzə Ağanın pyesləri haqqında kritika" adlı məqalədə öz əksini tapıb. Axundzadə bu məqalədə Mirzə Ağanın dörd pyesini təhlil edir, mənfı-müsbət cəhətlərini göstərir, ideyalılıq və bədiilik baxımından bu komediyaları saf-çürük edir. O, böyük sevinc içində üzünu öz ardıcılına tutaraq yazır: "Sizin şirin məktubunuz yetişdi. Əsərinizi başdan-ayağa oxudum. Sizə min təhsin və afərin göndərirəm; sizin qeyrət və zövqünüzdən vəcdə gəlirəm. Ümid edirəm ki, həmişə vaxtınızı fransızların istilahınca "drama" fənni adlanan bu şərəfli fənnə sərf edərək çox tərəqqi edəcəksiniz və bu fənndə qeyri-vətəndaşlarınıza, həmməzhəblərinizə rəhbər olacaqsınız.

Amma hələlik işinizin başlanğıçı olduğu üçün, gərək mən əsərinizin bəzi nöqsanlarını sizə göstərəm ki, bundan sonra gözüaçıq olasınız; yaniki bu fənnə dair yazdığmız əsərdə tutulacaq yer qalmasın və sizin əsəriniz xass və avamm xoşıma gəlsin".

Sənətin digər növləri kimi dram da xəlqiliyini ən mühüm amil hesab edən Mirzə Fətəli konkret təhlilə keçməzdən əvvəl ümumən "teatr nə olan şeydir?" sualına cavab verir. Sonra isə Mirzə Ağanın pyeslərinin qüsurları üzərində dayanır, ideya bədii nöqsanları səbr və təmkinlə şərh edir. Kiçicik bir detal belə unutmayan həssas tənqidçi adi texniki qüsurları belə yaddan çıxarmır və yol göstərə-göstərə, lazımi məqamlarda ruhlandıra-ruhlandıra təhlil aparır.

M.F.Axundzadə Mirzə Ağanın pyesləri içərisində "Sərgüzəşti-Ağa Haşım"ı və "Əşruf xan" pyeslərini daha çox təqdir edir. Çünki bu pyeslər məişət səviyyəsindən ictimai həyata keçid kimi maraqlı idi. Və Axundovu ictimai

pafos, mübarizə motivləri, sağlam tənqid hər şeydən çox maraqlandırırdı.

“*Drama sənətinin məqsədi insanların əxlaqını yaxşılaşdırmaq, oxucu və qulaq asanları ibrətləndirməkdir*” - deyən Axundzadə səhnə imkanlarını aydınlaşdırır, oxu dramı ilə tamaşa dramını fərqləndirir, səhnə etikasından söz açır və nəhayət, bu böyük və şərəfli yolun qururlu gələcəyindən inamla bəhs edir; millətin o dərəcədə təzim və təqdirini qazanmışlar ki, öldükdən sonra millət onların hünəri müqabilində təşəkkür əlaməti olaraq qəbirləri üzərində uca imarətlər, yəni abidələr tikmişlər: Molyer və Şekspir bu kimi təzimə layiq şəxslərdəndirlər ki, bir-bir saymağa ehtiyac yoxdur.

“Fehristi-kitab” yazısında Axundzadədini tamaşaları - şəbihləri tənqid edir, “nəqli-behcət” (komediya) və “nəqli-müsibət” (façiə) arasındakı fərqi şərh edir. Bədii yaradıcılıqda olduğu kimi, nəzəri müddəalarında da komediya janrına daha çox meyl edən Axundzadə xalqı tərbiyələndirmək üçün, əxlaqı saflaşdırmaq üçün “*tənqiddən faydalı heç bir vasitə ola bilməz*” deyirdi ki, bu tənqidin də əsas ruporu məhz komediya janrı idi. “*...mən türkcə* “*təmsilat*”*ımda iranhların yaramaz əxlaq və rəftarım pisləmişəm. Bu isə **dramnəvisliyin əsas şərtlərindəndir***”. (Kursiv bizimdir - K.V.)

M.F.Axundovun ədəbi tənqid sistemində ən mühüm komponentlərindən biri dil və üslub məsələləridir. Bu, təsadüfi deyil. Müasir Azərbaycan milli ədəbi dilinin banisi M.F.Axundzadə dil məsələlərinə qətiyyən biganə qala bilməzdi.

Milli özünü idrak prosesində ana dilli ədəbiyyatın varlığı mühüm şərtdir. Və belə bir ədəbiyyat qabaqcıl qayələrin ifadəsinə çevrildikdə, xalqın duyğrularını real şəkildə əks etdirəndə öz yüksək vəzifəsini həyata keçirmiş olur. Axundzadə ürək yanğısı ilə yazır: “Ərəblər bizə qələbə çaldıqdan sonra dinlərini bizə qəbul etdirdikləri kimi, dillərini də bizim dilimizə qatmışlar və bizi məcbur etmişlər ki, öz dilimizdə yazılan kitablan oxuyub başa düşmək üçün ərəb dili və onun qaydalarını da biləк. Buna görə də biz məcburuq ki, farsca yazılmış əsərləri anlamaq üçün iki dil və türkcə yazılmış əsərləri başa düşmək üçün üç dil öyrənmiş olaq”.

Ərəb əlifbasına qarşı Axundovun ömrünün sonuna qədər apardığı ciddi, ağır, üzüntülü mübarizə ideal uğrunda, həqiqət uğrunda mübarizənin timsalı kimi xalqımızm tarixinə yazılmışdır.

Babalarımızın dili də ərəblər tərəfindən qarət edilmiş və indi ancaq adı qalmışdır” (III c, səh. 446) deyən Mirzə Fətəli “Xitab bər katib” və “Xitab bər naqil” (III c, səh. 200-201) adlı yazılarında böyük inam və qətiyyətlə Azərbaycan orfoqrafıya və orfoepiyasının ilk prinsiplərini irəli sürmüşdür.

M.F.Axundzadə dilin saflığı uğrunda böyük mübariz olsa da, o, dillər arasındakı canlı əlaqəni, zənginləşmə yollarını qəbul edirdi.

Mirzə Fətəli yeri gəldikçə bədii dil və üslub məsələlərinə də toxunmuş,

xalq dili zəminində yaranan ədəbi dilin müxtəlif məsələlərini işıqlandırmışdır: "*Bütün bu əhvalat şirin və təsirli ibarələrlə ifa edilməlidir*"; "*Əgər əslində fars olub, türkcəni lazımınca bilən Tehran ziyalılarından biri bu* "*Təmsilat*"*ı kitabda göstərilən şərtlər və qaydalar üzrə, bir şey əksiltmədən,* ***sözçülüyə*** *və* ***qafıyəpərdazlığa*** *yol vermədən (*kursiv bizimdir - K.V.)*, farsların yazı qaydalarına deyil, danışıq qaydalarına əsasən, sadə bir şivə ilə türk dilindən fars dilinə tərcümə və çap edib yayarsa, həm xalqa böyük xidmət etmiş olar, həm də özü bu kitabı satmaq yolu ilə çoxlu qazanc əldə edə bilər*".

Mirzə Fətəlinin müdrik məsləhətləri, elmi göstərişləri Azərbaycan ədəbi dilinin sonrakı bütün tarixi dövrlərdəki fəaliyyəti üçün, eləcə də bu gün üçün əsl elmi proqramdır. Onun Həsən bəy Zərdabiyə yazdığı məktub diqqəti cəlb edir: "*Sizin qəzetinizin əsas məziyyətlərindən biri ifadənin gözəlliyi ibarələrin zərifliyi və aydınlığı, orfoqrafıyanın düzgünlüyü olmalıdır. Çünki sizin qəzetiniz başqa məsələlərlə yanaşı Azərbaycan yazısını düzgün olmayan ifadələrdən təmizləməyə çalışmalı, bu dildə yazan bütün adamlar üçün nümunə olmalıdır. Orfoqrafiyaya gəlincə, sizin gələcəkdə təyin etdiyiniz mühərrir mənim Azərbaycan dilində olan komediyalarımın orfoqrafiyasına riayət etməlidir*".

İlk qəzetimiz haqqında ilk elmi-tənqidi söz daha çox ana dili problemləri ilə bağlı idi. Və Mirzə Fətəli "Təmsilat"ı yazmaqla əslində, Azərbaycan ədəbi dilinin sonrakı taleyini həli etmişdi. Ancaq böyük maarifçi Azərbaycan dilinin zənginliyini saflığını, gözəlliyini bir içtimai xadim kimi, bir qələm əhli kimi bütün ömrü boyu qorumuşdu. Ana dilinə Vətən kimi baxan böyük Mirzə Fətəli elə bir məktəbin müəllimi idi ki, orada ana dilinin böyük ustadları və fədailəri yetişəcəkdi: Nəcəfbəy, Mirzə Cəlil, Əbdürrəhimbəy, Sabir, Üzeyirbəy, Firudinbəy...

Mirzə Fətəlinin tənqid üslubu ardıcıllığı, dəmir məntiqi, cəsarəti və yeri gəldikcə sərtliyi ilə seçilir. O, Şərq filosoflarının "qorxaqlıq və cəsarətsizlik" etdikləri üçün xalqdan uzaq düşdüklərini göstərir. Axundzadə "Kəmalüddövlə məktubları"nı nəzərdə tutaraq yazır: "*Hicrətdən bu günə qədər* ***bu sərtlikdə*** (kursiv bizimdir - K.V.) *bir əsər yazılmamışdır. Lakin bu əsər çap edildikdən sonra dünyanın hər tərəfində biri digərinin ardınca,* ***bundan daha sərt*** (kursiv bizimdir - K.V.) *əsərlər yazılacaqdır*". Süruşun şeirlərini tənqid edərkən Mirzə Fətəli qələmi sərt və amansızdır, yeni əlifba düşmənlərinə qarşı Mirzə Fətəli sözü bıçaq kimi iti və kəskindir. Sənətin və elmin ictimai-əxlaqi, siyasi-məfkurəvi rolunu ön planda görüb götürən dahi yazıçının sərt ifadə tərzi apardığı əməliyyatın düzlüyünə, doğruluğuna qəti inanan cərrahı xatırladır: çürümüş hər şeyi kəsib atmalı, orqanizmi qoruyub saxlamalı!

Özünə qarşı da tələbkar olan Mirzə Fətəli mübarizə meydanına cəsarətlə girirdi. O, məktublarının birində yazır: "*...etiqadımızca elmdə qüvvətli olanlara təklif etməlisiniz ki, bacarsalar Kəmalüddövlənin, istər politika işlərinə və*

*istərsə dini işlərə aid olan bütün fikirləri haqqında kritika yazsınlar, görək bu fikirləri qəbul edir, yaxud dəlillərlə rədd edirlər. Kəmalüddövlənin də məqsədi budur. Lakin kritikada nəql və nəssi dəlillər qətiyyən qəbul olunmayacaq və iltifata layiq görülməyəcəkdir*".

"Nəss" (aşkar) və nəql (nağıl) kritikasını qəbul etməyən Mirzə Fətəli böyük mübarizənin böyük adamı idi...

Dahi sənətkarın, böyük mütəfəkkirin, yorulmaz, maarifçi-demokratın "ədəbi tənqidi" estetik baxışları yeni Azərbaycan ədəbiyyatının bünövrəsini qoymaq işində misilsiz rol oynadı, eyni zamanda bu məqalələr, əsərlər milli elmi tənqidin ilk təməl daşı oldu.

İllər keçəcək, bu təməl daşı üzərində böyük və möhtəşəm abidə ucalacaq. Bütün Şərqə məktəb olacaq bu əzəmətli abidə bir adı öz yaddaşında əbədi saxlayacaq və zaman-zaman bu ada qayıdacaq: Mirzə Fətəli Axundzadə.

***

XIX əsr. Şərq ağlayır, ağladıqca üzü eybəcərləşirdi. Eybəcərləşmiş üz islamın nurunu yansıda bilmirdi. Qoca Şərqin dizləri titrəyir, beli bükülür, nəfəsi tıncıxırdı. Qoca Şərq böyük islamı daşımaz hala gəlmişdi. Elmi mövhumat, cəhalət, yaradıcılığı ehkamlaşdırma, sömürü boyunduruğu ilə təpəyə dırmaşan xaçpərəsrtlər Şərqdən qoca Şərqin qanını sümürürdülər. Dünya birləşmiş qablar kimidir: Şərq güclənəndə Qərb zəifləyir. Qərb güclənəndə Şərq.

İndi zaman da, fürsət də Qərbin əlində idi. Mirzə Fətəli qoca Şərqi müalicə etmək üçün çırpınırdı. O, Şərqi Şərq üsulları ilə deyil, Qərbin çarə yolları ilə sağaltmaq, ayağa qaldırmaq istəyirdi.

Hədəf islam dini idi. Çarə Qərb fəlsəfəsi, ədəbiyyatı və texnologiyası çıxış yolunun təməli idi. II Mahmuddan başlayan və Tənzimat fərmanı (1839) ilə zirvələşdirilən və Sultan Əbdülməcidlə geri dönülməz yola girən Avropalaşma sürəci. Modernləşmə yalnız Batılaşma deyil. Çox sonralar Cəmaləddin Əfqani Şərqi islam yolu ilə sağaltmaq yolunu araşdırdı. Yenə də olmadı. Əli bəy Hüseynzadə və onun davamçıları (Ziya Gökalp, M.Rəsulzadə...) islami baxışla, modernləşməni və millətçiliyi bir araya alaraq daha mükəmməl çoxtərkibli ideologiya sistemi yaratdılar. M.Rəsulzadə bu ideologiyanı qısa müddətli olsa da dövlət sisteminə daşıdı və millət azadlığın, hüququn, öz kökünə, dilinə, dininə bağlılığın dadmış oldu. Sonra Atatürk Osmanlı külləri içində Türkiyə Cümhuriyyətini yaratdı və onun əbədiyyətinə imza atdı.

Şərq yeni bir ideoloji təcrübəni gerçəkləşdirdi. Atatürkün inqilablarından biri də hərf-əlifba inqilabı oldu.

Açıq şəkildə söyləmək gərəkir ki, bu ideologiyanın təməlini yaradanlardan biri də Mirzə Fətəli Axundzadə olmuşdur. Məncə, İslam dini ilə barışmazlıq

Mirzə Fətəlinin gücü deyil, gücsüzlüyüdür. Amma ziddiyyətləri Mirzə Fətəlinin tarixi rolunu əsla inkar edə bilməz.

İnsanlığın fikir, düşüncə tarixi dünyaya mükəmməl şəkildə gəlmir. İnsanlarla bərabər hər şeyi zaman da dəyişir, cilalaya-cilalaya sabahlara daşıyır.

Sabahkı ideologiyanın nə olacağının nə olacağını mən bilmirəm. Bildiyim odur ki, gələcəyin ideoloji barışlar sistemində Mirzə Fətəlinin də, Ə.Hüseynzadənin də, M.Ə.Rəsulzadənin də, Atatürkün də duzu olacaqdır. Duz yəni Şərqi Şərq edəcək əlac.

Çağdaş demokratik dünyanın bir sıra anlayışlarını Azərbaycana, Şərqə ilk dəfə gətirən Mirzə Fətəli olmuşdur. Onun şəriət dövlətinə hüquq dövləti şüuru Şərqin inqilablarından biridir.

Dünyəvi (sekulyar, laik) dövlət qavramı da dini dövlət anlayışı ilə əvəz olunmuşdur ki, bu da vətəndaş cəmiyyətinin təməllərindən biri olmaqla Şərq dünyası üçün olduqca əhəmiyyətli idi. Ümumən Şərqdə yerləşməsində, oturuşmasında Mirzə Fətəlinin qoyduğu ilk daşlar zəmin rolunu oynamışdır.

Mirzə Fətəli ilk Avropa təfəkkürlü Şərqli, Şərq təfəkkürlü Avropalı xarakteri olduğu üçün onun səpdiyi toxumlar beyinlərdə cücərmiş, ürəklərə yol tapa bilmiş, ictimai-siyasi həyatı dəyişə bilmək gücündə olmuşdur.

Təkrar etməyə borcluyam ki, Şərqdə ilk teatrın, ilk yeni ruhlu mətbuatın baniləri Həsən bəy Zərdabi, Nəcəf bəy Vəzirov da bilavasitə Mirzə Fətəli şəxsiyyəti və əsərləri ilə bağlı olmuşdur. Böyük mütəfəkkirə Avropa düşüncəsinin və təcrübəsinin təsiri inkar edilməzdir. Fəqət Mirzə Fətəlinin tarixi rolu Şərq mühitinde ağır şərtlər və prinsiplər içində bu düşüncəni yaratmaqdır. Yaratmaq kopiya etmək, mexaniki gətirmə də deyil. Yaratmaq təsirləndiyini başqa şəraitdə canlandırmaq, ona yeni həyat verməkdir. Bu mənada Mirzə Fətəli Molyerdən təsirlənmidir. Ancaq Molyer klassisizmindən fərqli bir dünya yarada bilmişdir. Onun yaratdığı məktəbə realist və ya tənqidi realist məktəb deyə bilərsən, onun qurğulamasında novatorluqla ənənənin dialektikasını da aşkar edib incələyə bilərsən, dinə, Füzuliyə münasibətini kəskin tənqid edə bilərsən, ancaq Mirzə Fətəlinin sənət təkrarsızlığını dahilik səviyyəsində olan fitri istedadını, əldə etdiyi sənət dəyərlərini inkar edə bilməzsən.

Hər cür sənət, fikir yeniliyi daşın üstünə qoyulmuş daşdır. Hər cür təcrübə sıçrayışın, təkamülün qaynağı olduğunu unuda bilmərik. Dünyanın müqəddəs kitablarından gələn bu təcrübə elmdə də, sənətdə çoxdan isbat olunmuş təcrübədir. İlk təcrübədən böyük məktəbə gələn bu yol məşəqqət dolu dolanbaclardan, qaranlıqlardan keçir. Nəticənin aydınlığı, sadəliyi böyük mürəkkəbliklərdən, qarmaqarışıqlıqlardan keçə-keçə gəldiyi üçün

təmizlənir, büllurlaşır. Puşkinin dediyi kimi “Siz yeni doğulan uşağın hansı çirkinliklərdən, natəmizliklərdən keçib gəldiyini görsəniz heyrətlər içində donub qalarsınız. Söz sənətinin mahiyyətini, məğzini, genezisini öyrənərkən biz eyni mənzərə ilə qarşılaşmalı oluruq. Mirzə Fətəlinin altı komediyası bu prosesin ən dolğun örnəkləridir desək, haqqı danmış olmarıq.

...Mirzə Fətəlinin bir üzü var idi və o ikiüzlülüyə və ikiüzlülərə nifrət edirdi. O, həyatı boyu insanlara bir olan üzünü göstərmiş, o bir olan üzü ilə dostu ilə də, düşməni ilə də üz-üzə gəlmişdi. O, hər kəslə anladığını, dərk etdiyini paylaşmışdı. Onun iddiaları da, təsbitləri də mübahisələri və davaları özününkü idi və riyakarlıqdan uzaq idi.

Mirzə Fətəli qara güruhun qarşısında deyil, Allah qabağında hesab verməli olan nadir insanlardan biri idi. Məlun, mürtəd, zındıq iftiraları, küfrləri Mirzə Fətəliyə deyil, o kəlmələri ağzı köpüklənə-köpüklənə söyləyən qaragüruhun özünə aid idi. Mirzə Fətəlinin yanlışına da, xətasına da, günahına da qiyməti yalnız və yalnız Allah verə bilərdi. Bu mənada Allah böyük olduğu kimi onun yaratdığı bəndələr içində Mirzə Fətəli də böyük idi. Hər şeyi ilə: günahıyla da, səvabıyla da, elmiylə də, sənətiylə də...

Qədim Roma şairi Vergilinin bir sözü yadıma düşür:

*Cəhənnəmə düşmək asandan asan,*

*Amma geri dönmək, çətindən çətin...*

Söhbət Mirzə Fətəlinin cənnətə və ya cəhənnəmə düşməyindən getmir. Onu Allah bilir. Məsələ Mirzə Fətəlinin bu dünyadakı mücadiləsindən çəkdiyi çilədən, iztirab və ağrılardan gedir. Dünyada hər şeyin görünən və görünməyən tərəfi var. Görünən görünməyəni, görmək və dərk etmək hər kəsə müyəssər olmur.

Bizim borcumuz keçmişi, keçmişin dəyərli insanları bütöv görmək, öyrənmək və dəyərləndirməkdir. Bu mənada da bizim Mirzə Fətəliyə borcumuz çoxdur. Borclunun borclunun sağlığını istəməsindən başqa əlacı yoxdur.

Gənc Mirzə Fətəli arayışlar içində olan, Qərbi dərindən öyrənən, Şərqi Qərb baxışı ilə araşdırandır. Orta yaşlı Mirzə Fətəli ən böyük bədii kəşflərini edərək ucalan Mirzə Fətəlidir. Bu Mirzə Fətəlinin bədahəti dünyanı önləyənlərin və əbədiyyətin qapısını açanların sırasındadır. Azad bədii düşüncə Şərqin çoxdan gözlənən intibahı, yeni başlanğıcıdır.

Yaşlı Mirzə Fətəli inqilabçıdır. Ömür şahmatında seytnot təhlükəsi onu filosof, sosioloq, inqilabçı, reformator olaraq önə çəkmişdir. Artıq o, cəmiyyətin uzun müddətli müalicəsindən daha çox cərrah bıçağına möhtac olduğuna inanır. Artıq o radikaldır və Əzrayılın ayaq səslərini eşitdikcə bu radikallıq zirvəyə yüksəlir. Ahıl Mirzə Fətəli barışmazdır.

Mirzə Fətəlini antitürkçülüklə suçlayanlar da az deyil. Bizcə, hardansa

bir sitat tapıb, nəyi isə yozub M.F.Axundzadəni türklüyə qarşı qoymaq böyük ədalətsizlikdir.

Mirzə Fətəlinin altı komediyası, nəsr əsərləri, şeirləri, ədəbi-tənqidi, publisist əsərləri türklüyünən böyük çağdaş ədəbi qalası, fikir təməlidir. Bu, o qədər açıq-aydındır ki, heç bir isbata ehtiyac yoxdur.

M. F. Axundzadənin yalnız türklüyü deyil, Türkiyəyə sevgisi də mübahisə mövzusu deyil. Mirzə Fətəlini rus yanlı, ruspərəst hesab etmək siyasət şahmatını, manevr və arayış yollarını bilməməkdir. Əlifba məsələsində Türkiyəyə üz tutan Mirzə Fətəli ürəyinin qibləsinə üz tutmuşdu. Əsasında Güney Azərbaycan türklüyü dayanan İrana məhəbbət, yanğı tamamilə təbiidir. Mirzə Fətəlinin o torpaqlarda doğulduğunu, atasının o coğrafiyadan olduğunu da unuda bilmərik. Böyük maarifçinin xəyalındakı Millət, Vətən anlayışını anlamaq üçün M. Ə. Rəsulzadənin "Əsrimizin Səyavuşu"nu oxumaq lazımdır.

Söhbətin bağıran, hayqıran millətçilikdən getmədiyini, yəqin ki, anlayırsan, oxucum.

Şübhəsiz ki, mənim bu dəyərləndirməm şərtidir. Təbiətdəki, cəmiyyətdəki və başlıcası daxilindəki ziddiyyətdən təkan və ilham alan Mirzə Fətəli bu ziddiyyətlərin doğma övladıdır desək zənn edirəm yanılmaram.

Heç bir şey, o cümlədən insan, öz qabından böyük ola bilməz. Maddi olaraq bunun belə olması şübhəsizdir. Fəqət dahiləri maddi olaraq dəyərləndirmək yetərli sayılmaz. Yerlə bərabər onların bir də fəza ölçüsü, başqa sözlə desək başının üstündəki göy üzü, fəza var. Dahilərin fəza ölçüsü öz qabından böyük ola bilmə parametrini də ortaya çıxarır. Belə olmasaydı dünyanın böyük kəşfləri edilməzdi, insanlıq böyüyə-böyüyə irəliləyə bilməzdi.

O, Azərbaycan insanını yazdı. Bu insan bizim kimi danışan, düşünən, doğru yolu tapan və tapmayan uğurlu və ya uğursuz, qalib və ya məğlub, ac və ya tox insandır, aldadandır, aldanandır. Bir sözlə, insandır. Bizim hər birimiz kimi gerçək insandır. İnsanı yazmaq özü də Allaha ibadətdir.

Bu baxımdan Mirzə Fətəli onun yaratdığı, ədəbi, elmi məktəbi bütün Şərq üçün də, Qərb üçün də ayrı bir önəm daşıyır.

Allahsız Mirzə Fətəlinin ədəbi əsərlərində onlarca Allahlı insan olması, təsadüf sayılmaz. Müsəlman qadınlar da, erməni cütçülər də, fransız təbiətşünas – Müsyö Jordan da Allahlı, saf insanlardır. Mirzə Fətəlinin yaradıcılıq dühası bu insanları necə varsa, elə verməyə yönəlmişdir.

Bu anlamda da Mirzə Fətəlidə iki başlanğıc var: biri, əslində birincisi ilahi başlanğıcdır. Bu başlanğıc onun ədəbi əsərlərində təcəlli tapmışdır. İstərsən ona realizm de, istərsən tənqidi realizm de, istərsən də heç bir şey demə. Bu ədəbi əsərlər modern Azərbaycan ədəbiyyatının təməlidir. İkincisi, Avropavari fəlsəfi ictimai-siyasi arayışlardır, mühakimə və qənaətlərdir ki, bunlar... Mirzə

Fətəlinin sosial fəlsəfəsidir ki, onlardan qəbul etdiklərimiz (totalitar, avtoritar idarəçiliyə qarşı qəti mövqe, çoxdüşüncəlilik, plyuralizm, sağlam maarifçilik, cəhalətə, mövhumata qarşı barışmazlıq, inqilabi qətiyyət, reformist baxış və s.) də qəbul etmədiklərimiz (islam dininə, ümumən dinə qarşı önyarqı və düşmənçilik, ədəbiyyat tarixinə subyektiv və yanlış baxış, bidətçilik (apokrifçilik), ifrat Batı heyranlığına yol açcaq fikir toxumları və s.) də var. Məncə, bu baxışlar sistemi arayış, axtarış kimi dəyərləndirilə bilər ki, onlar ilahi deyil, dünyəvi, yerə, günə bağlıdır və bir xeyli dartışma mövzularıdır.

Erkək toxumu başqa-başqa millətlərin zərif cinsinin bətninə can atar, qadın bətni isə öz millətinin toxumunu sevməyə və seçməyə üstünlük verər. İstisnaları olsa belə bu qanuna uyğunluq təbii canatma, təhtəlşüurla deyil, adət-ənənə ilə, dini dünya görüşlə tənzim olunur. Belə olmasaydı Sovetlərdə yaşayan biz türklər rusların uyqurlarçün mədəsində çoxdan əriyib getmişdi. Ana bətnə ocağı tərcih edirsə, Ata toxumu daha uzaq yurdların, ellərin qadınlarının bətninə cumar. Qan qanı çəkdikcə, qan qana qarışdıqca, gizli güzlər ortaya çıxmış olur. Bətn çəkər, toxum atılar. İmperiya qanunlarından biri də budur. Bu bioloji amil sosial dəngələri də idarə edər. Biososial güc toplumu zəlzələ kimi yerindən oynadar, imperiyaları böyütdükcə böyüdər, kiçiltdikcə kiçildər. Və imperiyalar da uşaqlar kimidir. Doğular, böyüyər və ölüb gedər.

Mirzə Fətəli bu biososial qanuna uyğunluqları bilirdi.

O, iqtisad qanunlarını da oxumuş, cəmiyyət həyatında iqtisadi qanunların rolunu dərindən öyrənmiş və yaradıcı şəkildə dərk etmişdi.

Üstqurumun baisə təsir yollarını və əhəmiyyətini gözəl bilir, ideoloji, humanitar elmlərə, gözəl sənətə dərindən bələd idi.

Texnikanın, texnolojinin, dəqiq elmlərin xoşbəxt gələcək üçün açdığı imkanları hərtərəfli anlayırdı.

Bu universal təfəkkürün kökləri Qərb-Şərq sintezinə də nəşət tapmışdı. Bu sintezdə Aristoteldən, Platondan üzü bəri, İbn Sina, Fərabi, İbn Xəldun, Rumi də var idi. İspinoza, Kant, Hegel, Volter, Didro, Monteskye, Tard, Dürkhaym, Molyer, Puşkin kimi....

...Söz uçar yazı qalar,- deyib müdriklər. Mirzə Fətəli sələfləri ilə xələfləri arasında elə bir canlı körpü idi ki, o körü olmasa Şərqin dünyagörüş bütünlüyü təsəvvür olunmazdı.

Əslində Qərb və rus ictimai-siyasi elmi-fəlsəfi, ədəbi-estetik fikir sistemi Axundzadəyə yer ayırmadıqsa, o tarix həmişə yarımçıq qalacaq.

Təəssüf avropasentrizm, xristian klubçuluğu, Avropaya xas eqoizm və özünə vurğunluq, müsəlman dünyasına ikinci sinif insan müamiləsi, Mirzə Fətəlidən bugünə heç nəyi dəyişmədi ki, dəyişmədi. Nə demokratiya, nə insan

haqları, nə Avropa Birliyi Şərqi sömürü və ekzotika dünyası hüdudlarını söküb dağıda bilmədi. Bu da üzümü Mirzə Fətəlinin ruhuna tutub söylədiyim bir həqiqətdir. Dünən də, bugün də, sabah da...

...İnsan bəzən işığı dışarıda, yaxın və uzaq ətrafda arayır. Mən işığın insanın öz içində olduğuna inananlardanam. Yenə məncə, Mirzə Fətəli buna inanmayanlardandır. Ancaq bu sadəcə inanmaq kimi yorumlana bilməz.

Çünki Mirzə Fətəli inanmaya-inanmaya o işığı tapanlardandır. Mənim kimi inananlarsa hələ böyük bir şey tapmayıb. Bu da bir qəribə paradoksdur. Bunu da diqqətə alın ki, mən dahilər plyedasından deyiləm.

Allahın verdiyi və insanın özünün qazandıqları nə qədər nisbi olsa da müqayisə etmək olar. Mirzə Fətəliyə Allah yaratma vergisi vermiş, Mirzə Fətəli bu vergini zəhməti, bədahəti ilə cilalamışdır. Universal təfəkkür və çoxyönlü fəaliyyət hər kəsə müyəssər olmur. Mirzə Fətəlinin əlyazmalarına baxsanız, ədəbi, elmi, publisistik əsərləri üzərindəki işini incələsəniz, məktublarını diqqətlə oxusanız, bir ucu Tiflis, Bakı, o biri ucu İstanbul, Peterburq, Tehran... olan fəaliyyət sahəsini diqqətlə öyrənsəniz heyrətə düşərsiniz. İnsanın nə qədər böyük enerjisi, iradəsi, əzmi olarmış...

Bir şeyi də demək məcburiyyətindəyəm.

İslamı heçləşdirmək, təsirsiz hala gətirmək siyasəti Qərbin və rus rejiminin əsas strateji məqsədlərindəndir. Bunun birbaşa zorbalıqla edilməsi məqsədəuyğun sayılmamışdır. Batı və rus missionerləri ilə bərabər müsəlman olan yerli seçilmişlərdən də gərəyincə istifadə edirdi. İlminskinin, Radlovun (böyük alim olduqlarını inkar etmirik – K.V.) və b. elm adamlarının raportlarında bu açıq-aydın şəkildə öz əksini tapıb.

Xalqının taleyini Rusiya və ya Qərbə bağlamış ziyalılar bu xidməti səmimiyyətlə etmişlər. Mirzə Fətəlini də müəyyən mənada bu sıraya daxil etmək olar. Mirzə Fətəlinin manevr siyasətini də görməzlikdən gələ bilmərik. Burada yuxarıdan seçimlə xalqına xidmət üst-üstə düşür. Əlifba və islam dini "Parçala, hökm sür" siyasətinin sərbəst keçə biləcəyi körpü olduğu üçün missioner fəaliyyət də o istiqamətə yönəldilmişdir. Mirzə Fətəlinin maarifçilik idealı ilə üst-üstə düşən missioner fəaliyyətini bir-birindən ayırmaq çətindir və bəlkə də imkansızdır.

Həqiqətə yaxın olan yalan ən dəhşətli yalandır. İslam dini ilə cəhalətin eyniləşdirilən təşəbbüsləri bu yalanı dəhşətli edən əsas faktorlardan biri idi.

Qərbin və rusların terror deyə damğaladığı islami dirəniş zülm, sömürüyə qarşı mücadilənin yollarından biridir. Zülmün zülm, zorbalığın zorbalıq doğurması da təbiidir.

İslam həm də elə bir ictimai ideologiyadır (və ya müəssisədir) ki, orada zalıma və zülmə qarşı amansız mücadilə formulu var və bu formulu Qərb heç

vaxt anlamaq gücündə olmayıb. Bu prosesləri möhürləmək deyil, etnik, psixoloji, tarixi səbəbləri araşdırmaq, diqqətə almaq, hesablamaq Demoklis qılıncı kimi Qərbin başının üstündə durduğu gerçəyini də nəzərə almamaq olmaz.

Bunları deməkdə məqsədim Mirzə Fətəlidən din düşməni obrazı yaratmaq deyil, məsələnin mürəkkəbliyini vurğulamaq, Şərq-Qərb kontekstində bəzi gəzişmələrlə bugündən dünənə, dünəndən də bugünə işıq salmaqdır. Bunu da bilək ki, qaranlıq işığın içində deyil, işıq qaranlığın içindədir.

Doğrusu mən Hangdinqtonun mədəniyyətlərin savaşına deyil, dialoquna ümid bəsləyənlərdənəm. Dünyanın ən mükəmməl sistemi kimi də liberal demokratik baxışı görmürəm. Daha çox mühafizəkar-demokratik baxışın tərəfdarıyam. Amma onu da ehkam saymıram.Qərbin sonunun gəldiyinə, hüquqlu cəmiyyəti və hüquq diktaturasının diktatura hüququna qalib gələcəyinə inananlardanam. Hətta ürəyimin bir yerində demokratiyadan üstün və kamil bir baxışın nə vaxtsa doğacağına da “dəli bir ümid”im var.

Və bu baxışlardakı bizim söykənəcəyimiz, hər zaman araşdıracağımız baxışların, düşüncələrin baş ucunda dayananların birinin bəlkə birincisinin Mirzə Fətəli Axundzadə olacağına inanıram. Hər daşın içində mükəmməl bir heykəlin, rənglərin içində ən gözəl şəklin, sözlərin içində möcüzəli bir şeirin olduğuna inam bəsləyənlərdən biri də mənəm, əziz oxucum.

Allah bəzən susur və yaratdıqlarını izləyir. Onların əməllərini sadəcə müşahidə edir. Cəza vermədən yaratdıqlarının pislik və yaxşılıq hüdudlarını, gözəllik və çirkinlik, ədalət, insaf, səbr və zülm, sitəm, dözümsüzlük sərhədlərini bəlirləməyə çalışır.

Allahın belə heyrətdən donub qaldığı, inanmadığı anlar az olmur. İnsanın hüdudsuz gözəlliyi Allahı sevindirdiyi, razı saldığı kimi, yenə insanın hüdudsuz eybəcərliyi, vəhşiliyi Allahı ümidsizləşdirir, küsdürür.

Qiyamətə doğru atılan addımlar Allahın deyil, insanın seçimidir.

Təəssüf ki, Mirzə Fətəli və Mirzə Fətəli kimi seçkinlər hər şeyi təbiətə, maddəyə bağladıqları üçün ilahi olanı unudur, hər şeyi yerə, yer qanunlarına bağlamağa çalışırdılar. Hər şeyin kökünün yerə deyil, göyə bağlı olduğu düşüncəsində, şüurunda deyil, hissiyyatında, duyğularında tapanlardan biri də Mirzə Fətəli idi. Onun ədəbi-bədii yaradıcılığı deyilənlərin təsdiqidir. Gördüyümüz, hətta tanıdığımız insanlardan təbii gerçək xarakterləri, münasibətləri Allaha da xoş gəlir, bəndəyə də. Çünki göylərə bağlı olan hər insan, hər davranış, hər addım, hər kəlmə yerdə də diri və canlıdır, təbii və doğrudur. Diri, canlı, təbii və doğru olanlarla, yenidən göylərə ucalmaq mümkündür.

Mirzə Fətəli ədəbi yaradıcılığı bu mümkünlüyün təsdiqidir.

...İdealı üçün hər cür vasitəni məqbul görənlərdəndir Mirzə Fətəli. Mirzə Fətəli fikirlərin, ehkamların fanatiki deyil, öz idealının fanatikidir.

Ağıl hər şeydən üstündür. Dekart kartezianlığının öyrətdiyi bu idi.

Təəssüf ki, Mirzə Fətəli Quranın ağıl və elm ölçüsünü heç görmədi, sadəcə görmək istəmədi.

Mürtətlik (Məşədi İbadın məclisdə "mürtəd oğlu, mürtəd" deməsini yadınıza salın) adlı bir anlayış var. Mən bunu Mirzə Fətəliyə aid etməzdim. Bu bir az din pərdəsi arxasında cahilin arifə sataşması, təhqir etməsidir. Mirzəyə babı, zındıq, məlun... demək də vicdana sığmaz.

Heç unutmayaq ki, Allahlı Allahsızı nə qədər sevmirsə, Allahsız da Allahlını ən az o qədər sevmir.

Yanlış xatırlamıramsa Volterin bir sözü var: "Allah yox isə də onu yaratmaq lazımdır". Bu fəlsəfə naqisdir və gerçək, səmimi başlanğıcdan məhrumdur. Mən Quranın "Yalançılar bizdən deyildirlər" hökmünü qəbul etdiyim üçün bədii yalan dışında heç bir yalanı qəbul etmirəm. Mən Allahı vardan əvvəl var olan sayıram. Yəni teistəm, Allahlıyam. Digər teistlərdən fərqli olaraq mənim kosmosumda hakimi-mütləq, hər şeyin səbəbi olmaqla bərabər, dostdur, qardaşdır, həmdərddir, əzizdən əzizdir, xilaskardır. İbadət Allahla söhbətdir, ucalmaq və təmizlənməkdir. Göylərə baxıb bir kəlmə söyləmədən ürəyindəkiləri Allahla bölüşmək dünyanın ən böyük xoşbəxtliyidir.

Mirzə Fətəli namuslu bir ateistdir. Onun könül dostu vicdanıdır, kitablarıdır, təbiət və cəmiyyət qanunlarıdır. Dindarla dinsizin fərqi başlanğıcı nə şəkildə qəbul etməkdədir. Həyat fəlsəfəsi bu başlanğıcdan doğanlardır.

Əslində bir namuslu teistlə namus, vicdan sahibi ateistin dostluğu daha səmimidir, neki namussuz "dindarla" namussuz, vicdansız dinsizin.

Mirzə Fətəlinin faciəsi dinsizlikdə deyil, dinsizliyi ideologiyaya çevirməkdədir, cəmiyyətin bütün naqisliklərini dində axtarmaqdır, din ilə cəhaləti bir-birindən ayırmamaqdadır.

Mən əgər Allaha inanmayan ayrı-ayrı məsələlərdə Mirzə Fətəliyə inanıramsa bu mənim Mirzənin qəbul etmədiyi və ya qəbul etmək istəmədiyi Allahına olan inamından irəli gəlir.

Bir düşüncəmi də söyləməyə ehtiyac duyuram. Məncə, şeytan elmi yaradıcılıqdan daha çox bədii yaradıcılıq dünyasında olur. İnsanlığın ən böyük əsərləri Allah-şeytan-insan üçbucağında cərəyan edir. Və bu mürəkkəbliyi ədəbiyyat sanal (xəyali, virtual) şəkildə mətnləşdirir (və ya ifadə edir). Şeytanın əməlləri sənətdə, ədəbiyyatda daha çox öz təcəssümünü tapır. Elm daha çoxtəcrübəyə müşahidəyə, isbata söykənir, daha çox maddidir və şeytanın fəaliyyət sahəsinin məhdud olduğu fəzadır.

Mirzə Fətəlidə müəyyən mənada şərti olan bu bölgü tərsinədir. Onun bədii əsərləri Allahın nəfəsi ilə yazılmış sənət əsərləridir, onun elmi və ya elmi-publisistik yaradıcılığı şeytanın daha çox əl qatdığı müstəvidədir. Bu yazının

məğzi bu dediyimizi isbat etməyə deyil, göstərməyə çalışmaqdır. İman isbat istəməz.

Və bir də elə həqiqətlər var ki, o metaforik şəkildə ifadə olunur.

...Mən ilahiyyat alimi deyiləm. Din məsələlərində fitva vermək haqqım da yoxdur. Mirzə Fətəli kimi dahi də deyiləm. Sadə bir qələm əhli, müəllimәm. Müsəlman kişisiyəm, Allaha inamım sonsuzdur. Allaha inananlara sayqım da sonsuzdur. Müsəlman qardaş-bacılarımı sevirəm. Öz millətimə, Vətənimə dərin bir eşqlə bağlıyam. Hər gün bir neçə dəfə oxuduğum dua budur: "Allahım, məni, ailəmi, millətimi, hümmətimi, insanları qoru. Biz nankoruq. Sənin əfvinə sığınmışıq".

Mən Mirzə Fətəlinin ömrünün sonlarında tövbə etdiyini bilmirəm. Tövbəsinin qəbul olunub-olunmamasını heç bilmirəm. Allah bağışlayandır və tövbə qapısı həmişə açıqdır hökmünün Mirzə Fətəliyə şamil olub-olmadığı da mənə məlum deyildir. Mənim bildiyim və mənə məlum olan odur ki, el duası müstəcəb olur, yəni Allah tərəfindən xalqın duası qəbul olunur. Xalqın, elin bir zərrəsi olaraq Mirzə Fətəli üçün dua edənlərdən biri də mənəm, desəm, təəccüb etməyin, Allahsız da bağışlanarmı deyib, qəzəblənməyin. Unutmayın ki, Allah böyükdür və əbədidir. Təkrar etməyə borcluyam, Allah bağışlayandır.

Mirzə Fətəlinin çəkdiyi əzablar, göstərdiyi xidmətlər, yazdığı ədəbi əsərlər və əlbəttə ki, zamanın şərtləri onun bəraəti ola bilməzmi?

Yenə Allah bilər. Yalvarmaq, dua etmək bizim borcumuzdur, bağışlamaq Allahın iradəsidir.

XX əsrin insanı 30-cu, 50-ci əsrin insanı qarşısında da məsuliyyət daşıyır. Gələcək nəsillər öz tarixini dəyərləndirərkən Mirzə Fətəlini də, biz sıradan insanları da dəyərləndirəcək. Mən istəmirəm ki, o uzaq və doğma nəsil bizlərə və Mirzə Fətəliyə baxıb köks ötürsün.

İnanıram ki, Allah bağışlamağı özündən, özünə qarşı olanlardan başlayıb. Çünki, o, çox böyükdür. Ağıla sığmayacaq qədər böyük varlığı tiranların, şahların, prezidentlərin məntiqi ilə ölçüb dəyərləndirmək olmaz. Allah bu qədər böyükdürsə, onun zərrəsi olan insan niyə böyük olmamalıdır?!

Sevə-sevə, həm də qorxa-qorxa üzümü göylərə tutub yalnız ulu yaradanın eşidə biləcəyi bir səslə deməyi borc bilirəm:

Allahım, Mirzə Fətəliyə rəhm elə. Onu sənətinə, zəhmətinə, iradəsinə, Vətəninə, millətinə sevgisinə bağışla. Bizi bağışla. Sənin böyüklüyünə sığınmışıq, Allahım...

Mirzə Fətəli xəstə cəmiyyətin yanında nə qədər sağlamdırsa, Allah yanında o qədər xəstədir.

Sağlamlar xəstənin halını bilməz. Ona baxa-baxa, bəzən ağlaya-ağlaya özünü düşünər. Sağlamlar heç xəstələnməyəcəkləri qənaətində olarlar.

Mirzə Fətəli kinin, nifrətin içində deyil, əksinə kin, nifrət onun sevgisinin içindədir.

Mirzə Fətəli duyduqları, düşündükləri ilə deyil, düşündükləri ilə də yaşayan, mücadilə edən qəribə bir varlıqdır. Adı böyük hərflərlə yazılmağa layiq insandır. Hər şeyi ilə...

Mirzə Fətəlinin fəlsəfi dünyagörüşünü qiymətli məqamları az deyil. Amma ümumiyyətlə bu materialist fəlsəfənin müddəaları klassik alman fəlsəfəsindən, fransız ensiklopedistlərindən bəllidir. Qiymətli olan bir Şərqli mütəfəkkirin islam əhlinin bu fikirləri ifadə etməsi, sistemləşdirməsi idi. Şərqdə təşəkkül tapan ideoloji sistemin kontekstinə yorumunu da tam qəbul etmək çətindir. Onun "Kəmalüddövlə məktubları"ndakı ehtiyatkarlığı, verdiyi bilgilərin gələcək üçün dəyəri açıq-aydın şəkildə ifadə edilmişdir. Mirzə Fətəli altı komediyasından böyük və təkrarsız həqiqəti sanki ikinci, üçüncü dərəcəli bilir.

M.F.Axundzadə yaradıcılığına bütöv baxılmazsa, zamanına görə yanlışına, doğrusuna tənqid süzgəcindən keçirilməzsə, onun obyektiv tarixi qiyməti verilə bilməz.

Əgər Mirzə Fətəli çox böyük mütəfəkkir, yazıçı, şair, dramaturq, filosof olmasaydı ondan bu qədər uzun-uzadı danışmağa, yorum yapmağa ehtiyac olmazdı.

Amma bu ehtiyac var və həmişə olacaq.

Mirzə Fətəli bizim həm keçmişimiz, həm bugünümüz, həm də gələcəyimiz olduğu üçün işıqlı və qaranlıq, doğru-düzgün tapdıqları ilə incələnməli, yorumlanmalıdır qənaətindəyəm.

Mirzə Fətəli haqqında fikirləşərkən mənim ilk qənaətim onun Allahsız olmamasıdır.

Sonrakı qənaətim onun Füzuli düşməni olmamasıdır. "Mən külli-ədyanı puç və əfşan hesab edirəm" deyən adam necə Allahsız olmaya bilər? Və ya söz dünyasını gözəl bilən adam Füzuliyə "nazimi-ustad" – yəni nəzm ustası, sözü-sözə qoşan şair deyə bilər?!

Messiya və ya missiya deyilən şey Allahdan olduğu kimi sosial şərtlərdən və ya insanın öz daxili əmrinə də bağlı ola bilər.

Mirzə Fətəli Hz. Məhəmmədi dərk edə bilməyəcək səviyyədə ola bilməzdi. Quranın vulqar yorumu da ona əsla yaraşmır.

Amma Avropaya pəncərə, sonra qapı açan adam Şərq cəhaləti fonunda Avropa fütuhatını gördüyü, dərk etdiyi üçün o daşıdığı missiyaya böyük qurbanlar verənlərdən və daxilində, vicdanında o qərarların ağrısını yaşayanlardandır.

Mirzə Fətəli böyük ziddiyyətlərin övladıdır – desək yanılmarıq. Böyük ziddiyyətlər yaşamayan adamın dahi ola bilməyəcəyinə inananlardan biri də mənəm. Bu ziddiyyət yaradıcılığın təkan vericisidirmi, impuls verənidirmi, - deyə bilmərəm. Ziddiyyətin və ya əksliklərin vəhdəti və mübarizəsi adlanan dialektika qanunlarının da üzərində basa-basa durmaq istəmirəm. Nə qədər açıqlasam da, dərinə getmək istəsəm nə Heraklitdən, nə Hegeldən, nə də Marksdan dərinə getməyəcəyimi gözəl bilirəm.

Ziddiyyət "*hər gün yeni adam kimi doğulanları*" (Vaqif Bayatlı Odər) yetişdirən ana bətni kimidir. Ziddiyyət ikili başlanğıcdır. Hərəkətin, hərəkət edən gücün mayasıdır, - desəm səhv etmərəm (insanın çox qəti dediyi şey onun ən az inandığı gerçəklərdir)

Hər kəsin içində Allah da var, şeytan da. Bu da bir əkslikdir. Həm də vəhdətdir.

Öz Vətənini, xalqını sevənlərin bir qisminin şeytanla iş birliyi ideal üçün fədakarlıqdır. Yüz acını yeyərlər bir şirinin xatirinə. M.F.Axundzadənin də, Mirzə Kazım bəyin də, Mirzə Cəlilin və Sabirin də amalı ***xilas*** olmuşdur. Bu çətin anlaşılan sosioloji proses üçün "xilas" sözündən uğurlusunu tapa bilmədim. "Xilas" anlayışının içində inqilab da var, islahat da, dağıtmaq da var, qurmaq, yaratmaq da, haqlılıq da var, haqsızlıq da (dünyada hər şey nisbidir həqiqətini yaddan çıxarmayaq).

XIX əsrdə fransız inqilabı dünyaya inqilab, üsyan, millətçilik gətirmişdi. Rasional elmlər və texnika sürət və keyfiyyət, savaş və rahatlıq gətirmişdi.

Mədəniyyət, özəlliklə ədəbiyyat xəyal dünyasını yerə yönəltmiş, gerçəklik havası dünyanı tutmağa başlamışdı.

XIX sər müstəmləkəçiliyin də, yarım müstəmləkəçiliyin də, istismarın və kapital qanunlarının mürəkkəb bir əsr kimi ortaya çıxarmışdı. Və nəhayət XIX əsr mədəniyyətin, sənətin, xüsusilə ədəbiyyatın modern adlanan yeni zamanını və zəminini yarada bilmişdir. Renesansın təbii-realist ədəbiyyatın desək ciddi səhv etmərik (uzaqbaşı bir az subyektiv olarıq).

Söylədiklərimizə və söyləyə bilmədiklərimizə görə XIX əsr meteor yağışına düçar olmuş zavallı yer kürəsi olduğu qədər də, dünyanı dərindən dərk etməyə başlamış, yuxarıda bəhs etdiyim xilas yollarını araşdırmağa, nələriysə tapmağa çalışan insan mərkəzli dünya əsridir. Əsr hüdudlu zamandır, onun doğuşu da, ölümü də, davamı da, davamsızlığı da heç kəsin bəlli-başlı dərk və izah edə bilmədiyi zaman qavramı müəyyən mənada izahedilməzdir, mücərrəddir. Nə riyaziyyat və fizika, nə din, nə də ədəbiyyat bu qavramı bütünüylə aça bilməyib və aça bilmir. Mənim bildiyim odur ki, zaman Allahın adı və özü deyil. Olsa-olsa xassəsidir və ya varlıq səbəblərindən biri, bəlkə də birincisidir. Ruh kimi zaman da dərkedilməzdir.

Mirzə Fətəli bu zamanın doğma övladlarından biri idi. Mirzə Fətəli həm Şərqli, həm də Qərbli idi. O, öz millətinin, dininin övladı olduğu qədər də dünyalıydı.

Mirzə Fətəlinin yaşadığı məmləkət bölünmənin, parçalanmanın faciəsini yaşamağa başlayan ağrı-acılı ölkə idi. Quzeydə Rusiya şərtləri içində, Güneydə İran şərtləri içində yaşamaq bu məmləkətin taleyi idi. "Hər millət öz taleyinə məhkumdur", - həqiqətinə inanmayanlardan biri də Mirzə Fətəli Axundzadə idi.

Nə işlədiyi çar canişin dəftərxanası, nə dayısı Hacı Ələsgərin ona cikini-bikini öyrətdiyi ərəb-fars, hind – bir sözlə Şərq dünyası, nə müəllimi Mirzə Şəfinin, müasirləri Seyid Əzimin, Qasım bəy Zakirin, Natəvanın, ondan yaşlı xələfləri Bakıxanovun, Qutqaşınlının... dünyası onun dünyası deyildi.

Mirzə Fətəlinin yaşadığı, dostluq etdiyi, sevdiyi və əlbəttə ki, sevmədiyi insanların yolu onun yoluyla kəsişsə də, kəsişməsə də Mirzə Fətəli şair, dramaturq, nasir, filosof, inqilabçı, islahatçı.... varlığıyla özündə dəhşətli bir enerji daşıyan başqa bir planet idi. Bu planet alışıb yanır, göy sularının ağuşunda dincəlir, yaşıl meşəlik və səhra yanğısının içində idi. Həmin planet həm sələflərinə, nə də xələflərinə, həm də ki, müasirlərinə bənzəyən və əsla bənzəməyən qərib bir mövcudluq idi desəm məni anlaşılmazlıqla qınamayın.

Mirzə Fətəlinin bədbəxtliyi də, xoşbəxtliyi də bir mərkəzdə birləşirdi.

Mənə elə gəlir ki, Mirzə Fətəli elmi, tənqidi, fəlsəfi əsərlərini, ictimai-siyasi mahiyyətli əsərlərini həyatının mənası hesab edirdi. Buraya əlifba islahatı problemini də daxil etsək, o öz missiyasını bu fəaliyyətdə görürdü və dəyərləndirirdi. Fəqət insanın özünü həsr etdiyi fəaliyyət aldadıcı ola bilir.

Mən şəxsən ərəb əlifbasının birləşdiriciliyinin və 1000 illik ünsiyyət gücünün tərəfdarıyam. Əlifba elm məsələlərindən daha çox siyasi məsələdir. Bir modernistin, inqilabçının, islahatçının ərəb əlifbasını dəyişmək istəyi toplumun və sivilizasiyanın ciddi səhvlərindən biri idi. Minlərlə heroqliflə yazıb-yaradan çin xalqı, yapon xalqı modernizmdən də, elm-texnikadan da, insanlıq dəyərlərindən uzaqda qalmayıb.

Məni tənqid atəşinə tutmaq istəyənlərə XX əsrin 20-ci illərindəki latın əlifbasını dəstəkləyənlərdən, onun uğrunda mübarizə aparanlardan biri də mənəm, Mirzə Fətəliyə bu mücadiləyə öygü yağdıranlardan da biri mənəm. Bu başqa bir məsələdir. İnqilabçı siyasətçilərin (Lenin, Stalin, N.Nərimanov, Atatürk...) artıq qərar verdiyi bu inqilabı önləmək mümkün deyildi. Əlbəttə, bu inqilabda Atatürkün məqsədi birləşdirmək (söhbət türk dünyasından gedir), Lenin-Stalinin amalı ayırmaq idi ("ayır-buyur" siyasəti).

Bu mücadilənin sıra nəfəri kimi mən də Mirzə Fətəlinin İ.Qaspıralının, Atatürkün... yanında səf tutanlardanam.

Bu proses tarixlə, sosioloji şərtlərlə bağlı olduğu üçün baş verən mənfiliklər də, müsbətlər də labüd idi – zəfərləri ilə, faciələri ilə ... (Sovetlər Birliyində 30-cu illərin əlifba ilə bağlı soyqırımı, sürgünləri, 10 ildən sonra (1928-1938) latından kirilə keçidi, 1991-də Sovetlər Birliyi dağıldıqdan sonra yenidən latın əlifbasının bərpasını xatırlamağı xahiş edirəm...)

Mənim demək istədiyim şey məsələnin kökü ilə bağlıdır. Bu kök türk-islam mədəniyyətindəki 1000 illik yaşı, təcrübəsi, ölməz abidələri olan ərəb əlifbasıdır. Məncə, əlifba məqsəd deyil, vasitədir. Unutmayaq ki, dili Allah, əlifbanı insan yaradıb. Allahın yaratdığını deyil, insanın yaratdığının dəyişilməsindən və ya dəyişilməməsindən söhbət gedir. Hər əlifba dəyişməsi millət üçün faciədir.

İnqilabçıların bəzən faciəni görməməsi, diqqətə alması əşyanın təbiətinə uyğundur. Bu mübahisədə mən Orxon-Yenisey əlifbasının ortaq ola biləcəyini ciddi hesab etmirəm. Dilin təbiətinə uyğun olmaq əlifbanın yazı üçün primitiv olduğunu gizlədə bilmir üstəlik, türk-islam birliyi və başqa siyasi sosial faktlar və prinsiplər əhəmiyyətlidir.

Mirzə Fətəlinin modern təfəkkürü Avropa yolu seçimi və inqilabçı təbiəti ərəb əlifbasına qarşı idi ki, buna sayqı duymamaq haqsızlıq olardı. Paradoksal görünən bu açıqlamada mən öz fikrimdə qalmaqla Mirzə Fətəlinin uzaqgörənliyinə, cəsarətinə, zəhmətinə sayqı duymağa məcbur və məhkumam. Müvəffəqiyyət hər şeyə haqq qazandırır. Yeni zaman Mirzə Fətəlinin zəfərini təsdiq etmişdir. Bu inkaredilməzdir. Amma Qaliley demişkən, hər halda yer fırlanır...

Bir az mətləbdən uzaq düşsəm də, məncə, Mirzə Fətəlinin xoşbəxtliyi də, zəfəri də onun birnəfəsə (yəni beş-altı ilə) yazdığı altı komediyası, özü dediyi kimi təmsilatıdır. Şübhəsiz ki, bu altı komediya Mirzə Fətəli dahiliyinin birinci dərəcəli təsdiqidir. Altı komediya ilə Mirzə Fətəli yalnız çağdaş Azərbaycan dramaturgiyasının deyil, modern Azərbaycan şeirinin, nəsrinin – bütöv Azərbaycan ədəbiyyatının əsasını qoymuşdur. Bu fikri mənə dedirdən yalnız dili deyil, təfəkkürüdür, düşüncədir (əlbəttə ki, bu mənada dil ilə düşüncəni bir-birindən ayırmaq doğru deyil).

Mirzə Fətəlinin bu missiyasının isbatı və təsdiqi onun məktəbinin yetişdirmələridir: Mirzə Cəlil, M.Ə.Sabir, Ə.Haqverdiyev, N.B.Vəzirov, Ü.Hacıbəyli, Y.V.Çəmənzəminli...

Ən yeni Azərbaycan ədəbiyyatının bəsləyən qan da, Mirzə Fətəlinin altı komediyasıdır, - desək məni hökmbazlıqda ittiham etməyin (edirsiniz də edin, sizin keyfinizə, insafınıza buraxıram oxucu dost).

Bu dediklərim nə Mirzə Fətəlinin şeirlərinin, nə ədəbi tənqidi məqalələrinin, nə “Aldanmış kəvakib” kimi dəyərli nəsr əsərinin, nə də ictimai-

fəlsəfi traktatlarının qiymətini azaltmır və azalda da bilməz. Söhbət ədəbi-estetik dəyərdən, ədəbiyyatı, bədii sözün stixiyasından, taleyindən, prosesin mürəkkəbliyindən getdiyi üçün yalnız ədəbiyyat tarixində deyil, türk ədəbi dili tarixində bu altı komediyanın rolunu, funksiyasını müəyyənləşdirməkdən getdiyi üçün bu məsələyə bir az aydınlıq gətirmək istədim. Bu vurğunluq, hissə qapılmaq – filan deyil. Söylədiyimiz tezisi isbatlıdır və bu isbatın müəllifi yalnız mən deyiləm.

... Mirzə Fətəli ağrısının yerini bilməyən insanlardandır. Ağrısının yerini bilməmək təbabət üçün çətinlik törətsə də, yaradıcılıq üçün çox əhəmiyyətlidir. Yaradıcılıq həmişə başda hazırlanmış və sonra yazıya alınmış gerçəklik deyil. Bu mənada yaradıcılıq müəyyənlikdə qeyri-müəyyənliyin, dəqiqliklə, konkretliklə mücərrədliyin, günlük olanla əbədi olanını vəhdətidir (bir az qəliz oldu, məni bağışlayın).

XIX əsrin məziyyətlərindən biri avropasentrizmidirsə, o birisi islamafobiyadır. İslamın dininin gücündən, Quranın əbədi cazibəsindən qorxan xristian təəssübkeşlərinin əlindəki silah gericiliyə aparan xürafat, fanatizm, cəhaləti din adına xalqa sırındığı üçün Mirzə Fətəlidən sonra onun məktəbindən olan böyük sənətkarlar islam fəlsəfəsini, Quran dərinliyini deyil, cəhalət zəhərini, üzə çıxarmış, tənqid atəşinə tutmuş, əsl islama gedən sağlam yolun önünü qapatmağa çalışmışlar. Oriyentalizmin, assimilyasiyasının missionerliyin Şərqdə törətdiyi bəlalar haqqında yazılmış onlarca əsərlər bu dağıdıcı sürəcin altını da, üstünü də, yan-yörəsini də göstərmədədir. Mirzə Fətəlinin ürəyi – sənəti bir şəkildə, düşüncəsi – elmi, publisistik əsərləri isə başqa bir şəkildə ifadə etmişdir. Ziddiyyət deyilən şey həm də elə bu idi.

Mirzə Fətəlinin dinə, özəlliklə islam dininə münasibəti, məncə, onun həyatı, fəaliyyəti, əsərləri, dünyabaxışı ilə bağlı bütün problemlərin ən qəliziydi. Mən ilahiyyatçı olmadığım üçün bu məsələdə mütəxəssis sözü demək olduqca çətindir.

Hər halda bəzi duyumlarımı, qənaətimi söyləməyə borcluyam. (Qəbul etsəniz də sağ olun, etməsəniz də).

Birincisi, onu deyim ki, Mirzə Fətəli din və islam dini məsələsində önyarqılı olub. Yəni əvvəldən müəyyənləşdirdiyi fikirdə olub. Başqa sözlə, obyektiv olmayıb.

İkincisi, məncə, Mirzə Fətəli Quranı ya oxumayıb ya elə-belə oxuyub, yaxud inanmayan adam kimi oxuyub. Bu amillərin üçü də Quranı dərindən təhlil etməyə obyektiv dəyərləndirməyə imkan verməz. (Məncə inanmayan adamın dini kitabları) istər tək Allahlı dinlərin müqəddəs kitabları, istərsə də fəlsəfi dinlərin kitabları, heç fərq etməz. Məhz həm də ona görə ki, "inananla inanmayan bir deyil" (Quran).

İnananla inanmayan bir-biriylə heç vaxt görüşməyən, barışmayan gerçəklərdir. Əgər inanan - Quran səma kitabıdır, Allah kəlamıdır, göydən nazil olmuşdur həqiqətinə inanırsa, inanmayan gördüyünə, toxunduğuna, təmas etdiyinə, müşahidə və isbat edə bildiyinə və ya isbatına inandığına sarılır və onu qəbul edir. Bu da inanmayanın rasional, real gerçəyidir. Bu yerdə hər cür dialoq anlamsızdır. Başqa-başqa planetlərin sakinlərinin ünsiyyət qurması mümkünsüzdür.

Mirzə Fətəli böyük filosofdur. Altı komediyanın, bir hekayənin altında yatan fəlsəfənin nə qədər böyük olduğu açıq-aydın ortadadır. Ayrı-ayrı məqalələrdə, məqamlarda onun fəlsəfəsindən süzülən müdriklik diqqətəlayiqdir. 200 illik sənətin, ədəbi dilin ağırlığını daşıyan, böyük bir məktəbin təməlində dayanan ədəbiyyatın, düşüncənin yaradıcının həm də böyük filosof olması şübhə doğura bilməz. Təəssüflər olsun ki, Mirzə Fətəli könlündəki təbii fəlsəfi axını deyil, sosial şərtlərin, qüvvənin,haqq qazanmış və dartışılmayan gücün fəlsəfi doktrinlərini yazmış, yorumlamış, onları Şərq üçün uyğulamağa çalışmış, Qərb fikir bazarında qiyməti olan özünüsatmaya, özünüifşaya üstünlük vermişdir. Mirzə Fətəli öz stixiyasını ədəbi əsərlərində yazmağı bacarsa da, bununla əbədi tarix ola bilmişsə, öz stixiyasının – təbii axarının ifadəsi olmayan "Məktublar"ında, traktatlarında **ikincilik** – (yəni "ədəbiyyatın ədəbiyyatı", "elmin elmi") yolunu seçmişdir. Bununla o, heç nə qazanmamış, bu fikirlər məhəlli sərhədlər içində qalmışdı. İndi də III dünya yazarının özünüsatması ilə Nobel mükafatı qazanması mümkünsə, bu yolun haradan, nə zamandan gəldiyini anlamaq çox da çətin olmasın gərək.

Ortaya belə bir sual çıxa bilər ki, böyük yazıçının dinə, özəlliklə islam dininə qarşı çıxmasının təməl səbəbi nə idi? Və Mirzə Fətəliyə "Məktub"u yazarkən söykəndiyi, bir növ etibar etdiyi amil nə ola bilərdi?

Dönə-dönə bu məsələyə qayıtmağımızın səbəbi zamanın, şərtlərin mürəkkəbliyi ilə bərabər, aparıcı şəxsiyyətin özünün mürəkkəbliyi ilə öz qabığına və öz zamanına sığmamağı ilə bağlıdır.

Nəzərə almasaq ki, XIX əsr islam dünyasının zəifləmə dövrüdür. İstər Avropalaşmaya başlayan Türkiyə də, Avropalaşmaqdan uzaq olan ərəb və fars dünyası da, müsəlmanların mühüm bir qisminin yaşadığı Avropaya meyillənən, hətta sənətdə, ədəbiyyatda Avropaya meydan oxuyan Rusiya mədəniyyət, ictimai şüur, hüquq sistemi, elm-texnika baxımından çox gerilərdə idi. Elə bir durum yaranmışdı ki, Şərq cəhalətin simvolu olaraq qəbul edilmişdi. Bir atalar sözümüz var: "Gətirəndə el gətirir, sel gətirir, yel gətirir, aparanda el aparır, yel aparır, sel aparır".

O dövrdə baş verən siyasi iqtisadi, texnoloji olayların müsbət qəhrəmanı Qərb, mənfi qəhrəmanı Şərq idi. Bu şəkildə biçilən və bölünən dünya müəyyən fərqlərlə bugünümüzə gəlmişdi. 200-300 ildən artıq zamana yayılan bu demarş

Mirzə Fətəli üçün o qədər böyük həqiqətdir ki, bunun əksini düşünmək onun ağlına belə gəlmirdi. Qərb modelini yalnız ideologiya kimi deyil, yaşam biçimi kimi qəbul edən Mirzə Fətəlinin gözləri o qədər tutulub ki, mübarək "Quran"ı, ədəbiyyat əsəri kimi, uydurma, mif kimi alt-üst etməkdən zərrə qədər də çəkinmir... Mirzə Fətəli unudur və ciddi səhvə yol verir ki, insanın inamı ilə oynamaq olmaz.

Şərqi bu qədər görməzlikdən gəlmək sömürücü Avropaya qol qanad verən əsas amillərdən biri olmasını da unutmayaq.

Bu vəziyyəti əbədi qəbul edən Mirzə Fətəli müstəmləkə üsul-idarəsini, sinif bərabərsizliyini, hüquqsuzluğu, maarifsizliyi, tənqid və ifşa etmirdi desək çox ciddi haqsızlıq etmiş olardıq. Mirzə Fətəli heç zaman şeytana vəkillik etməmişdir.

Burada bir haşiyə çıxmaq istəyirəm. İslam zor dini deyil. İslam qılınc gücünə yayılmayıb. Bu mənada "qılınc müsəlman" ifadəsi də kökündən yanlışdır. Ərəb olmayan xalqların böyük bir qismi təsəvvüf şəklində, formatında islamı qəbul ediblər (özəlliklə, Türküstan, Qafqaz, İran, Ural-İdil boyu müsəlmanlar).

Əgər islam "qılınc dini" olsaydı bir ovuc qriqoryan erməni, provoslav gürcü xilafətə necə müqavimət göstərə bilərdi? Vergi, töycü isə öz dinində qalmaq istəyənlərin seçimi olubdu. Bu konteksdə Babəklə bağlı mübahisələr də kifayət qədər çoxdur. Əvvəla, sovet ideologiyasının təsiri ilə qələmə alınmış "Od gəlini" (C.Cabbarlı) ağ yalandan başqa bir şey deyil.

Mən Babəkin özünün də müsəlman olduğunu söyləyənlərin fikriylə şərikəm. Babək islama qarşı deyil, işğalçıya qarşı mücadilə aparıb. Babək ermənilərin əli ilə öldürülüb. Əgər sonralar Babək vətənsevərlik simvoluna çevrilibsə, buna qarşı cəhad açmağın da anlamı yoxdur. Bu məsələdə simvolların şərti olduğunu da unutmayaq.

Bunu da göstərməmək olmaz ki, islam fundamentalizmi, islam terroru ifadələri də kökündən yanlışdır. Bir dəfəlik bilmək lazımdır ki, terrorun dini, məsləyi, milləti yoxdur və ola da bilməz. Hətta terrorun vətəni də yoxdur. Terror uyğun bilinən yerdə gerçəkləşdirilən qəsddir, qırğındır, faciədir, bir sözlə, şeytan işidir.Terrorçunun Norveçli, Ərəbistanlı, İranlı, ABŞ-lı... olması onun milləti, dini anlamına gəlməz. Bu anlayışların lokal və ya ümumi siyasətdə işlənməsi məqsədlidir və olduqca zərərlidir.

İslam digər dinlər kimi barışı, xoşgörünü, insanlığı, Allah sevgisini təbliğ edən inancdır, əqidədir, dünyabaxışdır, desək həqiqəti olduğu kimi ifadə etmiş olarıq.

Mətləb odur ki, dahinin bir yanlışı dahi olmayanın min yanlışı deməkdir. Mən Mirzə Fətəlinin əsas yanlışının bütün ictimai bəlaların səbəbini dində

görməsini doğru saymıram. Mirzə Fətəlinin təsdiq etdiyi Avropada kilsədə, sineqoqda şamını yandırıb duasını oxuyan, ibadətini ürəkdə yapıb sonra parlamentə, akademiyaya, universitetə, elm və sənət ocaqlarına yollanan, yazan-yaradan xristian-yəhudi dünyasını görməzlikdən gələndə, əlbəttə ki, haqsızdır. Tarixin çıxmazına girmək və onun sancılarını yaşamaq xilas yolunu qapamır. Xilaskarlar da yalnız dahilər deyil. Tarixin dahiləri öz cilvəsi, öz dolanbac yolları var.

İnsan kimi imperiyaların da, sivilizasiyaların da öz alın yazısı var.

Mən Allahın böyüklüyünü, qadirliyini qəbul edənlərdən olduğum üçün Mirzə Fətəlini həm başa düşürəm, həm də başa düşə bilməməklə əzab çəkirəm...

Bütün bu beyin fırtınasında bir şeyi də unutmaq olmaz ki, Mirzə Fətəli inqilabçı idi. Qətilik, risk, rəqib olan hər şeyi kökündən vurmaq inqilabçıların ana qanunudur. Mirzə Fətəli bu qanunu pozmayıb. Fəqət Qərbin kor-koranə təqlidçisi də olmayıb Mirzə Fətəli. O, seçdiyi yolun xalqı xoşbəxtliyə aparacağına inanıb. Ürəkdən inananları kəskin mühakimə etmək doğru deyil. Onu qəbul edərsən, inananarsan, ya da qəbul etməzsən, inanmazsan.

Kainatın sürətinin kəşfi nisbilik nəzəriyyəsinin doğru olmadığını isbat edən ateist ola da bilər, olmaya da bilər. İnsan təbiətindəki mürəkkəbliklərinin anatomiyasını araşdıran Allahsız sənətkar Allaha daha çox yaxındır, nəinki Allahdan daima nə istəyən, özü üçün yaşayan, quru sözlərlə ayinləri mexaniki şəkildə icra edən dindar.

Allah yaradanları sevir. Çünki yaratmaq Tanrının öz xassəsidir. Bu cümlədə vurğu **yaradan** sözünə düşür və buradan Allah yaradandan başqa heç kimsəni sevmir anlamı çıxarmaq da yanlışdır.

Mühafizəkar və ya liberal olmaq privelegiya, üstünlük sayılmaz. Bəzən insan öz seçimində səhv edə bilər və ya onun ictimai varlığını müəyyənləşdirən şərtlərə tabe ola bilər. Bəzən də insanın ağlı, düşüncəsi ilə ürəyi, hissiyyatı, ayrı-ayrı seçimlər edə bilər. Mən bütün bunları Mirzə Fətəliyə isnad etmirəm, insan seçimindəki mürəkkəbliyi vurğulamaq istəyirəm.

Bəzən deyirlər ki, sıradan olan insanların Allaha ehtiyacı var, dahilər Allahı neyləyir?

Əgər bir alim makro və mikro aləmin tabe olduğu universal qanuna uyğunluq tapıb bu qanuna uyğunluğu Allah qanunu deyil, təbiət qanunu adlandırsa, fərq etməz o Allahın varlığını təsdiq edən mübarəklərdəndir. Alimin susmağı cahilin iddiasından qat-qat ucadır. Qeyri-səlis məntiq dinindən, dinsizliyindən asılı olmayaraq Allahın təsdiqidir.

Dünyada Allahda təsdiqi olmayan heç bir böyük kəşf yoxdursa, artıq sözə ehtiyac yoxdur. Olanlarla olmayanı sübuta yetirmək hər baba-igidin işi deyilsə, olmayanlarla olanları isbat etmək tək-tək adama qismət olan fitri qabiliyyətdir.

İnsanların ehtiraslarının boyu ağıllarının boyundan uzun olmamalıdır. Mirzə Fətəlinin söylədiklərinin içərisində bu xəbərdarlıq başda gəlir. Təbiətən hissiyyatlı olan Şərq əhlinin ağıl ölçüsünə, rasional əndazəyə daha çox ehtiyacı olduğunu söyləyən Mirzə Fətəli hər şeydə əsrin, zamanını tələbi olan elmi yanaşmanın nə qədər zəruri olduğuna daha çox əhəmiyyət verir.

İqrarçını da, inkarcını da, üsyançını da, mütini də, Allahlını da, Allahsızı yaradan da qoruyan da Allahdır. Əgər bu dünya bir imtahandırsa, arayış, axtarış seçimdirsı, külli iradə ilə nisbi iradənin bərabər birgəyaşamıdırsa, bu zənginliyə, fərqliliyə arxa çevirməyin, göz yummağın heç bir anlamı yoxdur.

Hər şey Allahın təcəlləsidirsə və Allah hər yerdədirsə, yaradanın ayrı-ayrı insanların qafasında və ya ürəyində olmaması, özü də müxtəlif səbəblər daxilində olmaması nəyi dəyişə bilər?

Hər nəfəsdə Allaha iki can borclu olan insan Allahın ucalığını qəbul etmirsə, bu həmin insanın öz qəbahətidir. Onun Allahın ucalığına heç bir dəxli yoxdur.

Güney Azərbaycanın görkəmli elm və fikir adamı, ürək cərrahı Cavad Heyətin bir sözünü heç unutmuram: “Mən Allahı, din alimi şeyxülislam atamın bəyanlarında, sidqi-ürəkdən etdiyi ibadətlərdə deyil, özüm etdiyim ilk cərrahiyyə əməliyyatında tapmışam. İnsanı yardıqdan sonra gördüyüm mənzərə qarşısında donub qaldım və “Çox şükür sənə Allahım. Sən böyüksən”, - deyə pıçıldadım. Gördüyüm bu sözlə ifadə olunmayan mürəkkəblik məni əbədiyyən Allaha bağladı”. Bu sözü yüzlərcə elm adamı bədahətən söyləyib. Yüzlərcə sənət adamı ürəklərinə dolan vəhyi, ilahi oyanışı ifadə ediblərsə, bizim bu sözlərin gerçəkliyinə görməzlikdən gəlməyə mənəvi haqqımız varmı?!

Dilimizdə dini-mifoloji məna yükü olan yüzlərcə deyimlər var. Hardansa onlardan biri yadıma düşdü. “Əhlətdə bir daş var idi. Götürən də peşman, götürməyən də”. Nədənsə bu deyim mənə Mirzə Fətəlini yada saldı. Bəlkə də Mirzə Fətəli üzərində düşüncələrim o deyimi xatırlatdı.

Mirzə Fətəli qəbrinə qoyulmuş o xəbərdarlıq daşını götürmüşdü. Amma o dünyada həmin daş ona ölmədiyinin xəbərdarlığı üçün lazım olmamışdı. O qaranlıq məzarda öldüyü ilə çoxdan razılaşmış və bütün materialist filosoflar kimi sadəcə maddənin bir halından başqa bir halına keçməsi həqiqətini (öz həqiqətini!) qəbul etmişdi. Onun peşman olduğunu və ya olmadığını yalnız ehtimal etmək olar. Məncə, o, dediklərinə peşman olmamış, günahlarını da boynuna almışdı. Bəlkə də səhv düşünürəm. Sadəcə bilmirəm.

Mirzə Fətəli bu dünyadakı düşmənlərini o dünyaya aparanlardandır. Amma heç kəs heç nəyi dəyişə bilməz – o dünyada da, bu dünyada da.

Həmişə dost olaraq qalan yalnız Allahdır. Düşmən sənin özünsən.

Başqasına da, özünə də, Allahına da.

Ovcundakı əhlət daşı Mirzə Fətəlinin ətəyindən tökülmüş daşların sonuncusu idi. O daş Mirzə Fətəlinin əlində sıxılmaqdan bir damla yaşa dönmüş gözlərindən deyil, əlindən süzülüb torpağa düşmüş, rəhmət qapısı açılmışdı.

Bəli, həqiqətən də Günəş Şərqdən doğur. Günəşin Şumer torpağından təkallahlı dinlərin müqəddəs kitabların, sirli-soraqlı sənətin, ədəbiyyatın da Şərqdən nəşət tapdığı müqəddəs torpaqlardan – peyğəmbər torpaqlarından Çindən, Hindistandan, Yaponiyadan... doğması inkar edilməz gerçəklikdir. Fəqət ən qatı qaranlığın, istibdadın, cəhalətin, fanatizmin də Vətəni Şərqdir, desək əsla yanılmarıq. Şərq bu paradoksu yaşayan ziddiyyətlər coğrafiyasıdır, desək o zaman haqlı olarıq ki, coğrafiyanı yalnız torpaq, ərazi anlamında deyil, həm də mənəviyyat, dünyabaxış, sivilizasiya anlamında qəbul edək.

Nəzərə almalıyıq kökləri Şərqdə, başı Qərbdə olan dahilərdən biri idi Mirzə Fətəli Axundzadə. Ziddiyyət mexaniki mənada anlaşılmamalıdır. Dialektik məntiqin, qeyri-səlis düşüncənin anası olan ziddiyyət hərəkətin, dinamizmin, transformasiyanın - dönüşümün ana qaynağıdır.

Mayasında Şərq olmayan Qərb ədəbiyyatı yoxdur və ola da bilməz. Müqəddəs "Tövrat", "İncil", "Zəbur", "Quran" ayətləri, "1001 gecə" əsrarı, şahmat oyun qurğusu, səhra ehtirası, gözəllik və eşq, əsrar və müəmma olmayan böyük Qərb ədəbiyyatı imkansızdır. "Tövrat"ın "Süleymanın nəğmələr nəğməsi"ndən bir damla olmayan hansı eşq dastanı, romanı var?

Mirzə Fətəli bütün bunları gözəl bilirdi. Oxumuş, dönə-dönə xəyalında incələmiş, zaman-zaman qələmə almış, təhlil süzgəcindən keçirmişdi. Şərq formatlı dünya Mirzə Fətəliyə dar gəlmişdi. Çünki Şərq anlayışı nisbi idi. Qərbin Şərqi, Şərqin Qərbi demək idi. Dünyanın Günəşi biridi və doğuşla batış nisbi idi. Yuvarlaq dünyada istinad nöqtəsi axtarıb tapmayan Qalileo Qaliley kimi şaşqınlıq və tərəddüd içində idi. Batı elmin zirehinə bürünəndə Doğu xəyalın, hissin ağuşunda idi. Fürsətcil Qərb Şərqi sömürdükcə zəli kimi şişirdi, Şərqin maddi və mənəvi sərvəti Qərbə axdıqca feodal-patriorxal zəncirlər Şərqə sarıldıqca məhkumiyyət, cəhalət müqəddəs olan hər şeyi dəyərsizləşdirirdi. Dərin düşüncə içində dünyaya baxıb çıxış yolu axtaran Mirzə Fətəli Qərb yolunu seçdi. Şərq ürəkli Qərbli olmaq onun taleyi idi. Ancaq Mirzə Fətəli sakit seyrci, passiv müşahidəçi deyildi və ola da bilməzdi. O, mürəkkəb sosial münasibətləri fəal aktyoru olmalı idi və oldu da. İslahat və inqilab fəlsəfəsini Qərbdən yaradıcı şəkildə alıb onu Şərqdə uyğulamağa başlayan Mirzə Fətəli, macəra, ümid, qorxu, risk, əzab dolu bir yola girmişdi. Bu yolun dönüşü yox idi.

Dünyada elə insan var ki, hiss yolunu seçir. Eləsi də var ki, ağıl yolunu. Mirzə Fətəlinin ağıl yolunu seçməsi şübhəsizdir. Fəqət Mirzə Fətəlinin hiss

damarlarından axan qan heç vaxt durmaq bilmədi. Ağıl yolunu seçib hiss yolunda duyduğunu tapan, axtardığında böyük ziddiyyətlər yaşayan insan, gücündən xəbərsiz pəhləvana o qədər bənzəyir ki, başqa müqayisə tapmaqda çətinlik çəkirəm. Əlifba, materializm, maddəçilik, insan mərkəzli fəlsəfə, praqmatizm, alturist arayış, tənqid konsepsiyası, siyasi seçim, demokratiya düşüncələri, əqlyucilikdən başqa bir şey deyildi. Batının sənət küləkləri onu bugün bir okeana çıxarmışdı. Bir Şərqlinin arayış və axtarışları Qərb dünyası üçün maraqsız deyildi.

Ancaq Mirzə Fətəlinin hiss dünyasının ona bəxş etdiyi altı dram əsəri əvəzolunmaz mənəvi sərvət kimi Şərq dünyası üçün misilsiz fenomen idi. Bir şey axtarıb haqqında düşünmədiyi daha qiymətli, əvəzsiz bir şey tapan Mirzə Fətəlinin başına xoşbəxtlik quşu qonmuşdu. Bədbəxtlik içində yaşayan xoşbəxt adam xalqının da, insanlığın da nadir tarixi şəxsiyyətlərindən biri idi. Bunu sadəcə xəbərsizlik nağahanlıq kimi anlamaq doğru sayılmaz. Burada hissi olanla əqli olanın sərhəddini tapmaq çətindir.

Mirzə Fətəlinin maarifçi varlığını, demokrat kimliyi, materialist düşüncəsi, dialektik arayışları, ateist qənaətləri tamamlasa da, onun komediyaları Şərq üçün də, Qərb üçün də ədəbi möcüzə idi. Bu ədəbi möcüzəyə yüklənən hər cür ağıl yükü, arayış və analiz diqqətəlayiq satılmalıdır.

Biz – XXI əsrin adamları Mirzə Fətəlini oxuyarkən heyrətlənirik və ona olan böyük ehtiyacımızı gizlədə bilmirik. Onun yanlış qənaətləri də, əsassız, göydəndüşmə hökmləri də, ədalətsiz qənaətləri də bizim üçün qiymətli və əzizdir. Xalqının, insanlığın tarixində əsaslı rol oynayan dahilərin uğurları da, uğursuzluqları da, tapdıqları da, tapa bilmədikləri də bizim üçün əvəzsiz qiymət daşıyır. Hər şeyi ilə bizə yol göstərən Mirzə Fətəli Axundzadə tariximizin, mədəniyyətimizin, siyasi-fəlsəfi düşüncəmizin elə önəmli şəxsiyyətidir ki, o heç vaxt unudulmayacaq, fikir öndəri, yaradıcılıq nümunəsi olaraq qalacaq.

Mən buna şübhə etməyənlərdənəm. Bu gerçəyi ən gözəl bilən onu dahi davamçıları Mirzə Cəlil, Sabir, Üzeyir bəy və M.Ə.Rəsulzadə olmuşdur. Müəllimlərindən görünən tələbələr, tələbələrindən görünən müəllim qədər qüdrətli, təkrarsız və əvəzedilməzdir.

Xalqın bölünmüşlük faciəsini uşaqlıqdan başlayaraq ailəsində yaşamaq, müstəmləkəçi xalqın rəsmi məqamında işləmək məcburiyyəti ("enoletlər altında böyük ürək daşımaq" – S.Vurğun gözəl deyib), rus imperiya dəftərxanasında onun rəzilliyinin içini-içalatını görmək, doqquz övlad dağı çəkmək, cəhalətin hər növünə hədəf olmaq, sağdan, soldan, yuxarıdan, aşağıdan vurularaq təklənmək və daha nələr, nələr Mirzə Fətəlinin qismət payı idi. Bütün bu dəhşətləri Mirzə Fətəli seçməmişdi. Onlar Mirzə Fətəlini seçmişdilər. Onu hədəf seçənlərdən biri, bəlkə də birincisi elə Mirzə Fətəlinin

özü idi. Ən böyük rəqiblərini içində yaşadan dahilər kimi Mirzə Fətəli də öz-özünün rəqibi idi...

Xürafat cəngəlliyindən addım-addım keçdikcə Mirzə Fətəlinin aldığı yaralar, axıtdığı qan da artırdı. Qazandığı hər uğur ona qanı-canı bahasına, ailəsinin iztirabı sayəsində başa gəlirdi. Mirzə Cəlilin üzərində durduğu "qan qoxusu" yalnız Mirzə Fətəlinin qaldırdığı məsələlərdən deyil, həm də onun özündən gəlirdi. Yəni "qan qoxusu" Mirzənin özünün seçdiyi alın yazısı qoxusuydu.

...Elm kəlməsi Quranda ən çox təkrar olunan anlayışdır. Əlbəttə ki, Qurandakı elm qavramı çağdaş insanın indiki yəhudi elm sisteminin dilində, məntiqində deyil.

Müasir elmdə islam elminin hökmlərini, qənaətlərini təsdiq və isbat edən yüzlərlə kitab yazılıb. Bu kitabların çoxu Avropada, müsəlman olmayan alimlər tərəfindən yazılıb və ya ekrana gətirilib.

Makro və mikro aləmi əhatə edən araşdırmalar dərinləşdikcə Quran və elm mövzusu daha çox reallıq qazanır. Bunun örnəkləri o qədər çoxdur ki, onları bir-bir göstərməyə ehtiyac yoxdur. Kitablar, sənədli filmlər kifayət qədərdir, internet bilgiləri də yetərincədir.

İlahi olanla real olanın, dünyəvi olanın qarşılığı, keçidləri və əlaqəliliyə o qədər təbiidir ki, qəlbini, ruhunu şeytan oğurlayan Allahsız bunu heç bir zaman anlaya bilməz.

Dünya alimləri (fiziklər, riyaziyyatçılar, tibb) sübut ediblər ki, inanaraq dua edən adam üç-beş yaşlı uşağa çevrilir, ətraf mühitdən ayrılır və fövqəltəbii aləmə qovuşur.

Kvant mexanikası isbat edir ki, yaşadığımız dünyada bir neçə reallıq eyni zamanda mövcudluq var. Ayrı-ayrılıqda mövcud olan eynizamanda müstəviləri ötüb keçmək üçün öz müstəvini itirməlisən və ya öz müstəvini tərk etməlisən. Dua bu prosesi gerçəkləşdirən əsas amillərdən biridir. Dua edən adam öz "orbitindən" çıxır və başqa bir orbitə düşür. Beyində proseslər mərkəzə yönəlir və bədənin mövcudluq parametri unudulur. İslamdakı Merac qavramı, ekstaz-cəzb kimi qavramlar ayrı bir şərh istəyir.

Bu uzun və anlamlı ömürdə Mirzə əzablar da çəkdi, hədə-qorxular gördü, təzyiq, aşağılama, iztirab yaşadı, fəqət peşman olmadı, səhv etdiyini düşünmədi belə. Tamam başqa fikirdə olsan da, bəzi fikirlərinə görə nifrət etsən belə Mirzə Fətəlinin əzmi və iradəsinə sayqı duymamaq mümkün deyil.

Mən şəxsən Mirzə Fətəlinin dinə, özəlliklə islam dininə, Hz. Məhəmmədə münasibətini əsla qəbul etməyənlərdənəm. Fərqli yollar, fərqli əqidələr dünyanın qeyri-adiliyini, insan fenomeninin zənginliyini və ziddiyyətlərini əsla inkar etmir. Altı dram əsəri ilə Allaha bu qədər yaxın olan insanın,

yaradıcının Hz. Məhəmmədin həyatını yorumları dahi zındıqlığından başqa bir şey deyil. Mən hələ ürəyində Hz. Məhəmməd sevgisi olan milyardlarla insanın ruhunun incidildiyini, vicdanının sarsıldığını demirəm.

Bu yazıda mənim də dərin ziddiyyət yaşadığımı söyləyirsinizsə sizlərə tamamilə haqq verirəm. Mənim düşdüyüm ziddiyyətin səbəbi haqqında yazdığım tarixi şəxsiyyətdən gəlir, - desəm bu, problemə aydınlıq gətirmək, can qurtarmaq sayılmaz.

İnsanın bir adı da günaheləyən deməkdir. Belə olmasaydı hamı insan yox, mələk olardı.

Mirzə Fətəlinin yaşadığı ictimai-siyasi vəziyyəti, psixoloji durumu dərk etmək faciəsini nəzərə almadan dəyərləndirmə aparmaq olmaz. Mirzə Fətəlinin tanıdığı, sevdiyi, öyrəndiyi Allahsız alimlərin, yazıçıların Allahı, Mirzə Şəfinin "şarlatan" dediyi din tüccarlarının Allahından qat-qat böyük olmuşdur. Filosofun Allahın varlığını inkar etməsi bir başqa şəkildə təsdiq etməsidir. Qananla qanmazın fərqi o qədər böyükdür ki, heç bir bəraət o fərqi yox edə bilməz. Şərqin XIX əsrdəki durumu Mirzə Fətəlini ifrata sürükləmiş, əks qütbdə mövqeləndirmişsə, bunun səbəbi cəhalət, xürafat, gerilik, irtica olmuşdur. Bu sözləri yaza-yaza mən dramaturq, filosof, inqilabçı, reformator Mirzə Fətəlini böyük məhəbbətlə sevən insan kimi onun dinə və Füzuliyə münasibətdə haqsız olduğunu qəbul edirəm.

Böyük insanların böyük səhvi olduğu həqiqətini də unutmayaq. Bəlkə başqa daha ciddi səbəblər də var ki, düzü mən onları bilmirəm, əslində heç bilmək də istəmirəm və hər şeyi bildiyim, dərk etdiyim şəkildə yazmağa üstünlük verirəm.

Mirzə Fətəli əlinə qələm alıb yazıya başlayanda Allah onun qulağına bir neçə şey pıçıldadı, ona vəhyi-ilahi verdi. Bu vəhylə o, beş-altı il içində altı dahiyanə dram əsərini və bir müddət sonra "Aldanmış kəvakib"i, ədəbi-tənqidi yazılarını qələmə aldı.

Şeytan fürsəti fövtə vermədi və Mirzənin o biri qulağına bir şeylər oxudu və yazar elmsiz və əsassız "Məktublar"ını yazdı, ilahi qüdrətə şəkk gətirdi, ilahi olanla dünyəvi olanı qarışdırdı, bədii dühasına yaraşmayanları yazdı. Yazdı və onların ağırlığı altından çıxa bilmədi.

Bunu da unutmayaq ki, Mirzə Fətəlinin ədəbi varisləri əsla Allahsız olmayıblar ən qəribəsi və qanunauyğun olan da budur ki, Mirzə Fətəlinin tələbələri Azərbaycanın milli bayrağındakı yaşıl rəngə qarşı çıxmayanlardır. Onlar cəhalət və mövhumat düşməni olublar ki, bu da təbiidir. Amma heç bir zaman "külli-ədyanı" əfsanə hesab etməyiblər. Mirzə Fətəlinin səpdiyi toxumlardan bir xeyli dinsizin də yaranması təbiidir. Mən şəxsən toxumların hamısının Mirzə Fətəlidən gəldiyini düşünmürəm. İslamafobiyanın mənbələri

çoxdur və onlar üzərində də durmaq istəmirəm. Heç zaman da onlarla bu məsələdə polemikaya girmədim (başqa məsələlərdə, xüsusən ədəbi və siyasi meydandakı polemikalarım olub, var və onların olmayacağını da düşünmürəm.)

İlahiyyat məsələləri, xüsusilə hermenevtika dini epistomologiya və hüquq problemləri professinal hazırlıq və dərin bilgi istəyir. Həvəskar bilgisiylə çözüm aramaq yersiz bir işdir. Qəzali, Əl-Ərəbi, İbn-Sina, Mövlana, Şeyx Şəbüstərini... bilmədən Quranı şərhə girişmək uğursuzluqdur.

Mən Mirzə Fətəlidə bir şeyi onun bu zülmətdən – Allahsızlıqdan bəraəti üçün (əlbəttə ki, hakim biz deyilik) iki amili göstərə bilərəm. Birincisi, Mirzənin ifrat şəkildə dinsiz (əslində kafir demək daha doğru olardı) elmi, bədii ədəbiyyatın, yazılanların təsiri altına düşməsi, ikincisi mövhumat, cəhalət qaranlığının aşırı şəkildə şişirdilərək ilahi səviyyəyə isnad edilməsi. Bu cür mübaliğə, şişirtmə ağıl faktı yox, daha çox hissi (nifrət, qisas, kin...) gerçəkliyidir və əlbəttə ki, kökündən yanlışdır. Dahi Mirzə Fətəlinin ruhunu azdıran və bu azmışlığı ideologiyalaşdıran şeytana Allah lənət eləsin, - deməklə çoxsaylı suallardan canımı qurtarmaq istəyirəm, oxucum. Ən çətin və cavabsız sual adamın özünün özündən sorduğu suallardır.

Elə başa düşməyin ki, dini, xüsusən islam dinini təbliğ edirəm. Əsla. Mən hər kəsin Allahını tapmasını onun həyatının ən əziz və təkrarsız anı hesab edirəm. Yazdıqlarım Mirzə Fətəli müəllimimlə mənim qırx-qırx beş illik söhbətlərim, intibalarımdan başqa bir şey deyil. Əgər assosiativ məqamlar varsa, bunu da təbii bil. Burada söhbətin söhbəti, sözün sözü çəkdiyini də unutmayaq. Biz, yəni sən və mən. Başımızın üstündə də Allah. Könlümüzün dərinliyində də Allah.

A.Eynşteynin fəlsəfi məqalələrini və xatirələrini, Bertran Rasselin özü haqqında yazdıqlarını oxuduqca Mirzə Fətəlini daha yaxşı anladığımı düşünürəm. Dahi şair və kommunist Nazim Hikmətin, sosializm realizminin təməlini qoyan Maksim Qorkinin və onlarca dahinin həyatı və taleyi də bu və ya digər şəkildə Mirzə Fətəlininkinə bənzədiyini diqqətinizə çatdırmaq istəyirəm. Öz zamanına sığmayanları öz zamanına sığanlarla bərabər dəyərləndirməyi ədalətli olmadığını bildirmək istəyirəm.

Bir də ki, Mirzə Fətəlini qəbul edib, dəyərləndirməsi və ya kimlərinsə qəbul etməməsi, tənqid və ya təhqir etməsi nəyi dəyişir ki?!

Bir də üzr istəyərək bir şeyi də xatırlatmağı özümə borc bilirəm. Təvazökarlıqdan uzaq sayılsa da deməliyəm ki, mən oxucu üçün deyil, özüm üçün yazanlardanam. Hərdən oxucunu xatırlasam da, əsla oxucu üçün yazmıram. Mən özümü inandırmağa çalışıram, içimdəki əks fikirli adamla dartışıram, bəzən uduram, bəzən də uduzuram. Bu mübahisə ədalətli olan

Allahdır. Haqqında danışılan yaradıcı da mənim üçün çox da önəmli deyil. O sadəcə bəzən öz fikirlərini xatırladan tərəfsiz adamdır. Söhbət ondan getdiyi üçün o çox şeyə qarışmır. Başqalarının fikri də onun üçün çox da önəmli deyil.

Bir şey də deməyə bilmərəm ki, ayrı-ayrı zamanların formulunu, ayarını tapmış, böyük məktəb yaratmış dahilər əbədi dahi və ya qəhrəman sayılmaz. Əbədi olan Allahdır. Bu anlamda əbədi olanı anlamağa, dərk etməyə çalışmaq büsbütün başqa bir dünya, başqa bir dünyabaxışıdır. İlahi aləmlə real aləmin, sonsuzluqla konkret zamanın və zəminin qarşılaşdırılması doğru sayıla bilməz. Və konkret bir yaradıcı şəxsiyyətin tarixi xidmətləri, əsərləri heç vaxt unudula bilməz. Unutmayaq ki, sevənlərini də, sevməyənlərini də, onu inkar edəni də, etməyəni də Allah özü yaradıb. Peyğəmbərləri də, şeytanı da, mələkləri də, iblisi də Allah özü yaradıb. Biz hər yerdə Allahın vəkilliyini yapa bilmərik. Bizim Allaha inanmaq, onu sevmək və ondan qorxmaq haqqımız var.

Mirzə Fətəli kimi biz insanlar da Allahın zərrəsiyik. Mühakimə haqqı yalnız və yalnız Allahındır.

Qoy o böyük Allah məni bu ziddiyyətli yazıma görə bağışlasın. Allah Mirzə Fətəliyə rəhm eləsin...

Vallah, məni qınamayın. Mirzə Fətəlinin Avropaya ilk pəncərə də, qapı da açan kişinin məqalələrini oxuyanda əsəbiləşirəm. Şərqə, ümumən özlərindən olmayanlara, özəlliklə müsəlmanlara ikinci dərəcəli insan kimi baxan Avropa əhli Şərqin tarixini niyə unutdu? Tarixin təkərrür etmədiyinəmi qərar verdi? Müstəmləkəçi vampirliyini əbədiyyətəmi qovuşdurmaq istəyir, əla həzrət Avropa?! Xristian klubu olan Avropa Birliyinin müsəlmanlara qarşı barışmazlığı hansı demokratiya maddəsinə yazılıb, görəsən?

Oxucum, mən əsla Avropa düşməni – filan deyiləm. Avropa standartlı həyat tərzini, elm-texnika səviyyəsini, əsl sənət örnəklərini sevənlərdən, sayqı duyanlardan biriyəm. Əgər hər Avropa millətində başqalarına qarşı ciftə standart varsa daha mənim sözüm yoxdur. Gücüm acığımı Mirzə Fətəliyə tökməyə çatır. Ürəyimdə deyirəm: "Kişi, sən bizi göbəyimizdən Avropaya bağlayanlardan birisən, bəlkə də birincisisən. Al, bu da sənin millətini adam yerinə qoymayan Avropa. Ustad, Avropa yolunun ideal olması fikri Şərqin gələcəyinə, özü də tarixdə təsdiq olunmuş gələcəyinə son qoymadımı? Avropanın ideal model olmadığını tarix isbat etməkdədir. Ədalətsizlik və ikili standart heç bir vaxt ideal dövlət anlayışına sığmayıb və sığmayacaq da. Fransanın, İngiltərənin, Almaniyanın, Yunanıstanın, İsveçrənin... Rusiya sayağı erməni canyanalığı soyqırım hay-küyü hansı tarixi həqiqətə, hüquqa sığar?

Suallar çoxdur, Mirzə Fətəli. Tarazlaşdırılmamış, ayarı qoyulmamış Avropapərəstliyin Şərq üçün fəlakət olduğunu isbat etməyə ehtiyac yoxdur. Hər şey göz qabağındadır.

Görünür, Günəşin Şərqdən deyil, Qərbdən doğduğunu isbat edənlər bizi öz yalanlarına inandırdılar. Bizim başımızın üstündən öz dinlərini uca tutdular, bizim dini təhrif etdikləri Tövratın, İncilin gününə salmaq istədilər Quranı. Gücləri çatmadı. Gücləri çatmayan məkrli islam düşmənçiliyini, Qurana atılan ucuz iftiraları sənin və sənin kimilərin əli ilə etdilər. Təəssüf, ustad, təəssüf. Xamnədən Şəkiyə, Şəkidən Tiflisə, Tiflisdən dünyayasəsi yayılan Mirzə Fətəli, böyük insan, səni sevdiyim qədər də qınayıram... Bağışla məni ustad, uman yerdən küsərlər...

Bizim hamımızın yaddaşındakı damarlarda həm də Mirzə Fətəlinin qanı axır. Qazandıqlarımız da, qeyb etdiklərimiz də, uğurumuz da, ziddiyyətimiz də həmin qandan gəlirsə, doğrudan da, olacağa çarə yox imiş.

Tarix müasirləşmənin Yapon modelini, eləcə də Çin, Güney Koreya... modellərini də ortaya qoydu. Məlum oldu ki, müasirləşmə yalnız Qərbləşmə deyil. Öz dininə, ənənəsinə, tarixinə, mentalitetinə bağlı qalaraq elmdə, texnikada, iqtisadiyyatda, həyat tərzində müasirləşə bilərsək. Mirzə Fətəli yolunun ziddiyyətinin bir tərəfi də budur. Öz kökünə bağlı olmayan xalqlar əriməyə, assimilə olmağa məhkumdur. Şərqin üzünə açılan qapı Şərqin öztarixi dəyərləri üzərində ucalmalı, insanı dəyərlərin hamısını ehtiva etməlidir.

Canlı aləmdə, xüsusən insanlarda irsiyyət deyilən bir bioloji qanun var. Hər kəsin təsdiqi və davamı onun öz övladıdır. Bu bioloji qanun sosial həyatda təsdiq olunur. Mühit, tərbiyə, təhsil faktorlarını nəzərə almadan bu qanunun sosial gerçəkliyindən danışmaq çox çətindir və onların ayarı, tarazlığı da çox mühümdür. Amma çox şeyin irsiyyət, gen amili həll etdiyini də inkar etmək çətindir.

Yaradıcılıq aləmində də irsiyyət, davam, gen yaddaşı mühüm rol oynayır. Yaradıcı insanın bir təsdiqi də onun estetik, fəlsəfi, poetik dəyərlərdə, başqa sözlə yaratdığı məktəbdədir. Yuxarıda qeyd etdiyimiz kimi Mirzə Fətəlinin məktəbi modern düşüncə və yaradıcılıq məktəbidir. Həsən bəy Zərdabinin (həm də müasiri), Nəcəf bəy Vəzirovun (dramaturgiya və teatr), Ə.Haqverdiyevin (dramaturgiya, nəsr), Ə.Hüseynzadənin (fəlsəfə, ictimai fikir, mətbuat-publisistika), Mirzə Cəlilin (dramaturgiya, nəsr, mətbuat, publisistika), Mirzə Ələkbər Sabirin (şeir), Üzeyir bəy Hacıbəyovun (dramaturgiya, teatr, mətbuat-publisistika), Ömər Faiq Nemanzadə (ictimai fikir, mətbuat-publisistika), Məhəmməd Ağağ Şahtaxtinskini (mətbuat, əlifba, ictimai-siyasi fikir), İsmayıl bəy Qaspralı (mətbuat, ictimai-siyasi fikir), Ə.Ağaoğlu (ictimai-siyasi fikir, fəlsəfə), Məhəmməd Əmin Rəsulzadə (ictimai-siyasi fikir, mətbuat-publisistika), Mirzəli Möcüz (şair)...

Əlbəttə, bu siyahı bütöv deyil və hardasa şərtidir. Modern və ən modern Azərbaycan ədəbiyyatının, ictimai-siyasi fikrinin Mirzə Fətəlinin çuxasından çıxdığını da təsdiq etməmək olmaz. Azərbaycanın Güneyi və Quzeyi,

bədii düşüncə, ictimai-siyasi fəaliyyət sərhədlərinə sığmır. Çünki, o yalnız bütövAzərbaycanın deyil, həm də bütün türk dünyasının Qafqazların, Yaxın və Orta Şərqin, Hindistanın... böyük fikir öndəri, sənət, ədəbiyyat nəhəngidir və bu mənada həqiqətən də "baniyi-kar"dır.

Mənim məqsədim bu məktəbi uzun-uzadı təsvir etmək, fərqli yanları və yönləri ilə araşdırmaq deyil. Niyyətim bu günümüzə qədər davam edən bu böyük məktəblə bağlı bir önəmli amili vurğulamaq və dolayı yolla Mirzə Fətəli məktəbində nəyin bar verdiyini törəyib artdığını, davamlılığı daşıdığını, nəyin qısır qaldığının, intişar etmədiyinin altını qırmızı xətlə cızmaqdır.

Mirzə Fətəli məktəbi tam şəkildə dərindən araşdırsaq biramil qabarıq şəkildə ortaya çıxacaqdır.

Mirzə Fətəlinin komediyaları və nəsri onun ən sağlam yerdən davamını şərtləndirən təməldir. Zaman keçdikcə arılaşıb-durulaşan bu məktəb milli və bəşəridəyərlərin vəhdətidir desək səhv etmərik.

Mirzə Fətəlinin ictimai-siyasi, ədəbi tənqidi, ədəbi dil nəzəriyyəsi və təcrübəsi, mətbuat publisistika istiqamətindəki xidmətlərini və birinciliyini kimsə inkar etməz, edən olsa da, haqsızlıq edər. Fəqət Mirzə Cəlilin din, islam əleyhinə yazıları, fikirləri, bəzi inkarçılıq meylləri qısır qaldı, davam etdirilmədi desək, həqiqəti ifadə etmiş olarıq.

Doğrudur, bu tendensiya cəhalətə, mövhumata, dini irticaya, yobazlığa qarşı çox əhəmiyyətli olmuşdur. Ancaq Allahsız olmamış, "Külli-ədyanı" inkar etməmişdir, Füzulini özünə doğma bilmişdir.

Törəyib artmayan ateist Mirzə Fətəli 70 illik ateist ideologiyalı hakim olduğu zaman içində də boğazdan yuxarı olmuş, rejim şərti, şüar kimi göstərmişdir. Dinə, "tiryək", "bar verməyən çiçək" deyən Marks və marksistlər, leninistlər, stalinistlər, maoistər... iflasa uğramış, ateizm çıxmaza girmişdir. Din-əxlaqdır. Amma mən bütün dinsizləri əxlaqsız hesab etməyənlərdənəm. Səmimi dinsiz səmimi aldanmışdır. Fəlsəfə dinləri daşıyanlara sayqım var. Elmi, sənəti özünə din hesab edənləri də anlamağa çalışıram. Dini kitabları oxuyub aradan cəhalət, şarlatanlıq, cindarlıq, əbləhlik... çıxaranlara qarşı amansızam və onları xalqıma, insanlığa düşmən hesab edirəm.

Siyasiləşdirilmiş dinin din olmadığını da açıq şəkildə bildirmək istəyirəm. Din reformatorlarını və yorum özbaşınalığını da bəyəndiyimi söyləməkdə çətinlik çəkirəm.

Hz. Əlinin, Qəzalinin, Əl-Ərəbinin, Yunis Əmrənin, Mövlananın, Füzulinin, İbrahim Haqqı Əfəndinin, Əli bəy Hüseynzadənin, M.Ə.Rəsulzadənin... din yorumu, islama baxışı mənim üçün daha doğmadır.

Bu mənada da Mirzə Fətəli bizi düşündürən mütəfəkkirdir. Onun bəzi fikirlərini, baxışlarını qəbul etməsək də, zərərli bilsək də onun dühasını inkar edə bilmərik.

İnsan dühasının düz xətt üzrə inkişaf etdiyini düşünmək yanlışdır. Ziddiyyətlər, inkarlar, yanlışlar, ifratlar, uc nöqtələrdə dolanmalar insan zəkası üçün təbii proseslərdir. Bütün bunları canlı şəkildə yaşayan Mirzə Fətəli bizə doğma və əzizdir.

...Həyat çox qəribədir. Öncə yolun başından baxırsan, İlahi, bu uzun yol nə vaxt bitəcək?! – deyə düşünürsən. Elə ki, yolun sonuna yaxınlaşırsan "İlahi, bu ömür nə tez keçib getdi?!" – deyə heyrətlər içində qovrulursan.

Mirzə Fətəli bitməz-tükənməz ömrün sonuna yaxınlaşmışdı. Yalnız günlər, aylar, illər deyil, dostlar, düşmənlər, tanış-bilişlər arxada qalmışdı. Ömrün anları ulduzlar kimi sayrışırdı. Uzun ömür anlayışı nə qədər gülməli və anlamsız bir şey imiş. Uzun an ola bilər, uzun ömür olmaz. Vaxtsız ölüm olmadığı kimi vaxtlı ömür də yox imiş. Hər şey nisbi imiş: qələbə də, məğlubiyyətdə vicdan da, əclaflıq da, gözəllik də, çirkinlik də...

Bəlkə ömür bir yuxu imiş. Amma heç bir yuxu sadəcə yuxu deyil. Hər bir insanın yuxusu onun mif dünyasıdır. O, tərəfdən baxanda mif gerçəkdir, bu tərəfdən baxanda mif yalandır, əfsanədən – nağıldan başqa bir şey deyil.

Mirzə Fətəli Qərb mifini də, Şərq mifini də ədəbiyyatları, tarixləri kimi gözəl bilirdi. Amma onun yaşadığı həyat miflərdən uzaq rasional, real həyat idi. Onun yazıb yaratdığı həyat da rasional baxışla qələmə alınmış real həyat idi. Onun fikir mücadiləsi dəkifayət qədər radikal həyatı və amansız mücadiləsi uzunluğundan – qısalığından (nə fərq edər ki...) asılı olmayaraq anlamlı insanın ibrətli həyatı idi.

Mirzə Fətəlinin xalqlara, qövmlərə baxışı olduqca ədalətlidir. İrqə, qana bağlı ayrı-seçkilikdən uzaq duran böyük maarifçi elmin, mədəniyyətin səviyyəsinə görə xalqları bölür, Şərqin problemlərini göstərir. Əgər Mirzə Fətəli "Məktublar"ında "Dünyada əfsanə uydurmaqda ərəblərin, əfsanəyə inanmaqda farsların misli-bərabəri yoxdur", - yazısı bu gəlişigözəl bir atmaca da ola bilər, incə bir zarafat da, yumor da. (Komediyaları Mirzə Fətəlinin yüksək səviyyədə yumor hissi olduğunu göstərmirmi?)

Məncə, bu sözlərdə məkr, yuxarı-aşağı sinifləndirmə aparmaq, yaradan və yamsılayan xalqlar təsnifini gerçəkləşdirmək doğru sayıla bilməz. Şübhəsiz ki, inkişaf etmiş və etməmiş xalqlar var. Maarif, mədəniyyət, texnika meyarları ilə yanaşsaq bölgü aparmaq xalqları bir-birinə qarşı qoymaq deyil, əksinə inkişaf yolunu göstərmək, tənqid və özünü tənqidlə, gülüş və özünə gülüşlə yeni perspektivə çıxarmaqdır.

Məncə, Mirzə Fətəli komediyalarında çox ustalıqla bacardığı bu idealını məqalələrində daha sərt və bəzən birtərəfli şəkildə gerçəkliyə qovuşdurmuşdur. Fikir, düşüncə həyatı belədir. Orada dəqiq reseptlərdən, hökmlərdən daha çox, arayış, axtarış var. Mən bu baxımdan da Mirzə Fətəli yaradıcılığına diqqətlə yanaşmanın vacibliyini bildirmək istəyirəm...

... Mirzə Fətəli ömrü boyu özünü yazmışdır. Bəzən külüngü daşa dəymiş, bəzən qazdığı quyunun boşluğuna düşmüş, xəsarət almış, fəqət heç vaxt durub dayanmamış, özünü qazdıqca qazmışdı.

Nə tapmışsa, içindəki quyudan tapmış, nə itirmişsə içindəki quyuda itirmişdi.

Mirzə Fətəli erkən rəhmətə gedən balalarını bu quyuda dəfn etmişdi. Reallıq qazanmayan əlifbasını da, əlyazmasını yandırdığı əsərlərini də, həyat ona qarşı çevrilmiş kini, nifrəti, böhtanları da bu quyuda basdırmışdı. Mirzə Fətəli vəfat etdi. Onu öz içindəki quyuya dəfn etdilər. Qəbr üstündə adam da az idi, ağlayan da. Gələnlər ağır, qara torpağı deyil, onu gələcəyə yola salan doğmaları idi. Qəbrin içi soyuq idi. Yalnız ona görə yox ki, torpağın üzü soyuqdur. Həm də ona görə ki, həyat kimi, ölüm də onu soyuq qarşılamışdı. Bundan sonra onu iki həyat gözləyirdi. Torpağın üstündə isti sənət, ictimai fikir, elm həyatı və torpağın altında balaları ilə birgə olacağı soyuq məzar həyatı. Mirzə Fətəlinin öz əli ilə qazdığı qəbrin bir daşı isti, bir daşı soyuq, bir daşı xoşbəxtlik, bir daşı bədbəxtlik, bir daşı gülüş, bir daşı göz yaşları, bir daşı keçmiş və bir daşı gələcək, bir daşı məhəbbət, bir daşı nifrət idi...

Sarsılmış insanın, ağır xəstəliyə yaxalanmışın, fəlakətin bir addımlığında dayanmışın Allaha münasibəti bir başqa şəkildə təzahür edir. O insanlara Allah daha çox görünür. Ekstremal vəziyyət insanın daxilindəki pəncərələri Allahın üzünə açır. Allaha yol yaxınlaşır. Kim ağacların, suların dualarını eşitmirsə, insandan başqa canlıların Tanrıya minnətdarlığını duymursa, o Allahdan uzaq düşmüşlərdəndir. Azmışları Allah doğru yola gətirsin.

Mirzə Fətəli bir anın əbədiyyətini yaşayanlardandır. Onun anını əbədiyyətə çevirən amil uğur, sevinc, zəfər deyil, qəfil mənəvi zərbə, böhran, çıxılmazlıq olmuşdur. O anlarda Mirzə Fətəli ömrün qaynadılmış qətran kimi boğazına töküldüyünü, ağrının yavaş-yavaş yayılaraq bütün varlığına hopduğunu hiss edirdi. Hiss etdikcə əzabı-zilləti daha da artırdı.

Canişin dəftərxanasından görünən rus imperiyasının iç üzü onu tədirgin etməyə bilməzdi. Anlayan bütün adamlar kimi Mirzə Fətəli də dərdə boğulur, anlar dönüb ay, il olurdu.

Mirzə Fətəli sonunu bilən, ancaq silahı əlindən yerə qoymayan əsgər idi. Böyük əsgərlər savaşı uduza bilər, ancaq məğlub olmaz.

Qocalıq ölümdən də betərdir. Hər şeyi görürsən, anlayırsan, amma heç bir şeyi dəyişdirməyə gücün çatmır. Zamanın da öz sahibləri var. Sənə get-gedə bu zamanda artıq olduğunu eyhamla, işarə ilə, sonra açıq-aydın şəkildə bildirirlər: dostlar da, düşmənlər də, doğmalar da, yadlar da. Əyilmiş belin, titrəyən barmaqların, tez-tez yaşaran gözlərin, titrəyən dodaqların səni sonsuzluğa doğru itələdikcə, sözünün urvatsızlığını, məsləhətinin

keçərsizliyini anlayırsan. Sən "ağsaqqal" deyil-deyil bir quruşluq edildikcə yaşamaq istəmirsən. Bu dünya xidmətlərdən, zəfərindən asılı olmayaraq hamını ucuzlaşdırır, qədirsiz-qiymətsiz edir. Tez, ya gec... Ay gidi dünya...

Mirzə Fətəli qocalığın acı dadını hiss etməmiş deyildi. Onun qocalıq illəri məhzun və kədərli idi. Onun məfkurə, sənət yolunda on illər boyu gerçəkləşən mücadiləsi bitirdi. Sözlər kəsərini itirir, ömrün son baharının acı külləkləri yorğunluq, ümidsizlik sovururdu.

Ümid uzaq gələcəyə, uzaq nəsillərə qalmışdı. Mirzə Fətəlinin solğun bənizi, heysiz bədəni, heç bir şey vəd etməsə də onun gözünün dərinliklərindəki bir zərrə işıq gələcəyin memarlarından birinin Mirzə Fətəli olacağını açıq-aydın ifadə edirdi.

Zülmət içində bir nur sönürdü...

...Bu yazını yazdığım qısa zamanda nəvəm balaca Kamil böyür-başımda oldu. Mənim yazmamağım, onunla oynamağım üçün çıxardığı o oyunları heç vaxt unutmayacağam. O tez-tez qələmimi əlimdən alıb hara gəldi atır, ya da gizlədirdi. Mən də çox tədirgin olsam da, əsəbiləşsəm də, heç onun qəlbini qırmırdım. Nəvə babanın sönməyən eşqinə məhkumdur. O ki, balaca Kamil ola...

Yazı bitdikdən sonra başa düşdüm ki, Mirzə Fətəli haqqında ən gözəl yazını balaca Kamil yazacaq, ya da onun çağdaşları. Qələmin mənim əlimdən alınıb atılmağını da qəbul etdim. Zaman keçdikcə Mirzə Fətəlinin daha aydın görünəcəyi həqiqətinə də inandım. Belə-belə işlər, Kamil kişi. İnşallah. Sənin əlindən də qələmini (və ya bilgisayarını) öz nəvən alıb atanda lütfən əsəbiləşmə. Oldumu?!

**P. S.** Yazı – qurmaq, tikmək, əkməkdir. Yazı yazmaq qurmağın, tikməyin, əkməyin dadını-duzunu dadmaq xoşbəxtliyidir. Yazını bitirmək çox sevdiyin həmdəmini, həmdərdini həmişəlik itirməkdir. Gedənlər gəlmir, yazı da pozulmur. Səndən ayrı öz taleyini yaşayır.

Yazıda ilk baxışda təkrar kimi görünən yerlər problem baxış bucaqlarının dəyişməsi ilə bağlıdır. "Bütün yollar Romaya aparır" ifadəsinin məntiqinə uyğun olaraq fikirlərin, düşüncələrin, yorumların, tənqidlərin, təxminlərin, hökmlərin də hamısı bizi, yəni məni və sizi Mirzə Fətəliyə aparır.

***İstanbul, 2011***